Guya ki, görmürük bir-birimizi,
Mənim fikrim səndə, səninki məndə.

Axı kim deyir ki, darda, çətində
Sən məndən, mən səndən soyuyasıyıq?
Yoxsa xatirələr səltənətində
Keçmişə çevrilib uyuyasıyıq?!

Bəzən düşünürəm, bəlkə sınaqdı
Bunların hamısı? – Şirin bir xəyal…
Gülüm, bəlkə hicran bizə qonaqdı,
Yenə öz evinə dönəcək vüsal?

Çox da ürəyimdə hələ ümid var,
Dəyib qayalara eşqimin ilki.
Bizim bu ayrılıq, nə etmək olar
Dünyada birinci hicran deyil ki?

## KƏND CIĞIRINDA

Qonaq gəldim doğma kəndə,
Könlüm, gözüm təzələndi.
Coşdu ürək, daşdı ilham,
Varaqlara söz ələndi.

Bu o yoldur, bu o cığır,
Çeşmə üstdən dağa çıxır.
Yeridikcə fağır-fağır
Xatirələr çözələndi.

Sanki məni vurdu şimşək,
Qabağımda bir şux çiçək.
Nazı dedi, məndən əl çək,
Gözü dedi, düzələndi.

Könlümü o baxış tutdu,
Xatirələr naxış tutdu,
Birdən bizi yağış tutdu,
Nur damcılar süzələndi.

Həyadan od tutub yandı,
Gülümsədim, xumarlandı,
Baxışımla tumarlandı,
Baxışımla busələndi.

Nə olsun ki, yağış yağır,
Yeriyirik ağır-ağır,
Bir vaxt məni yoran cığır
Eh, nə yaman kəsələndi?!

Mənə baxdı o gizlicə,
Ayrılanda əsdik necə?!
Göz yummadım həmin gecə
Yatağıma köz ələndi…

**1975**

## SƏNİN SÜKUTUN

Sən mənim ömrümə silinməz bir iz
Qoyandan gözümə getmir yuxu da.
Dünyada bircə yol görüşmüşük biz
O da ki yuxuda, şirin yuxuda.

…Mehriban dost kimi gəzdik o gecə,
Sonra bir qayığa mindik səninlə.
Baxıb köks ötürdü çoxu gizlicə,
Qibtə hədəfinə döndük səninlə.

Sən susdun, danışdım mən kəsik-kəsik,
Qara gözlərinə dikildi gözüm.
Sənin sükutunu tələm-tələsik
Xatirə lentinə köçürdüm özüm.

Nə vaxt ki, yetəcək vüsalın sonu,
Nə vaxt ki, hicrandan inləyəcəyəm,
Dinəcək xatirə maqnitafonu,
Sənin sükutunu dinləyəcəyəm…

## DİNDİ O ŞİRİN SÖZLÜM

Dindi o şirin sözlüm
Dillərmi xəbər tutdu?
Güldü o ala gözlüm,
Güllərmi xəbər tutdu?

Günləri aya qatdım,
Axır murada çatdım.
Layla selinə batdım,
Yellərmi xəbər tutdu?!

Toppuş yanağı aldı,
Ölmüş elə bil baldı.
Birdən o çapan çaldı,
Əllərmi xəbər tutdu?!

Bir gün qız ayaq açdı,
Evdən həyətə qaçdı.
Mən bir quş olub uçdum,
Çöllərmi xəbər tutdu?!

Gur saçlar olub dən-dən,
Yoxsa qoca oldum mən?!
Ah, dalğalı ömrümdən
İllərmi xəbər tutdu?!

Xoşbəxt yaranıb insan,
Ağ gün diləyir hər an,
Ümman qədər arzumdan
Sellərmi xəbər tutdu?!

**1976**

***

Daşda kəklik çolpaları fərə-fərə,
Ov gəzirəm tala-tala, bərə-bərə.

Başqa ceyran ləpirinə düşərəmmi,
Ala gözlüm, gözlərini görə-görə?!

Sənin üçün təzə nəğmə oxuyaram,
Bulaqların səsinə səs verə-verə.

Səssiz-küysüz bir talada görüşərik,
Sevincimiz sığışarmı göyə, yerə?!

Ucalarıq, unudulmaz görüşləri
Ömrümüzün binasına hörə-hörə.

Dolanarıq meşələri qarış-qarış,
Xoş ətirli çiçəkləri dərə-dərə.

Bu vüsalın tükənməyən şərbətini
Paylayarıq sevənlərə dərə-dərə…

**1971**

***

–Yenə buludların tutqundur üzü,
Yəqin ki, səmanın sözü var, – dedin.
Daha bu qayğılar bezdirib bizi,
Ölsəydik, canımız qurtarar, – dedin.

Mənim ürəyimi budur ağrıdan,
Azalır, sozalır, quruyur ömrüm.
Qurtula bilmərəm dərddən, ağrıdan,
Qayğılar içində əriyir ömrüm.

Elə bulanığıq, durulmuruq ki…
Hey söhbət edirik ürəyimizlə.
Biz öz arzumuzla doğulmuruq ki,
Ölə də bilmərik diləyimizlə…

**1991**

## SƏN DEMƏ

Köksümün altında çırpınır ürək,
Qorxuram bir azdan ömür qurtara.
Qatardan ayrılan qərib durna tək
Uyuşa bilmirəm özgə qatara.

Əzabla gəlmişəm bu qədər yolu,
Arabir köksümdən qopub qərib ah.
Gedirəm, avtobus adamla dolu,
Uyuşa bilmirəm kimsəyə, Allah?

Ürəyim alışır gizli ocaqda,
Hissləri ovutmaq nə adət imiş?
Sən demə, bir qərib dayanacaqda
Yolumu gözləyən Səadət imiş…

**1991**

## HƏSRƏT ÇİÇƏKLƏRİ

Təşnəyəm, gəl paralanmış
Köksümə yağış kimi yağ.
Bircə yol bulud gözünlə
Qan çəkən gözlərimə bax.

İllər boyu sənin əksin
Ürəyimdə gecələyib
Bəbəyimdə həsrətinin
Çiçəkləri qönçələyib…

## CƏZA

Körpədi, quzuya bənzər,
Gözləri güzgüyə bənzər.
Beli elə incədi ki,
Kəməri üzüyə bənzər.

Qarşısında nəfəs dərdim,
Təzələndi köhnə dərdim.
O gözlərin aynasında
Saçlarımı dümağ gördüm.

Təravəti yaza verib,
Saflığı bu qıza verib.
Gözüm görür, əlim çatmır,
Tanrı mənə cəza verib…

***

Payız gedir, başı qarlı
Dağlardan xoşumuz gəlir.
Qış bizi elə bezdirir,
Bahardan xoşumuz gəlir.
İllər ona qanad verib,
Hər insan yaşa borcludu.
Qış bahara borclu deyil,
Baharsa qışa borcludu…

## GÖZƏLLİK DƏ ƏMANƏTDİ

Elə arxayın gəzirlər
Bu dünyanın gözəlləri,
Görmürlərmi xiyabanda
Xışıldayan xəzəlləri?

Bilmirlərmi gün gələcək,
Çiçək kimi solacaqlar.
Yada salıb ötən günü
Bulud kimi dolacaqlar.

Payız sarı yarpaqları
Budaqlardan qoparacaq.
Ömrün yeli xəzəl kimi
Onları da aparacaq.

Elə arxayın gəzirlər,
Unudurlar bunu ancaq:
Gözəllik də əmanətdi,
Borc verilib, alınacaq…

**1991**

***

Sinəmə söykədin titrək sinəni,
Od saçan gözünə həsrətlə baxdım.
Öpmək istəyirdim təzəcə səni,
Telefon zəng çaldı, yuxudan qalxdım.

Gülüm, sən imişsən zəng edən elə,
Titrəyir əllərim, nə deyim sənə?
Ay insafsız gözəl, yuxuda belə
Üzündən öpməyi çox gördün mənə…

***

Səni ellər qınayar,
Qılıncı sal qına, yar…

***

Vaxtında deyilmədi,
Sözlər sinədə qaldı.
Bu günün dərdini çək,
Dünən dünəndə qaldı.

Arif səssiz iş görər,
Hərif döşünə döyər.
Ömrün bir xoş gecəsi
Min uzun günə dəyər…

**1986**

## ƏLİM YUXU GÖRƏR

Qəlbimi doldurub nurla hər səhər
Önümdən keçirsən vüqarlı, məğrur.
Süzülüb axanda ilahi gözlər
Doğrayır içimi bir şirin ağrı.

Baxışın közərdir yanıb-sönəni,
Verirsən hamıya dadlı işgəncə.
Qabarda-qabarda meydan sinəni
Meydan oxuyursan qocaya, gəncə.

Mələk qarşısında neyləsin bəndə? –
Yanında gödəkdi dilim, bilirəm.
Gözlərim gözündə düşsə də bəndə,
Çatmaz əllərinə əlim, bilirəm.

Sinənə tökmüsən xoşbəxt telləri,
Hər biri qəlbimdə dərdi-sər olar.
Gecə yuxu görər həsrət əllərim,
Sənin əllərində bəxtəvər olar…

## BU GÜN HEÇ KİM İLƏ GÖRÜŞMƏYƏCƏM

Həsrətin buz dağı çevrildi selə,
Əlinə toxuncaq od tutdu əlim.
Sən mənə əl verib görüşmək ilə,
Bir dünya səadət bəxş etdin, gülüm.

Mən səndən razıyam yerdən göyəcən,
Sən mənə bəxş etdin göyü, dənizi.
Bu gün heç kim ilə görüşməyəcəm,
Əlimdən pozular əlinin izi…

**1986**

## DÖRDLÜKLƏR

***

Ud bu dağın havasından,
Əl çək qarın davasından.
İşə sal şirin dilini,
İlan çıxsın yuvasından.

***

Qənd umdum, soğan çəkdilər,
Arzuma sığal çəkdilər.
Ürəyimi solda görüb,
Yolumu sağa çəkdilər.

***

Qismətin qarşına gələr,
Çirkin də xoşuna gələr.
Darıxma, dünya belədi,
İş adam başına gələr.

***

Zər axtarır zərgər əli,
Gözü gülür zər görəli.
Elə bir inci tapıb ki,
Toxunmayıb zərgər əli.

***

Səni görüb odlanmışam,
Alovlardan atlanmışam.
Yel nə bilir gül qədrini,
Dadmışam ki, dadanmışam.

***

Ocaq yanır, köz doğulur,
Ürək yanır, söz doğulur.
Qələmlə kağız öpüşür,
İncə-incə söz doğulur.

***

Adam var ölüb, yaşayır,
Odun köz olub yaşayır.
Xanəndə səsə çevrilir,
Şair söz olub yaşayır.

***

Güllü biçənək biçilib,
Gözəl çiçəklər seçilib.
Dörd misralıq bayatının
Boyuna həsrət biçilib…

***

Makinam xarab olanda,
Barmaqlarım gizildəyir.
Maşınım xarab olanda
Ayaqlarım gizildəyir.

***

Zırlamalar ucbatından
Yenə qaldı iş başına.
Əlindən iş gəlməyənlər
Niyə gəldi iş başına?

***

El-obadan ayrı düşən
Dağların gözü yol çəkir.
Külün altında uyuyan
Ocağın közü yol çəkir…

***

Bu sevgiyə, bu ülfətə
Hamı heyran qaldı, qaldı.
Çiçək ana, arı ata,
Balalarsa baldı, baldı…

***

Tarı ustaya çaldır,
Yad əldə sim inciyər.
"Dız"ı olmasa, baldı,
Baldızdan kim inciyər?

***

Qolunda belim yandı,
Əlində əlim yandı.
Sənin adını çəkdim,
Ağzımda dilim yandı.

***

Hərə bir söz deyəcək,
Uyma yada, düşmənə.
Göz üstündə yerin var,
Gəlib qonaq düş mənə.

***

Zarafata, mazağa
Özünün də xoşun var.
Yoxsa kim deyə bilər
Gözün üstə qaşın var?

***

Bu qız necə cavandı,
Bu qız necə sütüldü.
Bir həsrətli baxışla
Ütüm-ütüm ütüldü…

***

Yaxalayıb mərdi azar,
Tələ qurub mərdiməzar.
Dönməz,
Ölər kişi kimi,
Namərd etməz mərdi məzar.

***

Ət alırsan, yağ qurtarır,
Ərəsən oldum, ərəsən.
Xırda qayğılar qoyur ki,
Böyük dünyanı görəsən?

***

Avtobusda tünlükdü,
"Volqa"lar bomboş gedər.
Sən kef çək, mən dərd çəkim,
Heç Allaha xoş gedər?

***

Sənin yerin "bron"du,
Mənim yerim yox yatam.
Qardaşlıq, bərabərlik
Belə olurmuş, atam?

**1985**

***

Torpaq səxavətlidi,
Alqış belə ustada.
Bir qəbirlik yer verir
Düşmənə də, dosta da…

**1986**

***

İndi kəndimizdə işıqlar sönüb,
Ürəyim köksümdə yanar bir ocaq.
Əgər biz olmasaq, geriyə dönüb,
Sönən tonqalları kim yandıracaq?

***

Çiçəklər içində ürəyim itib,
Mən necə onlara könül verməyim?
Yolumun üstündə bir lalə bitib,
Bilmirəm neyləyim: dərim, dərməyim?

***

O ağacda bir çiçəkli budaq olaydım,
Bu çəməndə sərin sulu bulaq olaydım.
Uşaq vaxtı böyüməyi arzulayırdım,
İndi isə deyirəm: – Kaş uşaq olaydım!

***

Yalvarmışıq, xahişimiz yerə düşüb,
Özümüzə özümüz yol açmalıyıq.
İki dağıq, aramıza dərə düşüb,
Qovuşmaqçın bircə yol var: uçmalıyıq…

***

Çox əsəbi olmuşam, məndə qalmayıb səbir,
Düşmənin yalan sözü qorxuram ola gerçək.
İşvələrin şumlayır, təbəssümün dən səpir,
Deyəsən ürəyimdə məhəbbət göyərəcək…

***

Hər adam tapa bilmir məclisdə öz yerini,
Qara ağa çevrilir, ağ dönüb olur qara.
Yüz yaxşı söz deyəsən, eşitməzlər birini,
Bir pis sözündən ötrü səni çəkərlər dara…

**1987**

## ADİLƏRİN ORBİTİNDƏ

Ay böyüklər, danlamayın siz bizi hər an,
Üzə durar, istedadın bir üzü sərtdi.
Böyüklərin sözü ilə oturub-duran
Böyük adam ola bilməz, bu həqiqətdi.

Yeri gəlsə, şimşək kimi çaxmağı yoxsa,
Bircə anın içindəcə gözdən düşər o.
İstedadın cızığından çıxmağı yoxsa,
Adilərin orbitində adiləşər o.

## MƏDƏNİYYƏT ARXASINDA GİZLƏNƏN KİŞİ

İncik salmaq istəmirsən, dostum, heç kimi,
Fərq qoymursan, düşmən durub,
ya dost qarşında.
Əzilirsən, büzülürsən xanımlar kimi,
Sığallıdı söhbətin də, davranışın da.

Sitatlarla danışanda atlanır döşün,
Baxan deyir: bu zalımda yaxşı bilik var.
Mədəniyyət arxasında gizlənən kişi,
Kobudluqda heç olmasa, təbiilik var…

**1985**

## BİZİM ARAMIZDA ON İLLİK YOL VAR

Dənizə qaçırdım mən səhər-səhər,
Yolun yarısında sən məni keçdin.
Ha qaçdım, çatmadım sənə, ey Ülkər,
Qəlbimdən bir həzin gizilti keçdi…

Dənizin üstündən uzanır qollar,
Ala gözlərində cilvələnir naz.
Bizim aramızda on illik yol var,
Sənin yerişinlə bizimki tutmaz…

**1985**

## BU DA BİR DƏRD

Ayım, ulduzum, danış, din,
Sonu yox gileylərimin.
Mənim sevgi göylərimin
Ayı batmaya, batmaya.

Səni gördüm mən bu səhər,
Niyə oldum bəs bir təhər?
Mən ki uyan deyildim hər
Qaşı çatmaya, çatmaya?

Elə baxdın, çaşdım özüm,
Ah çəkdin, közərdi közüm.
Yoxsa yuxu görür gözüm,
Gülüm, yatmaya-yatmaya?

Gözmü dözər bu tüstüyə?
Həsrət qalmışıq istiyə.
Göz görə, könül istəyə,
Əlin çatmaya, çatmaya…

**1980**

***

–Nə xoşdu bir yerdə olmaq
O ay üz ilə, üz ilə.
Nə ağırdır, sevgilindən
Əlin üzülə, üzülə.

–Ay gözündən bəlli igid,
Var hər işin həlli, igid.
Bacarmazmı əlli igid
Qorxaq yüz ilə, yüz ilə?

–Fürsət varkən arzuna çat,
Qoy üzünə gülsün həyat,
Dostla keçən bircə saat
Dəyər yüz ilə, yüz ilə.

–Sənsiz işim müşkül olub,
Çox arzum yanıb, kül olub.
Sən gələn yola gül olub
Qəlbim düzülə, düzülə…

**1978**

## QİBTƏ

Sellər, sular bir anda durulaydı,
Bu arzunu necə deyim sənə mən?
Deyirəm kaş gəzdiyin yer olaydım,
Ayaqların dağ basaydı sinəmə.

Qızıl üzük barmağını boğubdur,
Mənə baxdın, qarsdı üzümü atəş.
Dedim: kimin taleyinə doğubdur
Bu gözəllik, bu zəriflik, bu günəş?

**1977**

## HƏR SƏHƏR QARŞIMDAN BİR GÖZƏL KEÇƏR

Onu görən kimi ürəyim dinər,
Baxışım gəzdiyi yolları ölçər.
Dönüb oğrun-oğrun baxanda mənə,
Gözlərim gözündən təbəssüm içər,
Hər səhər qarşımdan bir gözəl keçər…

Yanından biganə necə keçim mən?
Gözlərim deyir ki, olum elçin mən.
Baxışlar içindən, gözlər içindən
Gözləri gözümü arayar, seçər,
Hər səhər qarşımdan bir gözəl keçər…

Unuda bilmirəm onu bircə an,
Könlüm nurla dolur sökülәndə dan,
Sıyrılıb gecənin qaranlığından
Ömrümə, günümə bir səhər köçər,
Hər səhər qarşımdan bir gözəl keçər…

**1980**

## QIZ OLARMI BU QIZ KİMİ

Gör gözlərin nələr deyir? –
Qız olarmı bu qız kimi?
–Səninkiyəm, ürəyini
Saxla buz kimi, buz kimi.

Gəlişi dönər bayrama,
Bir az zülmkardır amma…
“Yox” sözünü o, yarama
Səpər duz kimi, duz kimi.

Oğrun-oğrun məni süzdü,
Saçlarında əlim gəzdi,
Dodaqlar elə bil közdü,
Əllər buz kimi, buz kimi.

Ayağımdan asılıb daş,
Ayrılıq olmayaydı kaş.
Hər gözündən bir damla yaş
Axdı bir cüt ulduz kimi…

**1977**

## EŞQİMİN DAN ULDUZU

Ayağım qopmayır yerdən,
Sanma ki, çıxıb getmişəm.
Pəncərənin qarşısında
Sanki ağacam, bitmişəm.

Nura həsrət bəbəyimə
Yuxusuzluq güc eləyib.
Ulduzlar sabaha qədər
Gözlərimdə gecələyib.

Birdən açıldı pəncərən
Səni sevənin üzünə.
Xoş sabahdan xəbər verdi,
Vuruldum ülkər gözünə…

**1980**

## BU TORPAĞIN ÖVLADI

Qurban olum o yetirən gözələ,
Mənim üçün müqəddəsdir el adı.
Evdarlıqda, sədaqətdə öz yarım,
Gözəllikdə, zəriflikdə Eladı…

Üstümüzə nur yağırdı gözündən,
Od götürdüm yanağının közündən.
Məsumluğu sevgilimin üzündən
Xəbisliyi, qısqanclığı qovladı.

Belə çiçək görməmişdim çəməndə,
Gözəlliyi saldı bizi kəməndə.
Ala gözlər canmı qoydu de, məndə? –
Bir baxışla ürəyimi ovladı.

Can sadağa şəkərinə, şəhdinə,
O gözlərin istəyi nə, əhdi nə?
Bilirəm ki, peymanına, əhdinə
Dönük çıxmaz bu torpağın övladı…

**1981**

## ELƏ BAXMA

Bir himə bənd imiş ürəyim, bağışla,
Bilməzdim qarşında bükülə bilərəm.
Mən dağam, sən dərə, bir oğrun baxışla,
Uçulub qoynuna tökülə bilərəm…

**1977**

## GÖZLƏYƏ-GÖZLƏYƏ

Döyər dolu, qar ömrünü,
Unutma bahar ömrünü.
Bağban uzadar ömrünü
Barı gözləyə-gözləyə.

Dolandım düzü-dünyanı,
Ömür keçdi, o yar hanı?
Ac toyuğun çıxar canı
Darı gözləyə-gözləyə.

Dilə gəldi könül tarı,
Gözlərimin kökü sarı.
Ömür keçib oldu yarı,
Yarı gözləyə-gözləyə…

**1980**

## BARLI BUDAQLAR

Bir ağac var, arzuları köküdü,
Gündən-günə artır eşqi, həvəsi.
Bir ağac var, budaqları ikidi,
Bir dünyaya bəs eləyər meyvəsi.

O budaqlar ürəyimin yarıdı,
O budaqlar qol götürüb toyumda.
O ağacın budağının barıdı
Paltarım da, çörəyim də, suyum da.

O budaqlar nur gətirib gözümə,
Gözəl günlər görəsiyəm, görəsi.
Bax o ağac elə mənim özüməm,
Bir əlimdi budağının hərəsi…

**1980**

## XALLI QIZ

Sinəni süfrə tək
açmışdın qabağıma,
Boynuma dolamışdın
qollarını.
Yuxuda bir ac xoruza dönüb,
dənləyirdim xallarını…

**1979**

## GÖZLƏR

Bəbəklərin –
ağ dənizdə
qonur ada.
Kirpiklərin –
qara çəpər.
Göz yaşları
dalğasıdır bu dənizin,
kükrəyəndə
sahillərə inci səpər…

**1981**

## ARXA

Xor – səs dənizidi,
hər səs bir dalğa.
Solist ürəklənib,
keçib qabağa.
Nəğmələr düzülüb hey qatar-qatar,
uçar eldən-elə əsən küləklə…
Arxada səsinə səs verənlər var,
Onunçün oxuyur solist ürəklə…

## KƏHƏR

Birincilik arzusuyla
Dincliyinə qəsd elədi.

Sicim kimi uzun yolu
Kəhər atım dəstələdi.

Yolda qoydu yolçuları,
Köhlənləri üstələdi.

Ayaqları dəyən yerdə
Torpaq yandı, tüstülədi.

Keçilməmiş yoxuşlarda
Təzə cığır bəstələdi…

**1977**

## KAŞ BİR DAĞ ÇAYI OLAM

Kaş bir dağ çayı olam,
Sularım təşnələrin
Hər an dadına yetə.
Ömrüm dağda başlayıb,
Ömrüm dənizdə bitə…

**1977**

***

Hünərin var atını çap,
Hünərin var, çat, al narı.
Sənin üçün saxlamışam
Sinəmdəki çatal narı….

## LƏÇƏYƏ YAZILAN ŞEİR

Vurulmuşam bu dağların
Gözəlinə, göyçəyinə.
Ürəyimi tapşırmışam
Hər otuna, çiçəyinə.

Düzənlərdə izim qalıb,
Ocağımda közüm qalıb,
Bu güllərdə gözüm qalıb,
Könül açdım bircəyinə.

Quşlar ötdü, qulaq asdım,
Mən gələndə güllü yazdı…
Göz yaşımla şeir yazdım
Qızıl gülün ləçəyinə…

Qəlbinə toxundum bəlkə?
Bu nədi, yuxudu bəlkə?
Ləçəyə yazdığım şeiri
Arılar oxudu bəlkə?

**1983**

## MƏNİM ÇİÇƏKLƏRİM AÇILDI YENƏ

Bu doğma yerlərin gülləri üstdə
Kəpənək ürəyim uçurdu yenə.
Yamacdan düzənə endim ahəstə,
Mənim çiçəklərim açıldı yenə.

Qaranlıq düşdümü, nur saçır güllər,
Gözlərim elə bil bir ac arıdı.
Günəş batan kimi göz açan güllər
Elə bil çəmənin ulduzlarıdır.

Sanki əl uzadıb isinir dağlar,
Hər çiçək bənzəyir sehrli közə.
Günəş işığında açmağa nə var,
İş odu gecələr dəyəsən gözə…

**1984**

## ÇƏTİR

Qaralan buludlar hönkürdü bərkdən,
Sel oldu göylərin gözünün nuru.
Bir gözəl boylanır bir aynabənddən,
Pəncərə önündə bir oğlan durub.

Hiss etmir üstünə yağan yağışı,
Onun gözü yolda, ürəyi səsdə.
Elə bil çətirdi qızın baxışı
O xoşbəxt cavanın başının üstdə…

## BİR ANIN SEVİNCİ

Onun ala gözlərindən
Çay axır, üzümə baxmır.
Istəyirəm çıxıb gedim,
Ayağım sözümə baxmır.

Az qalıram dərəm onu,
Bu çiçək qorxudur məni.
Gözlərinin içindəki
O istək qorxudur məni.

Gülümsəyir: – Sevməyənin
Kədəri nə, sevinci nə?
Bir ömrü qurban verirəm
Bircə anın sevincinə…

## SEVGİ GÖYDƏN GƏLƏN İLAHİ PAYDI

Gizli bir sevdayla göynəyir için,
Qanadsız bir quşdu sevgisiz ürək.
Sağ ol bu ilahi məhəbbət üçün,
Bu eşqin önündə baş əyim gərək.

Günahsız könlünü az did-parçala,
Özünü danlamaq nə gərək, gülüm?
Sevgi göylərində qoşa açılan
Kövrək qanadların mübarək, gülüm!

Sevənin sirdaşı ulduzdu, aydı,
Sevmisən, ürəyin qərq olub zərə.
Sevgi göydən gələn ilahi paydı,
Niyə utanırsan bu paya görə?!

**2000**

## İKİ BAŞ

**Zarafat**

Gedib o dünyanı görüb gəlmişik,
Qəlbimiz sevginin odunu görüb.
Ay quzum, sənin də, mənim də başım
Cərrah bıçağının dadını görüb.

Məhəbbət nə başa baxır, nə yaşa,
Qəlbdə sevgi varsa, dünya gözəldi.
Gəl, başı xarab yar, verək baş-başa,
Bəlkə iki başdan bir baş düzəldi…

**2000**

## AYRILIĞI İLLƏR SALIB

Can atsam da günəşə mən,
Elə bilmə möhtəşəməm.
Sən qönçəsən, mən həşəməm,
Qəlbimdəki güllər solub.

Ah çəkmək gəlir arıma,
Əzizim, məni arama!
Səninlə mənim arama
Ayrılığı illər salıb.

Qorxma fələyin işindən,
Gül dər dağların döşündən.
Məcnun tək eşqə düşəndən
Pənahımız çöllər olub.

Baş açmıram sözlərindən,
Sanki gəlir söz dərindən.
Müjdəm – həsrət gözlərindən
Axan dəli sellər olub…

**2000**

# "ÖMÜR AĞACINDAN DÜŞƏN YARPAQLAR" KİTABINDAN

## ÖN SÖZ ƏVƏZİ

Övladı şikəst doğulduğuna görə atmaq böyük günah olduğu kimi, zəif şeirlərdən də imtina etmək mənə qəbahət göründü ovqatımın bu məqamında, yaşımın bu çağında… Bu şeirlər nə qədər zəif olsa belə, onu yazanın daxili dünyasında gedən prosesi izləmək baxımından maraq doğurur…

Bu şeirlərin heç biri o vaxt çap olunmayıb… Neçə-neçə kitabım işıq üzü görsə də, zəif sandığım üçün onların heç birini bu vaxta qədər nəşr edilən toplularıma daxil eləməmişəm. Tərəddüd içində qalmışam. Onları nə cırıb atmağa əlim gəlib, nə də oxucu mühakiməsinə verməyə… Eləcə ayrı-ayrı dəftərlərimdə illər boyu uyuyub qalıblar… Ancaq ömrün bu çağında həmin yazıları oxuyanda mənə aydın oldu ki, yelə verdiyim ömürdən mənə qalan yalnız və yalnız bunlar və onların doğurduğu yaşantılardı… Bu misralar özünü təsdiqə çalışan, lakin arzusuna çatmayan bir yeniyetmənin daxili dünyasını, arzu və düşüncələrini, yaşantılarını, sevinc və kədərini xəyalımda canlandırmaq üçün mənim yeganə yardımçımdı… İndi o günlərin xiffətini elə çəkirəm ki…

…Bu mənim öz yaşantılarımdı, onun kimsəyə aidiyyəti yoxdu… Bir də elə bil ki, bu yazılar mənim ədəbiyyat diyarına uçan söz qatarımdan ayrılıb qalan yaralı, uçmağa taqəti olmayan durnalardı...

İndi bu şeirləri ona görə çap elətdirmirəm ki, oxucuların mühakiməsinə verim, ona görə çap etdirirəm ki, ömrümün ötən günlərinin yaşantılarına bu gün bir insan kimi ehtiyacım var… Onların oxucusu yalnız özüm olsam belə…

Müəllif

# İLK ADDIMLAR

# (1966-1971)

## ÜRƏK TELLƏRİ

Gözə görünməsən də, sən ey ürək telləri,
Bağlayıbsan qəlbimə çiçəkləri, gülləri.

Bir qanadlı quş kimi seyr edəndə aləmi,
Xəyallara cumaraq götürəndə qələmi,

Unuduram özümü, düzü, unuduram mən,
Ürəyimi titrədən söylə, sən deyilmisən?

Ürək aramla vurur, qələm istəyir yaza,
Sən də qulaq as barı könlümdəki avaza.

Unutmaram haqqını, unutmaram heç zaman,
Ürəyimi həyata axı sən bağlayırsan!

Bu görünməz tellərin çox böyükmüş qüdrəti,
Onunla bağlamışam insanlarla ülfəti.

O uca zirvələrdən ürəyimə yol salıb,
Bu tellərlə qəlbimə neçə arzu yol alıb…

**02.02.1966**
**Qubadlı**

## YUXUSUZ GECƏLƏR

Gəl-gəl, sənin qarşına çiçəkli çəmən sərim,
Sən mənim boğazımda kilidlənən qəhərsən.
Ey yuxusuz gecələr, ey sevimli günlərim,
Gecəyə bənzəmirsən, parlayan al səhərsən.

Gecənin xeyirindən sabahın şəri olsun, –
Deyib yatmışam da mən sabahın sorağında.
Ömür qazanmışammı? – Yox, ömrümdən gedibdir,
Bir səhifə ağ qalıb ömrümün varağında.

Ey yuxusuz gecələr, deyin sizi bu qədər
Sevməyimə dəyərmi? –Niyə sevirəm, niyə?
Yatağımdan qalxaraq geyinəndə hər səhər
Sizi xatırlamışam bir şey qazandım deyə.

Hər zülmətli gecəyə sizi bənzətmək olmaz,
Siz qəlbimdə çırpınan şirin arzularsınız.
Kim deyir ki, yuxusuz döyünən ürək olmaz,
Siz dağları çiçəkli, əsən sərin küləkli
Əbədi baharsınız, əbədi baharsınız…

**02.01.1966**
**Qubadlı**

## ÇAĞIRIR MƏNİ

Mavi göl qoynunda üzən bir sona
Elə bil üzməyə çağırır məni.
Qartalsa qıy vurub baxır dörd yana,
Havada süzməyə çağırır məni.

Yenə də qızarır üfüqlərdə dan,
Gəzirəm çölləri qalxıb obaşdan,
Boylana-boylana bir ürkək ceyran
Çəməndə gəzməyə çağırır məni.

Ürəyim sinəmdə bəzən açıb dil,
Yüz ilin sözünü deyir elə bil.
Gülün həsrətiylə oxuyan bülbül
Hicrana dözməyə çağırır məni.

Odur bax, görürəm bayaqdan bəri,
Yolumu gözləyir o gözəl pəri,
Çəməndən üzərək tər çiçəkləri
Telinə düzməyə çağırır məni.

**17.05.1966**
**Qubadlı**

## İKİ QƏLƏM

Biri dedi: – Mən gərək
Elə şair olum ki,
Tanısın məni aləm.
Bu niyyətlə o şair
Bir qədər də xərc çəkib,
Düzəltdi qızıl qələm.
Yazdı şeir, hekayət,
Əsərləri heç kəsə
Gərək olmadı fəqət.
Dahi Nizamininsə
Qələmi lələk oldu.
Ancaq yazdığı əsər
Qızıldan daha artıq
Ellərə gərək oldu…

**1966**

## OYANMIŞAM MƏN

İtir təbiətdən qışın izləri,
Baharın seyrinə dayanmışam mən.
Gülür təbiətin çiçək gözləri,
Təbiət söyləyir: –Oyanmışam mən…

**1967**

## ÇƏKİ

Bir qız naz sata-sata
Dedi: – Ata, ay ata,
Elə məni danlayıb,
Çox yüngülsən deyirsən.
Dünən çəkdilər bizi,
Hamıdan ağıram mən.
Ata güldü: – Ay qızım,
Nədir bu çığır-bağır?
Çəkin ağır olunca,
Qoy ağlın olsun ağır…

**1966**

## SƏNİN NƏĞMƏLƏRİN

**Səid Rüstəmova**

Qaynayır ürəyin bir bulaq kimi,
Nəğmən ürəklərə axır, Səidim.
Sənin musiqinin qanadlarında
Xəyalım səfərə çıxır, Səidim.

Gəlir gözlərimə axar bulaqlar,
Elə bil onlar da sənə əl çalır.
Gör sənin nə qədər dinləyicin var,
Ürəklər nəğmədən axı güc alır!

Hamımız nəğməylə yoğrulmuşuq biz,
Nəğmələr döyünən ürəyimizdir.
Azəri yurdunda doğulmuşuq biz,
Musiqi ən zərif diləyimizdir…

**1967**

## QIŞ

Sular buza dönür, buza gecələr,
Özün görürsən ki, necədir bu qış!
Qar yağır, sürüşkən olur küçələr,
Yaman zarafatcıl qocadır bu qış!

Adamlar sürüşür, yıxılır, durur,
Qocalar gileyli qardan, sazaqdan.
Cavanlar sevinir, qəhqəhə vurur,
Cavanlar qar topu atır uzaqdan.

Bu qayğısız gənclər verir səs-səsə,
Dəcəllik etməyi onlar unutmur.
Qış da bir qocadır, ancaq nədənsə,
Onun qocalarla söhbəti tutmur…

**1969**

## TEZ GƏL, AY BAHAR

Yerin sinəsinə novruzgülü tax,
Göz açıb sevinsin qoy ana torpaq,
Bəzəsin evləri yenə çil-çıraq,
Oxusun müğənni, dinsin kaman, tar,
Sənsiz darıxmışıq, tez gəl, ay bahar!

Yaşıl libasını geyinsin meşə,
Çıxsın kol dibindən yenə bənövşə,
Çoban quzuları ötürsün döşə,
Bürüsün çəməni xalı tək otlar,
Sənsiz darıxmışıq, tez gəl, ay bahar!

Sevgilim güllərdən dəstə bağlasın,
Gəlirəm, onları mənə saxlasın,
Yenə qar ərisin, sellər çağlasın,
Bəmbəyaz kürkünü soyunsun dağlar,
Sənsiz darıxmışıq, tez gəl, ay bahar!

Qol-qola verərək gəzək hər yanı,
Yağsın üstümüzə bahar leysanı.
Azad könlümüzün qoy coşsun qanı,
Ötüşsün səmada dümağ buludlar,
Sənsiz darıxmışıq, tez gəl, ay bahar!

Açılsın hər yanda güllər, çiçəklər,
Yenə qanadlansın şən kəpənəklər,
Min ətir gətirsin əsən küləklər,
Gətir, gözləyirik, hər nəyin ki var! –
Sənsiz darıxmışıq, tez gəl, ay bahar!

**1969**

## İŞƏ BAX

Nə vaxdır qalmışam mən yana-yana,
Bu yanğı nə vaxtsa heç elər məni.
Yuxuma girirsən, gündüz bir yana,
Rahat buraxmırsan gecələr məni.

Sevda gülşəninə girib gizlicə
Dərirəm səni.
İşə bax, gözlərim yumulanda da
Görürəm səni…

**11.09.1969**

## DOSTBAZLIQ

Çalış ki, özünə vəfalı dost seç,
Səmimi insanlar məgər azdımı?
Deyirəm dostbazlıq olmasaydı heç,
Hamı bir-birinə dost olmazdımı?

**1969**

## NÜMAYİŞDƏ

Hamı nümayişə çıxıb,
Yenə bayram libasında
görürəm doğma yurdu.
Əruzda yazılan şeir kimi
nizamla keçir bizim ordu.
Bilirəm, bu gün dostlar sevinibsə,
Düşmənin ümidi üzülüb.
Elə bil idmançılar heca,
Kütlə sərbst vəzndə yazılan
şeir kimi düzülüb…

**08.11.1969**

***

Nə vaxtdır əsirsən
Üstündən meh kimi
Ağsaçlı dağların.
Qayğısız ömrümə
Tökülür şeh kimi
Qayğısız çağların…

**1969**

## SƏLİMƏ

Çox adlar yad düşüb dilimə,
Elə bil od düşüb dilimə,
Gözəl bir ad düşüb dilimə:
Səlimə!

Gözlərim qalıbdır üzündə,
Özümü görürəm gözündə,
Adın da gözləldir, özün də,
Məhəbbət hakimdir könlümə,
Səlimə!

Xəyalın getməyir gözümdən,
Üstümü alsa da duman, çən,
Bilsəm ki, sən məni sevirsən,
Ölümə gedərdim yolunda, ölümə,
Səlimə!

Qaşın yay, kirpiyin ox olsa,
Ay üzün buluda soxulsa,
Əzizim, cavabın yox olsa,
Tab etmək çətindir zülümə,
Səlimə!

**1969**

***

Sevən bir ürəyin səsini boğma,
Günlər necə gəlib gedir, bilmirəm.
Gözlərin də doğma, özün də doğma,
Səndə bu doğmalıq nədir, bilmirəm…

**1969**

## ZARAFAT

**X. üçün**

Sənsiz ümidimin yarpağı solar,
Könlünə dəyməyə barı zarafat!
Dedin: –Məndən də yaz, axı nə olar?! –
Gülüm, yarı ciddi, yarı zarafat.

Baxışın sevgini edibdir əyan,
Belə olmasaydı gülərdimmi heç?
Həyat çeşməsi tək coşan, qaynayan
Gözlərdən yazmaya bilərdimmi heç?

Qəlbimə mən qulaq asası idim
Özüm olsam belə dumanda, çəndə.
Səndən beş-on misra yazası idim
Bunu sən desən də, sən deməsən də…

**15.12.1969**

***

Çiçəklər xəzanın girinə düşür,
Ayrı görkəm alır hər tərəf, hər yan.
Qopub şairlərin şeirinə düşür
Yarpaqlar ağacın budaqlarından…

**06.11.1970**

## ARAZ HAQQINDA DÜŞÜNCƏLƏR

Yenə Araz sahilində
düşünürəm nələr, nələr…
Sıxır məni ağuşuna
acı, şirin xatirələr.

Mən öpürəm xəyalımda
gah o tayı, gah bu tayı,
Sən çaya bax, bir-birindən
dostu, yarı ayırarmış.
Elə bil ki, bu torpağın
damarıdır Araz çayı,
Bir ürəyi iki yerə
qan damarı ayırarmış.
O tay azər, bu tay azər,
Ortasından Araz boyda
bir çay axır,
Nədir səbəb? –
Keç, bilmirəm.
İki odun arasında
Su nə gəzir heç bilmirəm?!

**1970**

## BAŞ MƏQALƏNİN MONOLOQU

Kimə xoş gəlir ki, de, söz yığımı?
Qəlbim intizarda, ruhum təlaşda.
Çəkir məqalələr paxıllığımı
Yerim olduğuyçün yuxarı başda.

Xəcalət qəlbimi salsa da oda
Bir xeyli səbrlə durub gözlədim.
Gündə qulağıma gəlir bir səda,
Rəsmiyəm, quruyam, niyə gizlədim?

Axı giley-güzar olar nə qədər?
Mən ki, bir kimsəyə toxunmamışam?!
Narahat olmayın, ay məqalələr,
Yerim baş olsa da, oxunmamışam…

**20.09.1970**

## DƏLİL

Deyirsən dəlil göstər
Məni necə sevdiyini bilim.
–Səni görəndə tutulur dilim,
Ürəyim gəlsə də dilə.
Dəlil göstərə bilməməyim,
dəlildir elə…

**01.08.1970**

## BƏLKƏ DƏ

De, sənli günlərim çəkilib haraya?
Ömürlük hicranmı giribdir araya?
Gözlərin qaradır, vurğunam qaraya,
Kim bilir, görüşdük bir hicra kölgədə,
Bəlkə də?!

Nə vaxtdır salmışam könlümü düzlərə,
Getmisən, izlərin qarışıb izlərə.
Ruhumu isidən o qara gözlərə
Yenidən rast gəldim hansısa ölkədə,
Bəlkə də?!

**02.05.1970**

## QƏZƏL

Əkmişik, birgə dərək gəl bu həyat güllərini,
Bəzəyim lalə, qərənfillə sənin tellərini.

İlk bahar sellərini bənzədirəm göz yaşına,
Qoymaram bir də axa mən o bahar sellərini.

Mən vüsal istəyirəm, hicrin ilə yoxdur aram,
Gəl yada salmayaq heç ayrılığın illərini…

Şairəm, əllərimə güclə keçib ağ əllər,
Buraxan kimdi əlindən sənin o əllərini?!

**13.03.1970**

***

Yenə təsadüfən üz-üzə gəldik,
Sorduq halımızı bir-birimizin.
Baxaraq göz-gözə danışdıq, güldük,
Dindi qulağımda lap həzin-həzin
Ötən xatirələr. Unudulanlar
Gözümüz önündən keçdilər yenə.
İndi yadımıza düşən hər nə var
Sən mənə danışdın, mən də ki sənə.
Buraxdıq bir yana əsas mətləbi,
Tutduq ikimiz də başımızı dik.
Bitirdiyim üçün ali məktəbi
Nəzakət xətrinə söylədin: –Təbrik!
Bilmirəm söhbəti uzaqdan salıb
Özgədən danışmaq nəyə gərəkdir?
Filankəs sevişir filankəs ilə,
Bəhmənkəs bu işə əngəl törədir.
Bir vaxt həyəcanı qova bilmirdik,
İndi nə titrədik, nə də ki əsdik.
“Özümüzə umac ova bilmirdik,
Özgələri üçün əriştə kəsdik”.
Bir söz söyləyəcək bilirəm hərə –
Eh, söz gəzdirənlər yox olmadı ki…
Bilmirəm o soyuq hal-xoşa görə
Bu qədər danışmaq çox olmadı ki…

**12.08.1970**

## PAYIZDA GÖRÜŞ

Zaman əlimizdən baharı aldı,
Ancaq soyumadı isti qəlbimiz.
Bir payız axşamı, ağacın altı…
Yenə də üz-üzə dayanmışıq biz.

Açıb danışmalı o qədər söz var,
Köksümə əyilir o qızın başı.
Qopur budaqlardan sarı damlalar,
Yağır üstümüzə hicran yağışı…

Qərib görkəm alıb yenə yol, cığır,
Suların üstüylə xəzəllər gedir.
Payızın gözündən yarpaqlar yağır,
Aləm nə gözəldir, şairanədir!

Nə qədər əzizdir mənə bu gecə,
Neynirəm hicranla keçən gündüzü?
Həmişə bir olaq, gülüm, beləcə,
Xəzan yağışları "islatsın" bizi…

**01.11.1970**

## GİTARA

**Dostum Nizami Abdullayevə**

Əlində gitara yollandı yanıma,
Dedi ki, əziz dost, gəl məni qınama…
O çaldı, musiqi yayıldı canıma,
Yenidən vuruldum "Qatar" a,
Dindikcə gitara.

Çal, səni dinləyim mən bir də,
Bir yeni aləmdir hər pərdə,
Bir ürək çırpınır simlərdə,
Musiqi durna tək düzüldü qatara,
Dindikcə gitara.

Gözləri yumulu xəyala daldı o,
Titrəyən qəlbimi odlara saldı o,
Gör nədə muğamat çaldı o,
Qorxdum ki, musiqi qurtara,
Lal ola gitara…

**14.11.1970**

***

Sözün varsa, astaca de, əzizim, yetər
Şək gətirmə indən belə bu həqiqətə:
Bağırtı var kəsəri yox zərrəcə qədər,
Pıçıltı var ürəkləri salır riqqətə…

**13.09.1970**

## QIZIL HAQQINDA DÜŞÜNCƏLƏR

Adam var yaxından tanıyıram mən,
Səksəkə içində keçir hər günü.
Qızıl toplamağa həvəs göstərən
Açıqca zay edir qızıl ömrünü.

Azmı qızıl qanla dolub qızıl taxt?
İstəsən onları sayaram bir-bir.
İşində düz olan insana çox vaxt
Nədənsə deyirik qızıl kimidir!

Bilirəm bu gizli həqiqəti mən
Kimdə qızıl varsa, ruhu pas atır.
Düzlük rəmzi olan qızıl bəs nədən
Əyri adamların ağzında yatır?

İnsan azğınlaşır göz görə-görə,
Qızılla örtülür bəzən eyiblər.
Deyirəm bəlkə də qızıla görə
Sarıya ayrılıq rəngi deyiblər?!

Qulağım şəkləndi həzin bir səsə,
Oxucu gileyi yerinə düşdü.
Qızıl kimi vaxtım bu gün nədənsə
Bu "Qızıl" şeirimin girinə düşdü…

**13.11.1970**

## HEYKƏLLƏR

Nə qədər heykəl var yer kürəsində,
Heykəllər əbədi bir salnamədir.
Bir əsrin nəfəsi var hərəsində,
Dünəndən bu günə onlar namədir.

Gəlin tarixini yazaq keçmişin,
Verək gələcəyə soraq hər yerdən.
Seyrinə çıxıram uzaq keçmişin,
Heyrətlə gəzirəm Ermitajı mən.

Sənət dilləndirib cansız daşları,
Heykəl də canlıya oxşayır indi.
Ayrı əsrlərin vətəndaşları
Hamısı bir yerdə yaşayır indi.

Qədim misirli də, qədim yunan da
Gəlsəydi özünü tapardı burda.
Heykəllər insana dönsəydi, onda
Görün nə həngamə qopardı burda.

Bu qoca dünyada görmüşük nələr? –
Tarixin yadından çıxmaz biri də…
Qanlı vuruşmalar, müharibələr
İnsan tək öldürüb heykəlləri də…

Bir əsər görüblər bir vaxt can üstə,
Tufanlar var imiş onun başında.
Böyük bir heykəli yıxıb yan üstə
"Yekələr" getdilər xırda maşında…

Bir zaman xalq üçün çalışan kəsin
Başına ip salıb çəkərdilərmi?
Tutaq ki, qatildir, qoy tarix desin
Sənət əsərini sökərdilərmi?

Elə qanlı gündə, qadalı gündə
İnsan qaçıbsa da, heykəl qalıbdır.
Hətta əsir düşən əsər önündə
Düşmənin özü də əsir olubdur.

Ellərə əzizdir sənət əsəri,
Qoruyaq onları verib əl-ələ.
Yaşayır dünyada nə vaxtdan bəri,
İstəklər, arzular dönüb heykələ…

**29.07.1970**
**Çardaxlı**

***

Atılar meydana hərdən şir kimi,
Yazmasam, qəlbimi didər ilhamım.
Bəzən dəymədüşər gəlinlər kimi
İnciyib küsülü gedər ilhamım…

**16.12.1970**

## MƏN DƏ AKTYORAM

**Bir aktyor dostuma**

Yeni tale çıxır yoluna hər gün,
Sən dilə gəlirsən özgə səsiylə.
Girirsən özgənin roluna hər gün,
Baxırsan dünyaya özgə gözüylə…
Əziz dost, mən elə bəxtiyaram ki,
Görməkçün öz doğma gözümdən ayrı
Karıma gələn yox…
Mən elə, mən elə aktyoram ki,
Öz doğma rolumu özümdən ayrı
Oynaya bilən yox…

**1970**

## ARILAR

Hər vaxt dağa-daşa salar özünü,
Çiçəkçün uzağa gələr arılar.
Çalışar, vuruşar ömrü uzunu,
Zəhməti səadət bilər arılar.

Onlara oylaqdır hər bağça, hər bağ,
Onlara tanışdır hər gül, hər yarpaq.
Ancaq arılarda taleyə bir bax,
Çalanda özü də ölər arılar…

**07.08.1970**

## CİRƏ

Elə vaxt olub ki, insan qalıb ac,
Dözübdür səbrini o uda-uda.
Çəkib qılıncını nə vaxt ehtiyac,
Cirəylə verilib çörək də, su da.

Bolluq içindədir indi ölkəmiz,
Çıxmışıq həyatın sərt cirəsindən.
O ağır günləri yad edəndə biz
Baxırıq xatirə pəncərəsindən…

İnsan gülər üzə möhtacdır hər dəm,
Heç kəs bu arzumu yerə salmasın.
Çörəyi cirəylə versələr, nə qəm,
Təki təbəssümlər cirə olmasın!

**1970**

## QAYIDAM GƏRƏK

Əzizim, mən sənə vida desəm də,
Hələ soyumayıb sinəmdə ürək.
Başqa gözəllərə meyl eləsəm də,
Yazdığım əsərin ana xətti tək,
Yenidən mən sənə qayıdam gərək…

**1970**

## YENƏ

İki həsrət insan durub yan-yana,
Ürəklər astadan dillənir yenə.
Təbiət bir yana, sular bir yana,
Duyğular kükrəyib sellənir yenə.

Baxıram uzağa göz işlədikcə,
Ağaclar yarpaqdan geyib "gödəkcə",
Göydən yağış yağır bax təkcə-təkcə,
Küçələrin üzü çillənir yenə.

Eşqindən lalə tək dağlı günlərim,
Qaralı günlərim, ağlı günlərim,
Gedirsən, səninlə bağlı günlərim
Arxanca əl edir, yellənir yenə.

Dumana bürünür ayaq izlərim,
Qırılır sim kimi qəmli sözlərim,
Hicrana dözməyən nəmli gözlərim
Sən gedən yollara zillənir yenə…

**20.11.1970**

***

Demə bu hicrana şeir yazmadım,
Elə düşünmə ki, hissiz daşam mən.
Hicran ağrısını azaltmaq üçün
Gərək "vidalar"la vidalaşam mən.

**26.06.1970**
**Bilgəh**

***

Ürək isinməyir hicran oduyla,
Neyləyim vüsala tuş olmaq üçün?
Bu şeiri yazmıram şeir adıyla,
Yazıram ürəyim boşalmaq üçün…

Həsrətin qəlbimi elə didir ki,
İnsanıq, hər dərdi götürürük biz.
Üz-üzə gələndə səbəb nədir ki,
Yerişimizi də itiririk biz?!

Ürəklərdə həsrət, gözdə qəm izi,
Məhəbbət üşüyür dumanda, çəndə.
Guya görməyirik bir-birimizi,
Mənim fikrim səndə, səninki məndə…

Axı kim deyir ki, darda, çətində
Sən məndən, mən səndən soyuyasıyıq?
Yoxsa xatirələr səltənətində
Keçmişə çevrilib uyuyasıyıq?

Bəzən düşünürəm, bəlkə sınaqdı
Bunların hamısı? – Şirin bir xəyal.
Gülüm, bəlkə hicran bizə qonaqdı,
Yenə öz evinə dönəcək vüsal?!

Çox da ürəyimdə hələ ümid var,
Dəyib qayalara eşqimin ilki.
Bizim bu ayrılıq, nə etmək olar
Dünyada birinci hicran deyil ki…

**1970**
**Bilgəh**

## KÜLƏKLƏR

Bəzən sakit olar, bəzən əsəbi,
Neçə təzə mahnı çalar küləklər.
Elə bil Müşfiqin "Küləklər"ini
Oxuyub xəyala dalar küləklər.

Qəzəbdən insan tək əsər dizləri,
Heç kəsi tanımaz qızsa gözləri,
Yüyrük tək yelləyib mavi Xəzəri
Bir ana laylası çalar küləklər.

Əsəndə elə bil inləyər kaman,
Tənha qalanları üşüdər yaman,
Biz də titrəyərik o əsən zaman,
Soyuğu soyuğa calar küləklər…

O, bəzən səslənər bir cəngi kimi,
Əsər qalibiyyət çələngi kimi,
Füzuli şeirinin ahəngi kimi
Ürəyi riqqətə salar küləklər.

Yayda sərin olar quzey qarı tək,
Dillənər Əhsənin simli tarı tək,
Həmişə Bakının insanları tək
Coşar, dəliqanlı olar küləklər…

**31.03.1970**

***

20 vərəq oxunmuşam, keçib gedib 20 ilim,
Zaman ömür kitabımı vərəqləyir aram-aram.
Bəlkə elə son vərəqdir? –Söyləməyə gəlmir dilim,
Yaşanmamış ömrüm üçün inamıma minnətdaram…

**1970**

***

Hicran acısını bal tək yeyirik,
Sonra inləyirik biz için-için.
İşə bax, birinə vida deyirik
Başqa birisiylə görüşmək üçün…

**26.06.1970**
**Bilgəh**

***

Axtardığım mehriban göz tuş olub mənə,
İlk eşqimin küləyimi üstümdən əsən?
Məhəbbətin əzəl gündən faş olub mənə,
"Gecikmisən" söyləməkdə gecikmisən sən…

**06.04.1970**

***

Söndün, göydən axan bir ulduz kimi,
De, hayana getdin sən bu axışla?
Şeirim də məhəbbət yolumuz kimi
Bir az qısa oldu, məni bağışla…

**01.04.1970**

***

O gün sən ağladın, o görüş günü,
Bu çağın hamını coşdura bilər.
Mən əmin oldum ki, sevinc yaşları
Sısqa bir çayı da daşdıra bilər…

**24.03.1970**

***

Düşmən ki deyiləm sənə, dayan bir,
Dərdimə gəl əlac eylə, qızılgül.
Adın ki, məhəbbət, vüsal rəmzidir,
Bəs bu hicran nədir, söylə, qızılgül?!

**03.09.1970**

***

Elə bil bir mizrab toxunar simə,
Elə ki, gözlərin mənə tuş gələr.
Bahar sevdasına düşən qəlbimə
Qışın ortasında qaranquş gələr…

**17.09.1970**

***

Məhəbbət oduna bir pərvanə tək
Yanırıq, bağrımız olur şan kimi.
Nə qəm, bu atəşdən saflaşar ürək
Sular qaynayanda saflaşan kimi.

**27.08.1970**

## DİŞ HƏKİMİ İLƏ SÖHBƏT

–Darda qoymamışıq hələ heç kimi,
Dişin ağrıyırsa, qorxma, gəl çəkim!
–Deyirəm qəmi də çürük diş kimi
Çəkib atmaq ola kökündən, həkim!

**25.08.1970**

## DİL VƏ ÜRƏK

**Edil Eyvazova**

Təzə bir mövzu var, qulaq as dedin,
Mənim xatirimə onu nəzmə çək!
"Dil və ürək" adlı şeir yaz dedin,
Bəzən dil deyəni istəmir ürək.

Sən öz sözlərini deyib qurtarcaq,
Zarafat şeytan tək ruhuma girdi.
Dilimdə söylədim yazaram, ancaq
Ürək bu mövzunu istəməyirdi…

**04.04.1970**

## SOYUQ ƏLLƏRİN

Dilində titrəyir sevirəm sözü,
Sevincdən neyləyim bəs indi, gülüm?!
Mənim qulağımda hər an səslənən
Sənin o mehriban səsindi, gülüm.

Bənövşə boynunu sinəmə əycək,
Özüm də titrədim bir bənövşə tək.
O soyuq əllərin əlimə dəycək,
Ürəyim isindi, isindi, gülüm…

**13.03.1970**

## ƏGƏR

Yarımçıq sevirdi məni, onunçün
Məhəbbət yolumuz qaldı yarımçıq.
Bunları sən mənə söyləyib bir gün,
Getdin, arzuların soldu yarımçıq.

Mənim sevgi dünyam bələndi yasa,
Bəxtiyar-bəxtiyar bir vaxt gülərdim.
Əgər məhəbbətim yarımçıq olsa,
Başqa birisini sevə bilərdim…

**27.07.1970**
**Bilgəh**

## İSTƏYİRƏM

Çayam, coşqun dənizə
Qarışmaq istəyirəm.
Səni güldən, çiçəkdən
Soruşmaq istəyirəm.

"Sevirəm" desən, gözəl,
Əzizlərəm bu səsi.
A məndən küsən gözəl,
Uzun sözün kəsəsi
Barışmaq istəyirəm.
Öz sakit həyatımla
Vuruşmaq istəyirəm…

**20.01.1970**

***

Qara gözlər gözlərimə
Soyuq-soyuq baxan kimi,
İnləyirəm için-için.
Qışın qarı əriyərək
gur çaylara axan kimi
Əriyərəm vüsal üçün…

**20.01.1970**

## BARIŞACAĞAM

Ürəklərimizin hərəsi
bir planet təki,
Mənim ürəyimdə
Sənin həsrətin, məhəbbətin,
bir də sevənlərə məxsus od.
Bilmək istəyirəm
nədir sənin ürəyindəki? –
"Lunaxod" göndərəcəyəm ürəyinə,
"Lunaxod" -
(Yer Aya "Lunaxod" göndərib
onu öyrənmək istəyən təki).
Gəzəcək ürəyini qarış-qarış,
Şad xəbər göndərəcək:

–Nahaq küsmüsən, barış!
–Həyat varmı o ürəkdə? –
Həyəcanla soruşacağam.
Deyəcək: –Var! –
Tək sənin məhəbbətin yaşayır!
Barışacağam!
Barışacağam!

***

Sevdiyim qız hanı?
Yetişdi məhəbbətli
ömrümün xəzanı.
Payız…
Bəlkə də ayrı bir qız
Ötənləri unutdura biləcək,
Daha üzməyəcəyəm
hayana gəldi
yelkənsiz gəmi kimi.
Bəlkə də məhəbbətim
yenidən göyərəcək
güzlük zəmi kimi…

**1970**

## DONMUŞ UŞAQLIĞIM

Uşaqlıq şəklimə baxıram,
Ömrümün bir anı
donubdur kağızda.
Qayğısız çağlarım
şirin bir nağıla
dönübdür kağızda.
Bu hissi keçirər
keçmişi ananlar,

qoy mən də anım!
Buz kimi olsa da donanlar,
Qəlbimi isidir
Don vurmuş bir anım…

**10.07.1970**

***

Günlər uçdu quş kimi,
ömür yarı.
–Hələ gözlə! –
Yordu məni sözlərinin
bu "hələ"si…
Məhəbbətimin qarşısında yandı
Ürəyinin qırmızı işıqları,
söndü ümidimin şöləsi…

**1970**
**Bilgəh**

## SARI

Günəş batanda saralır,
Yarpaq töküləndə.
Bu, təbiətin öz ahəngidir.
Hicran gələndə
rəngimiz sarıya boyanıb,
Deyirlər sarı ayrılıq rəngidir,
Vüsalın keşiyində dayanıb…

**14.04.1970**

## NƏ YAXŞI Kİ…

Külək haray qoparır,
Odmu düşüb dənizə?
Eşitmirik heç nəyi,
Dayanmışıq üz-üzə,
Elə bil ki, karıq biz.

Qaranlıqlar içində
Dodaq tapır dodağı.
Tufan qopur ürəkdə
O görüşü, o çağı
Çətin unudarıq biz…

Bir məhəbbət
azalardı dünyadan
biz olmasaydıq.
Bir sədaqət
azalardı dünyadan
biz olmasaydıq. –
Nə yaxşı ki, varıq biz!

**09.06.1970**

## ELEGİYA

Nə olsun ki, ölməmisən,
Nə olsun ki, hələ sağsan,
Yer üzündə yaşasan da,
Mənim üçün daha yoxsan!

Deyirlər ki, nə vaxtdandır
Sirdaşındı xatirələr.
Ürəyimdə dəfn etmişəm indi səni,
Başdaşındı xatirələr.

Məzarında məskən salan çiçəkləri
Göz yaşımla sulayıram.
Nə gizlədim,
O xatirə başdaşını
Mən duz kimi yalayırıam…

**14.09.1970**

***

Məhəbbət dünyasında
Qızıl tacım olasan.
Elə dərdə düşəm ki,
Sən əlacım olasan.
Deyirsən nişanlıyam . –
Anam-bacım olasan…

***

Sən məni sevirsən, bilirəm bunu,
Nə gecən gecədir, nə də gündüzün.
Necə olacaqdır bu işin sonu,
Cavab verməyə də acizsən özün.

O gözlər deyir ki, məni danışdır,
Duyğusuz deyiləm, hiss edir ürək.
Çəkdiyin əzablar mənə tanışdır,
Bir zaman sevmişəm mən də sənin tək.

O vaxtlar sevsə də heç sevilməyən
Özümə yamanca yazığım gəlir.
İndi sevilsəm də, sevə bilmirəm,
İndiki özümə acığım gəlir.

**10.05.1970**

## QƏRİBƏ HUŞSUZLUQ

Doğrusu özümə mat qalmışam mən,
Qorxuram yaddaşın şöləsi sönə.
Dostlar yarı ciddi, yarı zarafat
Huşsuzlar huşsuzu deyirlər mənə.

Görmüşəm hicranın sərt qışını da,
Ancaq elə bilmə soyuğam, buzam.
Bəs niyə ən ani baxışını da
Unuda bilmirəm? – Əcəb huşsuzam!

**28.08.1970**

***

Əgər ürəyimin əziz yerində
Sənin adın yoxsa, tez onu yandır!
Məhəbbət dünyamın üfüqlərində
Günəş ol, şəfəq saç, ancaq əzizim,
Özgə üfüqlərdə doğma, amandır!

Bu şirin xəyalı məhəbbətimin
Özgə ürəklərə axıb dolmasın.
Mənim nur mayalı məhəbbətimin
Üstündən heç zaman, üstündən heç vaxt
Şəfəqli əllərin əskik olmasın!

**02.12.1970**

## NECƏ UNUDUM

Bürüyüb üzünü qara bir bulud,
Gözlərin yaşarıb, qəhərini ud.
Titrəyə-titrəyə deyirsən: –Unut!
O nəmli gözünü necə unudum?

Gecəyə çevrildi gözümdə səhər,
Mənim də qəlbimi çulğadı qəhər,
Hər şeyi unutmaq olar birtəhər,
Bəs unut sözünü necə unudum?!

**04.09.1970**

## OLMAZ

Bilirəm bu kiçik qoşmaya görə
Məni bir divanə sanasız, olmaz.
Şairlər hamısı belədir, nə qəm,
Sonası, heyrətdən donasız, olmaz!

Çıxdım od içindən səməndər kimi,
Gülüşün əritdi bütün qəmimi,
Ürək ki, bu qədər oldu səmimi
Onun istəyini danasız, olmaz.

Gecələr yuxu da getmir gözümə,
Təəccüb qalmışam özüm-özümə.
Mehriban gözlərin baxır gözümə,
Sevdalı baxışlar mənasız olmaz.

Hicranın hər anı ilə bənzəyir,
Məhəbbət kükrəyən selə bənzəyir,
Şairin ürəyi gölə bənzəyir,
Göl də ki, heç zaman sonasız olmaz…

**22.08.1970**

## YURDUMUN QIZLARI

Milli geyimdəsiz bu bayram günü,
Ağ don şəfəq saçır bəyaz qar kimi.
Meydan gölə bənzər, sizsə üzürsüz
Vaqif söyləmişkən, sonalar kimi…

Kaş kəpənək olub qonum yaxana,
Fərəhim, sevincim kükrəyib daşır.
O gözə, o qaşa, o boy-buxuna
Bilirsiz bu geyim necə yaraşır?!

Alışıb yanıram xeyli zamandır,
Mənim istəyimi duyun, duyun siz!
Nümayişdən sonra, qızlar, amandır,
O milli geyimi çıxarmayın siz!

**03.10.1970**

## NAĞIL BULAĞI

Tutar nəvəsinin əlindən hər gün,
Onun istəklisi dünyada mənəm.
Şirin nağıl axar dilindən hər gün,
Nağıl bulağıdır elə bil nənəm.

Gözündən görünər qəlbi sızlasa,
Bir elin hikməti hopub qanına.
Hər kimin ürəyi nağılsızlasa,
Durmasın, nənəmin gəlsin yanına…

## NƏNƏM

Sevinər, hər nəvə doğulan zaman
Nənəmin təkliyi yetişər sona.
Bir yandan tay-tuşu köçər dünyadan,
Təzə tay-tuş gələr bir yandan ona…

***

İmtahandan kəsilmisən,
Əlaçıydın bir vaxt sən ki…
Heç özünü sındırmayıb,
Toxdaq-toxdaq deyirsən ki,
Verəcəyəm bu gün-sabah,
Bir göndəriş alıb yenə.–
Bəs kim verir göndərişi
Məhəbbətdən kəsilənə?!

**1970**

## METRODA

Metroda qarşılaşdıq,
Dilə gəldi baxışlar,
Özümüz susduq fəqət.
Gözlərindən qəlbimə
Yola düşdü bir qatar,
Sərnişini məhəbbət…

**09.09.1970**

**ÜZMƏ MƏNİ**

Yaraladın qəlbimi
Tikanlı sözlərinlə.
Bir vaxt mənə kəc baxan
O qara gözlərinlə
Süzmə məni, əzizim.

Bu eşqin yollarında
Piyadayam, çaparsan.
Gecikmisən, əbəsdir,
Elə bilmə taparsan,
Gəzmə məni, əzizim.

Tənəli sözlərindən
Çox uzağa getmişəm.
Çiçək kimi bir özgə
Çəmənzarda bitmişəm,
Üzmə məni, əzizim…

**22.05.1970**

***

Ürəyimi ayrılığın qəmi, sitəmi
Alıbsa da dövrəsinə üzük qaşı tək.
Elə bil ki, bu ayrılıq məhəbbətimi
Gündən-günə ovxarlayır
bülöv daşı tək…

**24.01.1971**

## DÜNYAMIZ ŞEİRDİR

Dünyamız şeirdir gecə-gündüzlü,
Dünyamız şeirdir qaralı, ağlı.
Dünyamız şeirdir çaylı, dənizli,
Dünyamız şeirdir dərəli, dağlı.

Dünyamız şeirdir qışlı, baharlı,
Dünyamız şeirdir milyon təzadlı.
Dünyamız şeirdir çovğunlu, qarlı,
Dünyamız şeirdir toylu, büsatlı.

Şadlığa bələnib hər tərəf, hər yan,
Sevinc qəm içindən aranmayıbmı?
İki gənc toy edib birləşən zaman
Dünyanın şah beyti yaranmayıbmı?!

Elə ki, tər tökür, çalışır insan,
Şəhərlər yaranır, kəndlər yaranır.
Ürəyi birlərin qovuşmasından
Dostluğa rəmz olan bəndlər yaranır.

Rahat buraxırmı məni bu fikir? –
Özünə tələbkar şairlər təki
Şeirinin üstündə zaman işləyir,
İşləyir, özü də yaman işləyir…

Neçə təzə misra gəlir dünyaya,
Üstündən xətt çəkir neçə misranın.
Deyirəm zaman da insan tək duya,
Saf-çürüklüyünü seçə misranın.

Vaxtsız solanların halına yanın,
Bir igidin yası elin yasıdır.
Dünyamız şeirdir, hər insan onun
Təkrar olunmayan bir misrasıdır.

**1971**

## TƏNQİDÇİ DOSTUMA

Haqlı tənqidindən incimərəm mən,
İçərəm onları bir şərbət kimi.
Əgər sözlərimi görmək istəsən
Yağışdan sonrakı təbiət kimi,
Daha ürəklə gül mənə güləndə,
Gizlətmə o acı sözlərini sən.
Tənqid yağışıyla məqam gələndə
Yatırt düşüncəmin tozlarını sən…

**17.04.1971**

## ƏLİ ƏMİ

Sənə həqiqətin rəmzimi deyək? –
Belə tanıtmısan bizə özünü.
Elə yazıçı var, niyə gizləyək,
Oxu əsərini, görmə üzünü.

Yurdumun hər oğlu əhdi düz olub,
Tanıyaq düşməni, görək dostları.
Əzəldən ən yaxın dostumuz olub
Sənin yaratdığın "Ürək dostları".

Qəlblərə saldığın silinməz izdə
Hər şey qıt olsa da, ümid bol olub.
Sənət dünyasına bələdçimiz də
Bəlkə "Turaclıya gedən yol" olub?

Yazıb yaradanın eldədir canı,
Eli oymaq-oymaq gəzən sən oldun.
Bizim mərd qızları – neçə durnanı
İlk dəfə qatara düzən sən oldun.

Elin sevincini, qəmini duyan
İgid oğul hanı, igid ər hanı?
Sənət meydanında qartal olmayan
Uçura bilməzdi "Bir cüt tərlan"ı.

Səni qorxutmayıb nə duman, nə çən,
Neçə yol düşsən də dara, çətinə.
Açığı, pərəstiş eləyirəm mən
Sənin dilə düşən məhəbbətinə.

Qulaq asmayanda sözə, öyüdə
Elə bilməyin ki, ürək dəlidir.
Məncə, sənətkarın böyüklüyü də
Onun eşqi ilə ölçülməlidir.

Doğma parçasısan doğma yurdumun,
Müdrik sözlərinlə vətəni bəzə.
Elə bu günlərdə sənət ordunun
"İnqilab əsgəri" gəlmişdi bizə.

Ürəyin deyəni qələmin yazdı,
Kimsədən ummadın pay, Əli əmi.
Səndən danışmağa qüdrəti azdı,
Bağışla Rafiqi, ay Əli əmi…

**1971**

## GÖZ YAŞI

Aramızdan gedən dostun, sirdaşın
İllərlə yasını saxlamışıq biz.
Ömrümüz uzunu, bu gizli deyil
Sevincdən, kədərdən ağlamışıq biz.

İnsanlar, siz deyin: hansı kəsdi ki,
Heç vaxt ağlamayıb o için-için?
Göz yaşı onunçün müqəddəsdi ki,
Tökülər həmişə əzizlər üçün…

**03.01.1971**

## SƏNLİ XATİRƏLƏR

Sənli xatirələr düşəndə yada
Ürək həzinləşər, ürək kövrələr.
Eşitsəm qəlbini vermisən yada,
Yaram təzələnər, yaram qövr elər.

Sənsizlik qəlbimə olar göz dağı,
Çox da ki vüsala heç güman olmaz –
Yanar için-için, çıxar cızdağı,
Ürəyim yenə də peşiman olmaz…

**1971**

## KƏND CIĞIRINDA

Əlində bir dəstə şehli bənövşə
Gördüm bir qız gəlir düz mənə doğru.
Tutdu baxışları məni atəşə,
Qopdu ürəyimdən bir şirin ağrı.

Bağrımın başına saldı odu o,
Coşdurdu, daşdırdı olan hissimi.
Sonra təbəssümlə ovsunladı o
İlan düşüncəmi, ilan hissimi.

Onun qarşısında oldum bir müti,
Bu gün ürəyim bir həsrət qazandı.
Susduq, qəlbimizdə söhbət həsrəti,
Cığırlar qısaldı, sükut uzandı.

Niyə danışmağa söz tapmadım mən? –
Ürək için-için yandı, qovruldu.
Heç yadımdan çıxmaz, elə o gündən
Dincliyimin külü göyə sovruldu.

Dindirdi könlümün sarı simini,
Düşdü baxışları mənim sehrimə.
Onun gülüşünü, təbəssümünü
Yavanlıq elədim təzə şeirimə…

**25.11.1971**

## BİR GÖZƏLƏ

Şeir gecəsiydi, ulduzlar kimi
Sözlər sayrışırdı bu gün kürsüdən.
Yetişdim oxucaq "Hicran" şeirimi
Bir qız alqışının vüsalına mən.

Əlimi sıxan əl sanki piləydi,
Məni təbrik etdi o, gülə-gülə.
Ancaq bilmədi ki…
Hardan biləydi? –
Bu şeiri onunçün yazmışdım elə…

**27.04.1971**

## KAŞ

Yağır ürəyimə qəm narın-narın,
Dinləyin səsimi, qırıq neyəm mən.
Onunçün bir para ağıllıların
Gözündə dəliyəm, divanəyəm mən.

Laqeydlik hara, insanlıq hara? –
Onu öz taxtından devirə biləm!
Dərd verib biganə ağıllılara,
Onları dəliyə çevirə biləm…

**08.04.1971**

***

Hələ o, körpədir, çəmənzarında
Duyğular qönçədir, gül açmayıbdır.
Heç nə çalınmayıb könül tarında,
Hələ məhəbbəti dil açmayıbdır.

Ancaq duyğuları bir simə bənddir,
Toxunsan, dil açıb danışasıdır.
Onun həssas qəlbi bir himə bənddir,
Hansı baxışlasa alışasıdır…

**14.04.1971**

## BÜLBÜL

Naləsi qəlbləri al qan eləyir
Kim ki, sehrli eşq ocağındadır.
Bülbül əsrlərlə fəğan eyləyir,
Gül isə tikanın qucağındadır.

Yazıq zara gəlib hicran əlindən,
Sevənə ah çəkmək məgər ardımı?
Ayrı düşməsəydi bülbül gülündən
Naləsi bu qədər yandırardımı?

**16.04.1971**

## ZƏRİFLİK

Eşqinlə yanıram mən için-için,
Heç zaman sönməyən köz axtarıram.
Həmişə səninlə danışmaq üçün
Ən zərif, ən incə söz axtarıram.

Bəs niyə, bəs niyə vüsal anında
Mənim arzularım qəmə bürünür?
Zəriflik özü də sənin yanında
Nədənsə bir qədər kobud görünür…

**14.11.1971**

## BƏNNA QARDAŞ

Sənin tikdiyin bina nə zaman ki, yüksəlir,
Qayğılı ürəklərə axır sevinc yaşları.
Unutma ki, nə qədər qəlbə yüngüllük gəlir
Sən divara hördükcə iri, ağır daşları.

Baxışlardan silinir kədər izi, qəm izi.
Bizə fərəh gətirir sənin qoyduğun hər daş.
Əllərinə dikilib neçə evsizin gözü,
Tələs, a bənna qardaş, tələs, a bənna qardaş!

**1971**

***

Bir anda yumşalıb olar mum kimi,
Eh, onu aldatmaq asandan asan.
Sözlərin əlində barəmum kimi
Düşər hər sifətə sadəlövh insan.

**14.04.1971**

***

Elə uca bir budağa qonam ki,
Məhəbbətim dönə şirin nağıla.
Eşq oduna gərək elə yanam ki,
İşığıma sevgililər yığıla…

**Mart 1971**

## GÖZLƏRİM

Gözlərim – səadətimdir,
Onlarsız nə bilərdim
dünya necədir?
Gözlərimlə bağlıdır
həyatda ən şirin
sandığım anlar da…
gözlərim – qaranlıq gecədir,
arzularım – ulduzlar kimi
sayrışır onlarda…

**1971**

## QƏRİBƏ QISQANCLIQ

Bulaq kimi qaynayır,
Bir gözə bax, gözə bax!
Ovsunlayır adamı,
Sən qıza bax, qıza bax!

Odlu baxışlarında
Sönməz gənclik həvəsi.
Boynundan bir "əl" asıb,
O, medalyon əvəzi.

Süzür məni gözaltı,
Alışıram, yanıram.
Əl dəyməmiş yerləri
O ələ qısqanıram…

**1971**

## SEVGİLİM

Söz gizləsən bərk inciyər,
Küsmək onun əlindədi.
Məndən heç nəyi gizləməz,
Ürəyi lap dilindədi.

Bir qəbahət etsə əgər
Gözlərində yaş görünər.
Şəffaf sulu bulağın da
Dibindəki daş görünər…

**23.11.1971**

# İRƏVANDA KEÇƏN GÜNLƏR

***

Əsgərlik – iradə, dözüm boğçası,
Əsgərlik – kişiliyin uşaq bağçası.

**01.12.1971**
**Yerevan**

***

Quşbaşı qar yağır, hər tərəf dümağ,
Yəqin sərt olacaq builki qış da.
Addım atan kimi sürüşür ayaq,
Gərək məşq edəsən qarda, yağışda.

Baxma bu çovğuna, gücünü göstər,
İgid öz adını dəyişə bilər?
Heç qardan, çovğundan çəkinən əsgər
Qəddar düşmənlərlə döyüşə bilər?

**09.12.1971**
**Yerevan**

## YOLDAŞ KOMANDİR

Deyirsən, yoldaş əsgər,
fikrini cəm et,
Hara göndərirəmsə,
dayanmadan get!
Yarım yadıma düşüb,
neyləyim axı?!
Varlığıyla sevənin
nədir günahı?

İnsan mətin olmalı
məhəbbətində,
Yoldaş komandir!
Öz hərbi qanunu var
məhəbbətin də,
Yoldaş komandir!

**13.12.1971**

***

Əlimdə avtomat qələm,
Çiynimdə avtomat tüfəng.
Kənardan baxanda
qəşəng görünür, qəşəng…
Qabaqdadır hələ
işlərin çətini, mürəkkəbi.
Avtomatımın patronu yoxdu,
qələmimin mürəkkəbi…

**15.12.1971**

## NƏ GEYİNİM

Əllərim üşüyəndə
əlcək geyinərəm,
Ayaqlarım üşüyəndə
yun corab.
Bədənim üşüsə,
palto geyərəm,
son dəbli – drap. –
Almaram çovğunu,
boranı eynimə.
Hicrandan ürəyim üşüyür,
Bilmirəm nə geyinim əynimə?

**15.12.1971**

## GÜNLƏRİM

Yola salıb ötən günlərimi,
Gedirəm üzü sabaha.
Günlərim patrona bənzəyir,
Zaman silaha.
Ürəyimdə dünyanın
qoyduğu izlər…
Ötən günlərim –
boş qalan gilizlər…

**27.12.1971**

***

Çöllərin soyuğu səni andırdı,
Dolandım bir qaynar köz sorağında.
Üzümü, gözümü şaxta yandırdı
Misra sorağında, söz sorağında.

Qorudum çovğundan bu məhəbbəti,
Həzin duyğularım kükrədi, daşdı.
Sənsizlik, o boyda vüsal həsrəti
Elə bil mənimlə bağrı-badaşdı.

Neynim, bu sevginin küçələrindən
Hicranın ayağı yığışmır hələ.
Acizəm, hələlik bacarmıram mən,
Əksin bir nəğməyə sığışmır hələ…

**24.12.1971**

## ƏBƏDİ ÜNVAN

Deyirsən çətin ki, görüşərik biz
Dolmuş gözlərini dikərək yerə.
Ünvanım dəyişir, bil, ailəmiz
Köçür bu şəhərdən başqa şəhərə.

Çağırsam, sevənlər hayıma gələr,
Yoxmudur vüsala gümanın sənin?
Eh, ev ünvanınız dəyişə bilər,
Qəlbimdir əbədi ünvanın sənin…

**31.12.1971**

## MƏNİM KOMANDİRİM

– Ay gözləri qara, deyimmi kimsən?
Elə bil sən mənim komandirimsən.

Məhəbbət ürəyə hökm edən zaman
Aslan da çevrilib bir quzu olur.
–Yox-yox, yanılırsan, axı, ay oğlan,
Zabitin çiynində ulduzu olur…

–İnkar edə bilməz bunları heç kim,
Sevdasız bir ürək bumbuz deyilmi?
Mənim sənə olan ilahi eşqim
Sənin paqonunda ulduz deyilmi?!

–Sənin şit sözlərin abrımı tökər,
Dinclik verməyirsən mənə heç zaman.
Komandirinəmsə mən sənin əgər,
Sən mənim qarşımda farağat dayan!

–Nə olsün yolumuz yoxuşdur, dikdir,
Mən ayrı bir yola vara bilmərəm.
Eşqimiz rütbəcə səndən böyükdür,
O əmr eləyəndə, incimə, gülüm,
Qarşında farağat dura bilmərəm…

**21.12.1971**

## SƏNSİZ

Sənsiz bir yerdə
qərar tuta bilmərəm,
Öz-özümə deyinərəm.
Hicran qışı gələndə
ümid dolu kəlmələrini
geyinərəm…

**16.12.1971**

## ÇƏTİNDİR

Ovumun dalınca qaçıram birbaş,
Bu yolda dayanmaq, durmaq çətindir.
Yaxşı bilirsən ki, ay ovçu qardaş,
Ürəklə atmasan, vurmaq çətindir.

Elə düşünmə ki, susandır indi,
Ürəyim bir dəli ozandır indi,
Sevirəm söyləmək asandır indi,
Eşqin keşiyində durmaq çətindir.

İnsan cəsur ola gərək həmişə,
Zəhməti özümə etmişəm peşə,
Ürəklə girməsən əgər bir işə,
Ən adi səddi də yarmaq çətindir.

İnsan gedəmməyən çətin yol hanı?
Yoxdur sözlərimin zərrə yalanı,
Gülüm, məhəbbətlə nəfəs alanı
Sevda yollarında yormaq çətindir.

**18.12.1971**

## ZÖVQLƏR

Ağacın dibinə dəmir basdırıb,
Ona bağladılar düz bitsin deyə.
Sonra su tökdülər, dəmir paslandı,
O körpə ağacsa ucaldı göyə…

Dünya qəribədir, görürəm ki, mən
Biri fərəhlənir, biri yas tutur.
Deyirəm işə bax, eyni nemətdən
Biri qida alır, biri pas tutur…

**01.01.1972**
**Yerevan**

## DƏMİR KİMİ

Ölümün düz gözünə bax,
Ağrıları saya salma!
Dəmir kimi bərk ol, ancaq
Dəmir kimi soyuq olma!

**01.01.1972**
**Yerevan**

## SAĞLIQLAR SÖYLƏYƏNDƏ

İstəyirəm alışsın ürəyim məşəl kimi,
Təzə il,  təzə arzu, yazılmamış vərəqlər…
Bu yel qanadlı illər görünməz bir əl kimi
Ömrümün kitabını yavaş-yavaş vərəqlər…

Ürəyim inləsə də hicranın pəncəsində,
Ağlayıb darılmasın qoy mənim sevdiyim qız.
Bilirəm, köhnə ilin sonuncu gecəsində
Təzə ilin eşqinə badə qaldırırsınız.

Sizin xəyalınızdır qəlbimə olan həyan,
İçib xumarlanırsız boran məni döyəndə.
Mümkünsə təzə ili keşikdə qarşılayan
Əsgəri unutmayın, dostlar, sağlıq deyəndə…

**01.01.1972**

## CAN SAĞLIĞI

Enməyi, qalxmağı bacarmalısan,
İstər dərə olsun, istər dağ olsun.
Nəsə itirəndə dünyada insan
Deyirlər: qəm yemə, canın sağ olsun!

Söylə kimin gözü dünyadan doyub,
Kim sevmir ömrünün gənclik çağını?
Dünyanın ən gözəl neməti sayıb,
Atalar, babalar can sağlığını.

Bəlkə dərd əlindən üstələnməsəm,
Üzünə gülməzdim can sağlığının.
Kim bilir, bəlkə də xəstələnməsəm,
Qədrini bilməzdim can sağlığının…

**15.01.1972**
**Yerevan**

## GEDİR

Sonalar azalır, nə olsun demə,
Nə gedir öz doğma gölündən gedir.
Ceyranlar azalır, batmışam qəmə,
Yurdunun düzündən, çölündən gedir.

Sənin bu görkəmin heç gəlməz xoşa,
Qızıl dəqiqələr gedibdir boşa,
Vurdun bu günü də birtəhər başa,
Nə olar, ayından, illindən gedir.

Təngə gətiribdir səni boran, qar,
Eh, nə vaxt gələcək görəsən bahar?
Ay qardaş, hər şeyin bir əlacı var,
Heyf ki, sağlığın əlindən gedir…

**16.01.1972**
**Yerevan**

## ƏSGƏRLİYƏ NƏ VAR…

Mənalı olmazdı yəqin ki, həyat
Həmişə insanın canı sağ olsa.
Heç sənin yanına gəlməzdim, həkim,
Sürünə-sürünə yaşamaq olsa.

Ucalmaq həvəsi vursa beynimə,
Duraram, şineli geyib əynimə,
Dərin uçurumlar gəlməz eynimə
Qalxaram, nə qədər uca dağ olsa.

Xalqın nəzərində daş-tərəzi var,
Gözəl iş görəni alqışlayarlar,
Başqa günahını bağışlayarlar,
Vətənin yanında üzün ağ olsa.

Bu ülvi gözəllik təbiətindir,
Ayaq sözə baxmır, ruhum mətindir,
Dostlar, qınamayın, mənə çətindir –
Əsgərliyə nə var canın sağ olsa!

**19.01.1972**
**Yerevan**

***

Küçənin qarını təmizləyirdik,
Bir oğlan kürəyi aldı əlimdən.
Dedi ki, kənara çəkil, eloğlu,
Sənin əvəzinə işləyərəm mən.

Hər vaxt iş görmüsən sən qələm ilə,
Yazmısan yaradan əllərə dair.
Zəhmət adamının bu gündən belə
Qədrini daha çox bilərsən, şair…

**1972, yanvar.**

## ÖZÜNÜTƏNQİD

Nədənsə bir ağrı qopur sinəmdən,
Astaca silirəm alın tərimi.
Fikirlər içində qovruluram mən,
Nə vaxt yazacağam şah əsərimi?!

Xalqın qarşısında, xalqın önündə
Niyə ilhamımın üzü qaradır?
Kağız korlayırsan nə qədər gündə,
Hələ yazdıqların cızmaqaradır…

Qəlbindən boylanan kiçik nəğmələr
Şimşəyə çevrilib çaxası deyil.
Eh, nə yazmışamsa indiyə qədər
Açığı, heç üzə çıxası deyil.

Nəyimə gərəkmiş boş əyləncələr? –
Onları biryolluq atmalıyam mən.
Özümü zəhmətə salıb bir qədər
Gecəni gündüzə qatmalıyam mən.

Zamanın hər şeyə tələbi yeni,
Tapım deyilməmiş nə var dünyada.
Hamı şair deyə çağırır məni,
Gərək layiq olam bu ülvi ada.

**20.01.1972**
**Yerevan**

## İRƏVANDA

Bakıda ayrı cür gün keçirmisən,
İndi xəyallara dal İrəvanda.
Yarın söylədiyi tikanlı sözlər
Çevrilib olubdur bal İrəvanda.

Bilmirdin hicranın hələ dadını,
Deyirdin çəkmərəm onun adını! –
Boynuna yük düşüb,  gəl inadını
Qara qayalara çal İrəvanda.

Ürəyin yenə də qəmə batıbdır,
Sən niyə yatmırsan, hamı yatıbdır?
Bir gavur gözəli işvə satıbdır,
Düşüb ürəyinə xal İrəvanda.

Görüş vəd eləyir qız dönə-dönə,
Onun məhəbbəti çətin ki, sönə.
Biri də Bakıdan əl edir sənə,
Hünərin çatırsa, qal İrəvanda…

**5 fevral 1972**
**Yerevan**

## LERMONTOV KİMİ

And içdim, dönmərəm sevda yolundan,
Heç zaman pozulmaz mənim bu andım.
Döysə də yollarda məni qar, boran,
Yenə də o qara gözləri andım.

Ayrılıq şimşəyi çaxdı üstümə,
Sənsizlik yağışı yağdı üstümə,
Xatirə çayları axdı üstümə,
Onları qəlbimin həmdəmi sandım.

Çox gözəl tuş oldu sonralar mənə,
Ancaq hamısını bənzətdim sənə.
“Neçə məhəbbətə düşdümsə, yenə
Sabiq məhəbbətin oduna yandım”…

**1972, fevral**

## BABAM

Heç zaman babamı unutmaram mən,
İstər bahar olsun, istər qarlı qış.
Hələ saqqalına dən düşməmişdən,
Babam bir obanın ağsaqqalıymış…

Məni görən kimi atardı işi,
Deyərdi, ay bala, bəri gəl görək!
Bir eldə ağsaqqal sayılan kişi
Mənimlə oynardı körpə uşaq tək.

Açdı xəyalımın ilk qanadını,
Sözləri mənimçün oldu bir yelkən.
Böyük Füzulinin ölməz adını
İlk dəfə babamdan eşitmişəm mən.

Gəzməyə çıxardıq tutub əl-ələ,
Bərk-bərk yapışardım isti əlindən.
Babamın nəfəsi tıncıxsa belə,
Şeir tükənməzdi əsla dilindən.

Sözünə bərabər çətin söz tapam,
Sözü də şeir tək qalıb yadımda.
Mənə çoxlu şeir söyləyən babam,
Özü də şeir tək qalıb yadımda…

**1972**

## ANA

Qışda rast gəlirik qışın qarına,
Soyuq olmayanda yer ağardımı?
Sən soyuq olsaydın övladlarına,
Qara saçlarına qar yağardımı?!

Sevincim qəlbimdə ilk bahar, ana,
Kədərim gözümdə duman, çən oldu.
Sənin saçlarına düşən qar, ana,
Soyuqdan olmadı, istidən oldu…

**16.02.1972**

## ZAMAN

Bu hicran qışında batmışdım qəmə,
Səni düşündükcə qəlbim isindi.
Yüz fikir bir borcu ödəməz demə,
Bir fikir yüz borcu ödəyir indi…

**29.02.1972**

***

Desələr ki, bu dünyada
Yüz il ömür sürəcəksən,
Çəkinmədən mən ömrümün yüz ilini,
Öyrənməyə həsr edərdim Füzulini…

**1972**

## DÜNYAM

Nələrin şahidi olmamısan sən,
Mənim ağlı dünyam, qaralı dünyam?!
Bu qədər möhnətə dözürsən nədən,
Sinəsi yüz yerdən yaralı dünyam?!

Qoyma gözümüzdə şirin diləyi,
Bizdən uzaq olsun hicran küləyi.
İki həsrət gənci, həsrət ürəyi
Salma bir-birindən aralı, dünyam.

Bilirəm, olacaq yenə xeyir, şər,
Amandır, bu dəfə iltifat göstər,
Miskin görünərsən yar getsə əgər,
Buraxma o gözəl maralı, dünyam!

**1972**

***

Demə ki, qəfəsə salıblar şiri,
Borclu çıxacaqsan, danışma, kiri!
Sənə əmr verir tülkünün biri,
Əlacın nədir ki, dözəsən gərək.

Ayrılıq qəlbimi qurd kimi didər,
Ancaq lazım deyil bu qəm, bu kədər,
İnamın azalsa zərrəcə qədər
Əlini dünyadan üzəsən gərək…

**1972**

## MƏKTUBLAR

Məktub var isinmək olar közünə,
Məktub var içində sanki buz gəlir.
Biri təxəllüs də yazır özünə,
Birinin məktubu imzasız gəlir.

Gərəksiz kağızlar poçtalyona yük,
Çoxu qəm gətirir sevinc yerinə.
Bəzisi atəşli, bəzisi sönük,
Məktublar bənzəyir sahiblərinə.

Az qalır özünü adam itirə,
Cavab yazmalısan hərəyə bir-bir.
Çoxu da yazdığı beş-on sətirə
Beş-altı vərəqlik cavab istəyir.

Quraqlıq durmayıb hələ qəsdimə,
Elə bil dənizəm, hey axşam-səhər,
Məktublar çay kimi axır üstümə,
Biri lil gətirir, o biri gövhər…

**03.03.1972**

***

Şənlik bir aləmdir sənin üçün də,
Məşəqqət görmüsən nə qədər azı!
Adam var yaşayar şənlik içində,
Yenə həyatından qalar narazı.

İçər, dumanlanar gərəksiz başı,
Araq gözlərində məbud görünər.
Onun əlləriylə qoysan yanaşı
İncə qız əli də kobud görünər…

Bəzən öz-özünə söylənər ki o
Nə etsəm hamının qəlbincə olar.
O qədər əylənər, əylənər ki, o,
Özü də çevrilib əyləncə olar.

O yazıq dünyada nə görüb axı
Baxma ki özünü kişi sayır o.
Acanda özünə çörək almağı
Dünyanın ən çətin işi sayır o.

Gözəl bir xilqətə könül verməyən,
Gəlməz, gözəlliyin hayına gəlməz.
Qara gün görməyən, məhbəs görməyən
Bilməz azadlığın qədrini bilməz.

**1972**
**Yerevan**

## QABARLI ƏLLƏR VƏ…

Görüşdük, gözünü gözümə dikdin,
Yel vurdu, oynadı məcnun tellərin.
Mən sənə əl verdim, əlini çəkdin, –
Nə yaman kobuddur, – dedin əllərin…

Zəhmətkeş adamam, bunu danmıram,
Mənim əllərim də qabar-qabardır.
Sənin aləmində heç nə qanmıram,
Hisslərim cılızdır, düşüncəm dardır.

İnsan da olarmı şöhrətin qulu?
Niyə çevirmisən üz xəzinəyə?
Halal zəhmətimlə aldığım pulu
Bil ki, dəyişmərəm yüz xəzinəyə.

Kölgənə çevrildim sənin neçə il,
Təmənnan, istəyin bilmirəm nədir.
Nə dövlət, nə şöhrət gərəyim deyil,
Ən böyük adım da elə fəhlədir.

Yaradıb qururam nə vaxtdan bəri,
Zəhmətin mənası dərindən dərin.
Ovcuna tökülsə alnımın təri,
Yəqin ki, əriyər incə əllərin…

O puçur tərin də öz aləmi var,
Onu dəyişmərəm güllə, çiçəklə.
Kobud əllər ilə öyünmək olar,
Necə öyünəsən kobud ürəklə?!

**1972**

## SƏNİ GÖRÜRƏM

Təkcə mən deyiləm yanan, odlanan,
Anamın saçında dəni görürəm.
Bizim aramızda hicran adlanan
Dumanı görürəm, çəni görürəm.

Qorxuram qəlbimin şöləsi sönə,
Qıyma ki, bir ürək zülmətə dönə!
Bir az oxşarı var hər şeyin sənə,
Nəyə baxıramsa, səni görürəm…

***

Sona yetən kimi mənim bir ilim,
Alışıb yanacaq vüsal günəşi.
Hicran buludunun ardından, gülüm,
Gec-tez boylanacaq vüsal günəşi.

Hicranın buzları əriyəcəkdir,
Onu öz əlimlə böləcəyəm mən.
Vüsal ayaq tutub yeriyəcəkdir,
Sənin görüşünə gələcəyəm mən…

**1972**

## ƏN BÖYÜK SEVİNCİM

Novruz bayramıdır, ürəyim dindi,
Yəqin kəndimizdə yanır ocaqlar.
Qulağım səsdədir, deyirəm indi
Bizim eşqimizdən danışacaqlar.

Sən sussan, gözlərim od-alov səpər,
Ürəyim həmişə nadincdir, gülüm.
Səndən eşitdiyim ən kiçik xəbər
Mənimçün ən böyük sevincdir, gülüm…

**1972**

## OLARMI

Deyirsən gözünü yum tut birini,
Hər gəldi-gedərə uymaq olarmı?
Bir söylə, kim verər onun yerini,
Səni duymayanı duymaq olarmı?

Dərdi yox, sevinci səninlə bölən,
Yerində danışan, yerində gülən,
Sevgi dünyasına təzəcə gələn
Bir ürkək marala qıymaq olarmı?

Yolu tapa bilməz yar ünləşməsə,
Eşqinin mənası dərinləşməsə,
Məhəbbət oduyla şirinləşməsə,
O incə dodaqlar qaymaq olarmı?

Əgər səndə varsa eşq adlı cövhər,
Gözəl bir aləmə edirsən səfər,
Sirrini açıbsa sənə bir nəfər,
Onu harda gəldi yaymaq olarmı?

Hər kəsə şirindir öz turş ayranı,
O qara gözlərin oldum heyranı.
Rafiq, varlığıyla sevən ceyranı
İntizar içində qoymaq olarmı?

**1972**

## DÖRDLÜKLƏR

Ruhumda qəribə duyğular gəzər,
Yad edər yaxınlar, uzaqlar məni.
Küləklər anamın qoluna bənzər,
Qucaqlar, qucaqlar, qucaqlar məni.

***

O qara gözlərə əsir olmuşam,
Bu işdən xəbərin varmı, bilmirəm.
Səni xatırlayıb yenə dolmuşam,
Yağışmı yağacaq, qarmı, bilmirəm!

***

Demə ki, bu giley əbəsdir, əbəs,
Deyirsən ki, qışdan çox gəlir xoşun.
Sobanın yanından ayrılmayan kəs
Necə keçdiyini bilərmi qışın?

***

Ürəyim kimisə gəzər, soraqlar,
Küçəylə gedirəm, vüsal tindədir.
Qarşımda tığlanan bəyaz vərəqlər
Gözəl kəlmələrin həsrətindədir.

***

Bilirəm, dünyada hamı mərd deyil,
Ən ağır kədərin bir sevinci var.
Ağır yaran olsa, yenə dərd deyil,
Dərd odur dərdinə inanmayalar.

***

Unuda bilmirəm, mələyim, səni,
Kəsib aramızı hicran çən kimi.
Elə istəyir ki, ürəyim səni,
Gözlərim işığı istəyən kimi.

***

Neyləyim, göz görüb, qəlb tutub səni,
Dinclik yox vüsala çatana kimi.
Qəflət yuxusundan qaldırar məni
Pıçıltın həyəcan siqnalı kimi…

***

Ay dost, nahaq yerə batmısan qəmə,
Yağan ağ çiçəkdir, soyuq qar deyil.
Bahardan nə qədər yazarlar demə,
Axı bu bahar da o bahar deyil!

***

Adam görmüşəm ki, aləm danışır! –
Heyf, kəsərsizdir sözümüz hələ.
Bizim eşqimizdən aləm danışır,
Bir şey anlamırıq özümüz hələ…

***

Mən sənin dərdindən alışmışam ki,
Eləyim dərdimə tən öz eşqimi,
Özgədən o qədər danışmışam ki,
Tamam unutmuşam mən öz eşqimi…

**1972**

## DURNA QATARI

Görünməz saplara düzülüb
muncuq kimi durnalar,
uçurlar qatar-qatar.
Bir durnanın yeri
boş qaldı qatarda,
Doldu ürəyimə
bir dünyanın dərdi.
Təsbehə nahaq bənzədiblər
durna qatarını,
Təsbeh olsaydı,
bir muncuq düşəndə,
o birilər də tökülərdi…

**1972**

## 8 MART

**Əsgər dostum Rəhim Əhmədova**

Dünyaya göz açmısan
Sən martın səkkizində.
Utancaq bir sevinc var
Bu gün sənin üzündə.

Sənin ki, ad günündür,
Ay dost, utanmaq neçün?
Analar bayram edər
Oğullar doğulan gün…

**1972**

***

Bəzən ürək həqiqəti
Buraxmayır yaxınına.
Nə qədər yol getmək olar
Düşüb fikir axınına?

Dalğaların qucağında
Dirigözlü insan axır…
Fəqət nə qəm,
Həqiqətin sahilinə
Çıxacağam əvvəl-axır…

**1972**

## ƏSGƏRLƏR

Ayaqlarını bir atar,
Ürəkləri bir vurar.
Yatanda bir yatar,
Duranda bir durar əsgərlər…

Nə özünü öyər,
Nə özündən deyər,
Səhərdən axşamacan
Təpik döyər əsgərlər…

Uzaq-uzaq yerləri gəzər,
Hərəsi bir qərib
durnaya bənzər əsgərlər…

İşləyəndə dinclik tapar,
Xəyal köhlənini çapar,
Məktubu ac adam kimi
əldən qapar əsgərlər…

**1972**

## KOR CƏVİZ

Sınmaz, döyməsən şappaşap,
Ləpəsini çıxarmaq daha əzab.
Adamı yandırır kor cəviz,
Xəsisi-simici andırır kor cəviz…

## DƏVƏLƏR

Kimsəsiz səhraları
Ayaq iziylə bəzər.
Aclığa, susuzluğa
Dözər, mərdliklə dözər.
Ağılsız sarbanları
Çox çətin ki, sevələr,
Dəvələr…

Çatar mənzil başına,
Səni qoymaz yarıda.
Təbiətin işidir,
Ən uzaq yolları da
Tikanlı qanqal kimi
Şirin-şirin gəvələr,
Dəvələr…

**1972**

# İLLƏR GƏLİB KEÇDİ ÖMÜRDƏN, İLLƏR…

## MİRAĞA ƏMİMİN ƏZİZ XATİRƏSİNƏ

Adam var ömrü də bir ömür deyil,
Adam var yanmamış bənzəyir külə.
Zarıya-zarıya yaşayır yüz il,
Zarıya-zarıya can verir elə…

Ağladın ürəkdən, güldün ürəkdən,
Heç nəyə biganə olmadı könlün.
Eh, neçə gözlərdə yaş oldu dən-dən
Tutub ürəyini sən yıxılan gün…

Ağladıq gah səslə, gah için-için,
Gözlərdən su içdi bu çöl, biyaban.
Fəxri vətəndaşlar yatdığı üçün
Bu torpaq olubdur Fəxri Xiyaban.

Qəmli səsi gəldi kamanın, tarın,
Danışa bilmirəm, gözlərim dolur.
Dünyada ürəklə yaşayanların
Elə ölümü də ürəkdən olur…

**11.03.1973**

## NƏNƏM VƏ KƏNDİMİZ

Doğma kəndimizə güzarım düşüb,
Yollar min xatirə danışır mənə.
Elə bil bu yerdə hər şey dəyişib,
Təkcə dəyişməyən sənsən, ay nənə.

Yenə ürəyində bir nisgilin var,
Yenə həmin söhbət, yenə həmin söz.
Yenə də üzündə həmin qırışlar,
İşığı azalmış o mehriban göz…

Səninlə zarafat edirəm ki, mən
Ürəyin açılsın, gözlərin gülsün.
Elə öz-özünə gileylənirsən,
Sənə nə bişirim, ay nənən ölsün?!

Nə kabab, nə plov bil ki, heç zaman
Sənin dürməyinin vermir yerini.
Ay nənə, ay nənə, təzə yağınan
Köhnə dürməklərdən elə birini…

Doğma kəndimizə güzarım düşüb,
Yollar min xatirə danışır mənə.
Elə bil bu yerdə hər şey dəyişib,
Təkcə dəyişməyən sənsən, ay nənə…

***

Ögey olmayaydı heç kimə heç kim,
Ellərin dərdinə ney ağlayaydı.
Biryolluq öləydi biganəliyim,
Üstündə yas tutub hey ağlayaydım…

**14.03.1973**

# MART ÇIXDI…

**Mirağa əmimin xatirəsinə**

Mart girdi, dərd girdi…
Məgər dərd birdi?
Hansını çəkəsən,
Hansı ağrıya dözəsən?
Bu itki yaman ağrıtdı məni.
Bənövşələr torpaqdan
baş qaldıranda,
Çiynimizə qaldırdıq cənazəni…
Ən ağır işə çiyin vermişdin,
Heç kəsə yük olmamışdın
indiyə qədər.
Yox, yenə elədir,
Bağışla, çaşdım bir qədər…
Dağdan ağır idin,
Bəs niyə yüngüldür tabutun?
Dilim gəlmir ölü deyim sənə.
Elə bil özün də
çiyin vermisən
Öz cənazənə…
Məzarın gözümə
yaman dərin görünür,
Hər yerdə yerin görünür…
…Şeirlərim çap olundu,
Daha təbrik üçün
əllərin əlimi sıxmadı.
Mart çıxdı,
Dərd çıxmadı ki,
çıxmadı…

**23.03.1973**

## GƏRƏKDİR

Sən məni görəndə tökmə qaş-qabaq,
Məhəbbət çeşməsi duru gərəkdir.
Yanğımı söndürməz hər sısqa bulaq,
Mənə çeşmələrin guru gərəkdir.

Bir səf durna keçər başımın üstdən,
Ürəyim atlanar hər ani səsdən.
Vaxtında seçməkçin yaxşını pisdən
Gözümə dünyanın nuru gərəkdir.

Üşüsən, muğamın oduna isin,
Hər incə mahnının çaları min-min.
Qanad vermək üçün mənə elimin
"Şahnaz"ı gərəkdir, "Şur"u gərəkdir.

Heç zaman yad mahnı çalmasın sazım,
Onu balam kimi bağrıma basım.
Özgənin "can" sözü nəyimə lazım,
Mənə öz anamın "çor"u gərəkdi…

Gəl dostu, düşməni yaxından tanı,
Vətəndə, eldədir hər kəsin canı.
Səni varlığıyla sevən insanı
Öz ürəyin kimi qoru, gərəkdir…

**28.03.1973**

## ƏN AĞIR İTKİ

Boş keçən günlərim ağrıdar məni,
O boşluq çiynimdə ağır yük olar.
Bir özgəsi tapsa mən itirəni,
Yenə ürək üçün təskinlik olar.

Yaşa öz ömrünü bir insan kimi,
Ətirli düzləri gəl doyunca gəz!
Ona yanıram ki, itirdiyimi
Tapa bilməyəcək dünyada heç kəs…

**04.04.1973**

## BƏNNA

Qabar əllərinlə, tunc sifətinlə
Gözümün önündə gəlib durursan.
Sənə quşmu deyim, öz zəhmətinlə
Axı özgə üçün yuva qurursan?!

Hər daşın üstünə daş qoyanda sən
Özünü hamıdan uca sanırsan.
Qoyaraq son daşı son mərtəbədən
Təzə arzu ilə pərvazlanırsan.

Qalxır boz səhrada axdıqca tərin
İşıqlı binalar göbələk kimi.
Arabir buludlar göydələnlərin
Sarınır başına ağ örpək kimi.

Yaradan əllərə qoy alqış deyim,
Divara hörülər öz gəncliyin də.
Mənim rahatlığım, mənim dincliyim
Sənin əllərinin nadincliyində…

**15.04.1973**

## ƏBƏDİ HƏSRƏT

Deyirdim yad olar ürəyimə qəm
Evimdən eşitcək o incə səsi.
Elə bilirdim ki, vüsala yetsəm,
Mənə qərib olar həsrət kəlməsi.

De, necə şadlanıb öyünməyim mən,
Arzu etmirdimmi tez yetim sənə?!
Məndən ki heç nəyi əsirgəmirsən,
Bəs niyə yenə də həsrətəm sənə?!

**15.04.1973**

## QOŞA QANAD

Toya qoşa çağırırlar,
Yasa qoşa gedirik biz.
Teatra, kinoya da
İki bilet gərəyimiz.
Ayrı gəzib dolanmarıq,
İnadların inadıyıq.
Eşqimiz bir sehrkar quş,
Bizsə onun qanadıyıq.
Hər bir şeydən qiymətlidir
Quşa qanad. –
Qoşa qanad…

**02.05.1973**

## HƏDİYYƏ

Biri danışırdı səkkizi martda
Qızlara aldığı hədiyyələrdən.
(Ən gözəl hədiyyə güldür həyatda,
Bundan layiqli şey tanımıram mən.)

Dedi: –Üzük aldıq qızlarımıza,
Necə sevindilər onlar bu zaman.
İçində yazdırdıq biz – filan qıza
Filan qruppanın oğlanlarından.
Hansı qiymətlidir söyləyin görək
Biz alan hədiyyə, yoxsa siz alan?
Sinəmdə qəzəblə çırpınıdı ürək,
Elə bil kükrədi damarımda qan.
Beynimə az qaldı qızıl qan sıza,
Fikrimin aynası çilik-çilikdir.
Mənə elə gəlir nişanlı qıza
Söz atmaq ən böyük nakişilikdir.
Barmağa üstündə özgə ad olan
Üzük taxmaqdansa, ölmək yaxşıdır.
Adəti tapdama, ay cavan oğlan,
Üzük sədaqətin məhək daşıdır.
Demək istəyirəm sözümü kəsə,
Qanı qaynar olan azəri bizik.
Sevgidə yer yoxdur ikinci kəsə,
Qoy heç kəs taxmasın ikinci üzük.
Demə ki, qızışdı, baş apardı çox,
Belə hədiyyəni ağıllı almaz.
Geridə qalmış de mənə, eybi yox,
Ancaq ki, üzükdən hədiyyə olmaz…

**19.06.1973. Qubadlı**

## DOSTUMUN GİLEYİ

Yazı-pozun ilə qazandın ad-san,
Məndən də yazsana! – Dedi bir nəfər.
Qatıra, cöngəyə şeir yazmısan, –
Yanında hörmətim yox onlar qədər?

**20.06.1973. Qubadlı**

## SƏN HEÇ UŞAQ OLMAMISAN

**Qardaşım Sabirə və onun yaşıdlarına**

O, 41-də çıxıb getdi,
Sən doğuldun 42-də.
Hələ də yol gözləyirsən,
Qayıdacaq bəs nə vədə?
Hamı vurhay işləyirdi,
Başlamışdı kənddə biçin.
İkinci bir şələ oldun
Şələ dartan anan üçün.
Bəs əmilər harda qalıb? –
Xala idi sağın, solun.
Hələ ayaq açmamışdan
Tarlalara düşdü yolun.
Anan zəmi biçə-biçə
Çaldı sənin laylayını.
Döşək etdi sənin üçün
Ot layını.
Yağış yağdı,
Üstün-başın palçıq oldu.
Külək əsdi,
Bələyinə qılçıq doldu.
İllər keçdi,
Ayaq açdın yavaş-yavaş.
Yaşıdların nələr çəkdi,
Nələr, qardaş?
Qarğı atı minməyə də
Düzü macal tapammadın.
Belində az yol getmədin
Dərz yüklənmiş kəhər atın.
O illərin acısını
Çox tez duydun.

Üç yaşında
Artıq "kişi qırığıydın".
O günlərin əzabını, acısını
Danaq necə?
Sən heç uşaq olmamısan,
Uşaqlığı anaq necə?

**1973**

## ALTI KİŞİ

Kəndimizdə papaqlılar çox olsa da
Deyərdilər var bu kənddə altı kişi.
İllər keçdi, neçə igid doğulsa da,
Onlar öz tunc əlləriylə
Görərdilər bütün işi.
Altı kişi, altı sütun,
Altısı da igid, mətin.
Kənddə bircə onlar idi
Od içindən geri dönən.
Onlar üçün müharibə
Qurtarmışdı sanki dünən.
Vaxtı ilə kənddə kişi çox olmuşdu,
Heyf, onlar dirigözlü yox olmuşdu…
Altı ümid qayıtmışdı bizim kəndə,
Altısı da eh, nə gündə!
Sən tamaşa eləyəydin,
Onlar da ot çala idi.
Kəndimizin çöllərində
Onlar altı zədə almış qala idi…
Ölənlərin igid ruhu sağ olsa da,
O günlərin dəhşəti də yada düşür.
Kəndimizdə papaqlılar çox olsa da,
Deyərdilər: –Bu kənddə var altı kişi…

**18.06.1973. Qubadlı**

## SUÇU

**"Ağır illər" silsiləsindən**

Dünən toy etdilər, gəlin köçdü qız,
Səhər cəbhələrə getdi o cavan.
Kiçik bir daxmada qalaraq yalqız
Gəzdi əyni yalın, çörəyi yavan.

O vaxtdan keçsə də neçə qış, bahar,
Nə ümid qırılar, nə inam sönər.
Düşsə də üzünə dərin qırışlar,
Deyirsən təzəcə gəlindir elə.

Üfüq qızarmamış yollanır işə,
O illər ona da çəkib neçə dağ.
Gözümün önünə gəlir həmişə
Belində şələsi, ağzında yaşmaq.

O yenə suçudur, əzabkeş suçu,
O verdiyi sudan sərin su hanı?
O vaxtdan bu vaxta daşıdığı su
Yığışsa, işlədər bir dəyirmanı.

Bu kənddə hamıya ötsə də ərki,
Yenə həyalıdır əvvəlki qədər.
Oğullu, uşaqlı kişilər var ki,
Bu bədbəxt gəlinə xala deyirlər…

**24.06.1973**

## DUL ARVADLAR MƏHLƏSİNDƏ

**“Ağır illər” silsiləsindən**

Zərbə bu məhləyə yaman dəyibdir,
Hamı bir dərddədir: cavan, qoca da.
Kişi nəfəsiyçin qəribsəyibdir
Təkcə ürəklər yox, həyət-baca da.

Ay gedən kişilər, qaldınız harda?
Sizi xatırlayıb neçə göz dolur.
Bu dərdi heç üzə vurmasalar da,
Gözlərdən asanca oxumaq olur.

Həqiqət olmadı şirin diləklər,
Həmişə yol çəkən gözə bənzəyir.
Bir zaman eşq ilə yanan ürəklər
Üstünü kül örtmüş közə bənzəyir.

Kişilər geriyə çətin dönələr,
Qadınlar inanmaq istəmir niyə?
Elə bil dərilmiş güldür ümidlər,
Suda saxlanılır solmasın deyə…

**28.06.1973**

## AY BƏRİ BAX

**“Ağır illər” silsiləsindən**

Belə deyirlər ki, davadan qabaq
O, şən bir oğlanmış, həm də qoçaqmış.
Zurnaçı çalsaymış bir “Ay bəri bax”,
Dəvətsiz, filansız oynayacaqmış…

İndi o cavanın seyrinə dur gəl,
Cəbhədə ağlını itirib gəlib.
Doğma kəndimizə özüylə birgə
"Kantujnı" ləqəbi götürüb gəlib.

Elə bil gen dünya ona olub dar,
Yazığın bir deyil, beş deyil dərdi.
Onun nə arvadı, nə uşağı var,
Axı beləsinə kim qız verərdi?

Od parçası imiş, eşitmişəm mən,
Su içmək kimiymiş ona çətin iş.
Ürəklər göynədən o son döyüşdən
Deyirlər sağ çıxan bircə o imiş.

Onun nə qəribə bir görkəmi var,
Əvvəlki igidi oğulsan tanı.
Nəvəsi yerində olan uşaqlar
Ələ salır onu, dolayır onu.

Heç zaman o, üzü gülər danışmır,
Onu qəmli gördüm göz açanda mən.
Bu görkəm adama nələr danışmır?
Nələr oxuyuram o gözlərindən?

Dava mənə çəkdi dağ,
Ay bəri bax, bəri bax!
Bir dostum qalmadı sağ,
Ay bəri bax, bəri bax!
Saqqalım ağ, saçım ağ,
Ay bəri bax, bəri bax!
Görmədim oğul-uşaq,
Ay bəri bax, bəri bax!

**28.06.1973**

# LAL

**"Ağır illər" silsiləsindən**

Adı Haqverdidir, Haxı deyirlər,
Onun görkəminə hərdən nəzər sal.
Ehtiyac müəllimdir axı, deyirlər,
Həyat məktəbində bərkiyib bu lal.

Zaman saçlarına salıb çoxlu dən,
Elə bil xiffətdən arıqlayıb o.
Qardaşı cəbhəyə getdiyi gündən
Ta bu vaxta kimi tək yaşayıb o.

Məhzun baxışları danışmır nələr?
Nə demir havada gəzən əlləri?
Elə bilirəm ki, bu lal kəlmələr
Tutub silkələyir qanlı illəri….

Kərəm çoxdan ölüb, bilməyir hələ,
Karlığı onunçün olub bir xeyir.
O, kimi görürsə, öz dili ilə
Məktub yaz, qardaşım qayıtsın! – deyir…

Mən də söz verirəm:
– Yazaram, yaxşı!
O gülən gözlərə bir nəzər salın.
Mənə elə gəlir gəlsə qardaşı,
Dili açılardı sevincdən lalın…

**30.06.1973**

## OLMUŞDU

**"Ağır illər" silsiləsindən**

Sakit, həlim görünənlər
Dava vaxtı od olmuşdu.
Göstərərək əsl hünər
Cəbhələrdə ad almışdı.

İnsandakı gücə alqış,
Yorulmadı nə yay, nə qış,
Sakit həyat, dinc yaşayış
Hamı üçün yad olmuşdu.

Qızıl bayraq əllərində,
Zəfər sözü dillərində,
Müharibə illərində
Ən dadlı şey cad olmuşdu.

Yorulmurdu insan neçin?
Hər şey, hər şey cəbhə üçün,
Hitler bunu anlayan gün
Dodağı çat-çat olmuşdu.

Xəbər çatdı kəndimizə,
Sanki hər yan güldü üzə,
Gecələr döndü gündüzə,
Qarı düşmən mat olmuşdu…

**1973**

# QAÇAQ NƏBİ,
# QAÇAQ HƏCƏR

**Qubadlıda mehmanxananın bir tərəfində Nəbinin, o biri tərəfində isə Həcərin büstü var.**

Qəlbim nura boyanıbdır,
Mənə çatdı xəbər bu gün.
Mehmanxana qapısında
dayanıbdır
Nəbi ilə Həcər bu gün.
Neçə-neçə zülmkarın
Ürəyini dəlib onlar.
İndi azad Qubadlıya
Sanki qonaq gəlib onlar.
Yox-yox, burda qonaq deyil,
Qaçaq Həcər, Qaçaq Nəbi.
Öz evində qonaq olmaz
Ev sahibi.
Elə bil ki, tərpənəcək
Onların tunc dodaqları.
Gülərüzlə qarşılayır
Nəbi gələn qonaqları,
Həcər gələn qonaqları.
Gecə-gündüz
Mehmanxana qapısında
dayanarlar,
Üzlərində sevinc, vüqar.
Yuxu hara, onlar hara?
Gələn əziz qonaqlara
Keşik çəkər,
Qaçaq Nəbi,
Qaçaq Həcər…

**03.07.1973**

## XƏTRİNƏ

Heç nədən çəkinməz kamil bir insan,
Ürəyin əmrinə tabedir insan.
Qaynar istiyə də tab edir insan,
Yolunu gözləyən sərin xətrinə.

Dünyanın işinə könlüm mat olub,
Köksümdə ürəyim kainat olub.
Yağış yağmayanda yer çat-çat olub,
Göylər də ağlayıb yerin xətrinə.

Səpilib torpağa damcılar bir-bir,
Yayılan xoş ətir bənövşədəndir.
Axı ikisi də bir meşədəndir? –
Çaqqala toxunma şirin xətrinə.

Məhəbbət qəlbində dərin iz qoyub,
Ağrımaz başına Xosrov buz qoyub,
Fərhad Bisütunu sütunsuz qoyub,
Dözüb min cəfaya Şirin xətrinə.

Dilənçi ehtiyac açıb ovcunu,
Ahu yoldan qoyub qərib ovçunu.
Bilənlər bilir ki, neçə acını
Udmuşuq bir damcı şirin xətrinə…

**25.07.1973**

## POLADƏRİDƏN

Daim işləyirsən alov içində,
Deyirəm olmazdı bir belə möhkəm;
Sən öz dözümünü marten peçində
Əridib qatmısan polada bəlkə!

Həyatın alovda bişib, bərkiyib,
Bu vətənə layiq övlad olmusan.
Bəlkə də bu qədər mətin olmazdın,
Polada qarışıb polad olmusan.

**15.10.1973**

## İŞIQ

Evimdə işıq yoxsa,
Ev deyil, xarabadır.
Könlümdə işıq yoxsa,
Eli köçmüş obadır.

Misramda işıq yoxsa,
Ölü doğulubdur o.
Həyat işıq deməkdir,
Nurla yoğrulubdur o.

Əlvan rəngli şəfəqlər
Dünyamıza yaraşıq.
Təkcə qəbirdə yoxdu
İşıq, sevimli işıq…

**17.10.1973**

***

Səni düşünürəm, titrəyir könlüm,
İlk görüş gününü salıram yada.
Şeir qız deyil ki, ay ömrüm-günüm,
Qələm götürəndə acığın tuta!

Səndəki bu qəzəb bilmirəm nədir,
Gözlərin heyrətlə izləyir məni.
Özün qısqanırsan, çox qəribədir,
Xəyalın yazmağa səsləyir məni.

**15.11.1973**

***

Ata evimizə getmisən qonaq,
Axı nigaranam, bir xəbər göndər.
Yaman darıxmışam, sənsiz yaşamaq
Çətinmiş səninlə yaşamaq qədər…

**16.11.1973**

***

Yad döyüş aldadıb məni neçə yol,
Qapı açmağa da qalmayıb təpər.
Kömək də eləmir bu gün validol,
Şad xəbər istəyir, ürək şad xəbər.

Qasırğa qopacaq bu gün elə bil,
Qəzəbli dalğalar olacaq nənnim.
Gələnlər, gedənlər qapımı deyil,
Sanki ürəyimi döyürlər mənim…

**19.11.1973**

## SEVİNC ŞƏLALƏSİ

Övlad arzusuyla getdim xəyala,
Kövrək duyğularım nə həzin oldu?
Dünyaya gələndə ağladın, bala,
Ağlamaq cahana ilk sözün oldu.

Necə xoşbəxt idik ananla o gün,
Qoy bizə insanlar bəxtəvər desin.
Sevinc şəlaləsi oldun bizimçün,
Axdı evimizə ağlartı səsin...

Atayam, sevincim coşub çağlasa,
Elə bilirəm ki, azdı mənimçün.
Bir vaxt cinlənərdim uşaq ağlasa,
İndi körpə səsi sazdı mənimçün…

**1973**

## QIZIMA

Hələ görməmişəm üzünü, qızım,
Gəl vüsal toy etsin, hicran ağlasın.
Gəl səni saz kimi bağrıma basım,
Sehrkar bir nəğmə coşub-çağlasın…

**02.12.1973**

## TƏZƏ İL

Təzə il, ürəkdə təzə arzu var,
Gedəndə, sevincin bizə qalaydı.
Kaş sənin adınla bağlı olanlar,
Özün köhnələndə təzə qalaydı…

**10.12.1973**

***

Dünyaya göz açdı balaca Ülkər,
Anası dünyadan nə tez getdi bəs?
Mənim sevincimi tutmaz dərələr,
Mənim kədərimi dağlar götürməz…

**13.12.1973**

***

Qonur gözlərinlə könlümü dindir,
Sənin həsrətinlə nəğmələr yazım.
Mən yaddan çıxmışam, dostlarım indi
Sənin sağlığına içirlər, qızım…

**19.12.1973**

## "UŞAQ ALƏMİ"

Təzə bir şey sorağıyla gəlirəm hər gün,
Dünən ona raket aldım, bu gün bir gəmi.
Ən istəkli mağazadır indi mənimçün
Bir vaxt məhəl qoymadığım "Uşaq aləmi".

Qələmim də müntəzirdir indi özüm tək,
Körpələrdən söz düşəndə yaman coşuram.
Gülünc sual yağdırıram hərdən qızım tək,
Uşaqlardan yaza-yaza uşaqlaşıram…

Bircə onu düşünürük, o şeytan qızı,
Elə bil ki, özümüzü unutmuşuq biz.
Nə istəsə, bircə anda olacaq hazır,
İndi "Uşaq aləmi"nə dönüb evimiz…

**20.12.1973**

## NƏCƏF BƏY VƏZİROVA

Əyyam dönüb, öz haqqını qanır hər insan,
İndi daşın, torpağın da qəlbi döyünür.
Çəkindilər "ağacların inqilabından",
Vəzifədən çıxartdılar meşəbəyini…

**22.12.1973**

## TƏZƏDƏN

Övlad doğulanda onunla birgə
Ana da doğulur sanki təzədən.
Evimiz alıbdır bir ayrı görkəm,
Balamla birlikdə böyüyürəm mən.

Təzədən ömrümün körpə çağıyla
Həmsöhbət olmağım sayılmaz günah.
Bu gün oynayıram oyuncağıyla,
Dərsə gedəcəyəm onunla sabah.

Qayğılar çoxalır, arzular min-min,
Elə bilməyin ki, susacağam mən.
Əlim əsə-əsə balamla bir gün
İlk sevgi məktubu yazacağam mən…

**23.12.1973**

## ÖMÜR YOLDAŞIMA

İsmətin – ömrümə yaraşıq,
Mən gözəm, sən işıq…

**27.12.1973**

# ATA

Bilirəm, sevirsən bizi ürəkdən,
Bəs niyə dilində xoş söz qəhətdir?
Sonsuz məhəbbəti kiçik ürəkdə
Gizləmək özü də bir məharətdir.

Yanına gəlmişəm, bir üzümə bax,
Elə bil mən sənə ögeyəm, yadam.
Bəs sənin borcunu necə qaytaraq,
Ömrü altı yerə bölünən atam?!

Övladlara bağlı neçə arzunu
Anama söylədin sən oğrun-oğrun.
Bizə sərt olmusan ömrün uzunu,
Olub başımızda danlaq yumruğun…

Kişi kişi olsun gərək dünyada,
Həyatda bu yolu düzgün seçmisən.
Eh, mən də atayam, ata, ay ata,
Sən mənə atalıq dərsi keçmisən.

Səndən gileylənir anam arabir,
Deyir: –Soyuq olmaz daş sənin kimi.
Düşük atalardan acığım gəlir,
Mən ata olaydım kaş sənin kimi…

**06.01.1974**

## İSTEDAD

Səkkiz əsr əvvəl öldü Nizami,
Onu dəfn etdilər – belədir insan.
Təzədən cücərdi saf toxum kimi,
Heykələ çevrilib qalxdı torpaqdan…

**13.02.1974**

## ÇİÇƏKLƏR ÇİMƏNDƏ

Yağışın altında
Çiçəklər çiməndə,
İkimiz gəzirdik
Çəməndə.

Yuyulmuş güllər tək
Gözlərin gülümsər.
İslanmış saçını,
Gülüm, sər.

Qoy səni nəfəsim
Soyuqdan qorusun.
Ətirli tellərin
Çiynimdə qurusun…

**24.04.1974**

*******

Görüşəndə dedim heç nə gərəyim deyil,
Ayrılanda özü məni saldı həvəsə.
Elə bildim sinəmdəki ürəyim deyil,
O gözəldir, bir quş kimi düşüb qəfəsə…

**07.06.1974**

## NƏ QƏDƏR ÇƏTİNMİŞ

**Qızıma**

Anan xəstələndi, yandım gizlicə
Sən əmzik gəzəndə körpə ağzınla.
Onu əvəz edib tək bircə gecə
Oynamaq istədim sənin nazınla.

Dedim ki, anasız körpəm üşüyər,
Beşikdən götürdüm səni ahəstə.
Qucağım çevrildi isti beşiyə,
Səni yırğaladım qollarım üstə.

Yamanca yoruldum, durdum azacıq,
Aramsız ağlayıb kövrəltdin məni.
Səni oxşasam da anandan artıq,
Ovuda bilmədim, ay qızım, səni.

Bir özüm bilirəm çəkmişəm nələr? –
Cəmi bircə gecə qalmışam oyaq.
Ananın qədrini analar bilər,
Nə qədər çətinmiş eh, ana olmaq!

**26.06.1974**

## UŞAQLARDAN YAZMA DEYƏN DOSTUMA

Körpələr dünyasından bir az kənar gəz dedin,
Uşaqlardan danışmaq uşaq işi deyilmi?
Yüz körpə bir kişinin yerini verməz dedin…
Bu gün uşaq saydığın sabah kişi deyilmi?!

**30.06.1974**

## XƏZƏRİN SAHİLİNDƏ

Binaları düzüm-düzüm,
Baxmaq ilə doymur gözüm.
Küçələri geniş-geniş,
Küçələri yaşıl-yaşıl.
Sahilinə baş qoyaraq
Xəzər yatıb mışıl-mışıl.
Sərin-sərin külək əsir,
Yuxusundan durub Xəzər.
Dalğaların hər birisi
Nəhəng qağayıya bənzər.
Bax sulardan çıxanlara,
Kimdir çimən səhər-səhər?
Dalğaların qoynundadır
Elə bil ki, bütün şəhər.
Axı zəfər qazanmamış
Mübarizə meydanından
kim qayıdar?
Hər insan bir dalğa kimi
Xəzərimin qucağından
Çıxıb gəlir Sumqayıta.
Küçələri gecə-gündüz
İşıqlıdır səhər kimi.
Səhər olcaq, Sumqayıt da
Dalğalanır Xəzər kimi.
Dəniz coşur, dəniz daşır,
Yenə güclü külək əsir.
Elə bil ki, bir dalğadır
Donub qalıb
Sahildəki binaların hər birisi.
Deməyin ki, hələ gəncdir,
Uzaqlara səsi çatır.
Xəzərdə su azaldıqca,

Sumqayıtda insan artır…
Bu yüksəliş nəyə bənzər?
Bu yüksəliş eli bəzər.
Sinəsində Sumqayıta
Yermi verir
Sahillərdən uzaqlaşan
Mavi Xəzər?!

**06.07.1974**

## YADDAN ÇIXMAZ QARABAĞ

**Ağabəyim ağaya**

Qəlbə daş atanın insafına bax, –
Bu yerin ən parlaq ulduzu söndü.
Getdi, yasa batdı bütün Qarabağ,
Tehran gəlişiylə cənnətə döndü…

Ey igid cavanlar, alışın, yanın,
Çıxdı əlinizdən elin göyçəyi.
Çiçəyi çırtladı Fətəli xanın
Görəndə bu zərif, incə çiçəyi.

Dəyişdi əhvalı ancaq nədənsə,
Vəhşi ehtiraslar söndü bir anda.
Xanın hüzurunda yarpaq tək əsən
Müqəddəs varlığa döndü bir anda.

Qafil, nə edirsən, bir özünə gəl,
Gör kimdir kökləyən könül tarını?
Əyninə geymişdi bu məsum gözəl
Onun anasının toy paltarını.

Xanın istəkləri gedibdir hədər
Sona olmasa da bu Sona kimi.
Deyirlər Fətəli son günə qədər
Ona səcdə edib bir ana kimi…

…Qürbətdə vətəni düşünüb hər gün,
Yaşarmı budaqdan ayrılan yarpaq?
Tehran cənnətə də dönsə onunçün,
Yadından çıxmayıb doğma Qarabağ…

**07.07.1974**

***

İnsan gülmək üçün gəlib dünyaya,
Gərək şən yaşasın həyatı sevən.
Fəqət arzuları viranə qoyar
Bir vədəsiz ölüm, bir vaxtsız şivən.

Niyə bu işlərdə acizik hələ? –
Kədər buzlarını əritmək olmur.
Elə ağladır ki, həyat insanı
Bir dünya yığılsa kiritmək olmur.

Qoy qismət olmasın heç kəsə şivən,
Ancaq ağlamaq da bizə ar deyil.
Uşaq ağlartısı gəlmirsə evdən
O evdə yaşayan bəxtiyar deyil…

**12.07.1974**
**Qubadlı**

## KÖHNƏ YURD YERİNDƏ

Köhnə yurd yerində tapdım özümü,
Çoban papaq etdi mənə uzaqdan.
Yenə nəm torpağa qoyub dizimi
Əyilib su içdim "Soyuq bulaq"dan.

Doğmalar, əzizlər dəydi gözümə,
Öz tanış ətrini səpdi qantəpər.
Baldırğan başını sürtdü dizimə,
Yalın ayağımı öpdü qantəpər.

Kövrəldim, sən ömrün insafına bax,
Mehriban adamlar yadıma düşür.
Sürü həmin sürü, yaylaq o yaylaq,
Bəs hanı baş çoban Mütəllim kişi?!

O dinsə, dağlar da gələrdi dilə,
Nərdivan olardı neçə arzuya.
Dağlara səs salan tütəyi ilə
Laylamı çalardı qoyun-quzuya?

Gecə ulduzları yığıb başına
Nağıl danışanda solğun üzlü Ay,
Babam uşaqları yığıb başına
Nağıl söyləməsə, qopardı haray.

Getdikcə qanrılıb baxıram geri,
Ocaq yerlərində çayır göyərmiş.
Hardan bilərdim ki, köhnə yurd yeri
Boyat fikirləri təzələyərmiş?!

**13.07.1974**
**Qubadlı**

## SÖZÜM VAR HƏLƏ

Qış gəlib, qapını çovğun alsa da,
Bizim bağçamızda üzüm var hələ.
Sellər çağlasa da, sular daşsa da,
Mənim bu torpaqda izim var hələ.

Gəl biz də qartala qoşulub uçaq,
Doğmadır bu yerdə mənə hər bucaq,
Dinir bulaq üstə çatdığım ocaq,
Şişlərə ət çəkin, közüm var hələ.

Dedim əmlik alaq, dedi çox oldu,
Guya illər acı gözü tox oldu.
Çobanın verdiyi toğlu yox oldu,
Yenə istəməyə üzüm var hələ.

Dedim: – Var dövlətin sellənir, çoban.
Gördüm bir yamacda şellənir çoban.
Eyhamı anlayıb dillənir çoban:
– Sürüdə çox əmlik quzum var hələ!

Meşələri gəzmək oldu canımdan,
Hər tərəf görünür mənim yanımdan.
Dağdayam, axsa da tər dabanımdan
Zirvəyə qalxmağa dözüm var hələ.

Özümü birtəhər dağa yetirdim,
Güllərin içində sanki itirdim.
Bir gözəl çiçəyi dərib gətirdim,
Yenə də dağlarda gözüm var hələ.

Göydə şəfəqlənir, xumarlanır ay,
Bizə layla çalır aşıb-daşan çay.
Gəlin gətirməyə tələsir Oqtay,
Qabaqda Qorxmaz var, Razim var hələ…

Dəyişmir könlümün coşqun ahəngi,
Sanki şəlalələr çalırdı cəngi.
Heyf ki, qurtardı qələmin rəngi,
Mənim söyləməyə sözüm var hələ…

**14.07.1974**
**Qubadlı**

## BİZİM KƏNDİMİZDƏ

Qapımız, bacamız qalıb başına,
Könlüm sızıldayır yaralı kimi.
Üzümü sürtürəm qəbir daşına
Dağların bir hürkək maralı kimi.

Sinəmdə illərin həyəcanı var,
Ürək doğmaları yada salıbdır.
Bizim kəndimizdə bizdən yadigar
Təkcə babamızın qəbri qalıbdır…

**14.07.1974**
**Çardaxlı**

## QONAQLIQDA

Məclis qurub yenə dostlar,
Nə istəsən süfrədə var.
Sağlıqlardan sağolmuşlar
xumar olub.

Dilə gəldim elə bu vaxt:
Tələsməyin, ay uşaqlar,
Bulud dolub, boşqablara
aş yağacaq…

**14.07.1974**
**Qubadlı**

## TUFAN GÖZLƏYİRƏM

Bilmirəm nə üçün sıxılıram mən,
Adicə sevincdən, adi kədərdən?
Gileyli-gileyli ürək deyinir,
İgid hara çıxsın meydan olmasa?
Dəniz göstərəmməz dənizliyini
Qasırğa olmasa, tufan olmasa.
Mənim qulağıma hərdən çatır ki,
Könlüm bir ilahi insan gözləyir.
Bilmirəm, bildiyim bircə odur ki,
Varlığım qasırğa, tufan gözləyir…

**16.07.1974**
**Qubadlı**

## ZARAFATYANA

Dost məclisi dost qəlbini şad elər,
Bir şey gətir, toqqamızı bərkidək.
Çıxış etsin qoy öpüşən badələr,
İclas qurub söz açmağı tərgidək.

Bu rəsmiyyət qəlbimizi hey əzir,
Süfrəmizdə bir nahamar əl gəzir.
Dayanıbdır şampanımız müntəzir,
Ağzındakı "probka"nı hürküdək.
Tərgitmişəm söyləməyi tərgidək.

Qızıl şərab sanki qızıl qanımız,
Tut arağı şöhrətimiz, şanımız,
Araq bizim ciyərimiz, canımız,
Qızışanda konyaka da ərk edək.

Nərd oynayaq, könül açsın bu taslar,
Səhərəcən qurtararmı bu tostlar?
Yolumuzu gözləyən var, a dostlar,
Daha bəsdir, bu məclisi tərk edək…

## QIZLAR GƏLİN KÖÇƏR…

Toy olsa, daha da şənlənər Bakı,
Qızlar gəlin köçər, dinər "Vağzalı"…
Qızlıqla gəlinlik arasındakı
Müqəddəs körpüyə dönər "Vağzalı"…

Kaş tərgidəydilər bu pis adəti,
Qəlbi ara sözü dələr biz kimi…
Gəlin gələn gündən sözü, söhbəti
Özüylə gətirər bir cehiz kimi…

**19.07.1974**
**Qubadlı**

## TERMOS

Əmanətə xəyanət yoxdu. –
Bunun nəyi pisdi?
Termos ən gözəl əmanətçidi,
Soyuq versən soyuq saxlayar,
İsti versən isti.

**30.07.1974**
**Qubadlı**

## ATAM XƏSTƏLƏNDİ

Özü möhkəm idi, ürəyi kövrək,
Ona qaynayardı hamının qanı.
Atam sağlam idi buz baltası tək,
Yaxına qoymazdı dava-dərmanı.

Eyninə almazdı dumanı, çəni,
Gəzərdi çölləri köhlən atıyla.
Atam sağaldardı neçə xəstəni
Çox zaman öz duzlu zarafatıyla.

İşləri düyünə düşəndə hərdən
Qəlbən ağlasa da, toxtaq olardı.
Kənarda qalmazdı xeyirdən, şərdən,
Hamının dərdinə ortaq olardı.

Xətrinə dəyməzdi bircə adamın,
Heç zaman həkimə düşməzdi işi.
Yaman yaxaladı azar atamı,
Şam kimi əriyir dağ boyda kişi.

Onu yoluxmağa gəlir el-oba,
Bizim qapımıza sanki çay axır.
Gücüm yox bu dərdə bir əlac tapam,
Çəkilmir qapıdan həkim ayağı.

Pozulub o təmkin bilmirəm nədən,
Bütün kənd onunçün olub narahat.
Bir vaxt adamlarla zarafat edən
İndi də azarla edir zarafat…

**05.08.1974**

## ATAMIN XATİRƏSİNƏ

Mənzilin yaxınmış, əzabın uzun,
Getdin, doğmaların beli qırıldı.
Gözlərin qapandı, radiomuzun
Nəğməli dilinə qıfıl vuruldu…

Sən susdun ağaclar yarpaq tökəndə,
Nə yaman tez gəldi ölüm, ay ata?
Sənin gözlərinə torpaq tökəndə
Niyə qurumadı əlim, ay ata?

Gözlərdə parladı yaş ulduz-ulduz,
Hörmət qazanmaq da hünərdi, ata.
Bir yerə yığışsa göz yaşlarımız,
Tabutun qayığa dönərdi, ata.

Nə parlaq çıraqlar sönür dünyada,
Bu işdə acizmiş elm də, ağıl da.
Saxlaya bilmədi səni dünyada
Həyat bəxş etdiyin altı oğul da…

**19.09.1974**

## ABBAS SƏHHƏTƏ

Millət üçün qulağı səsdə olan,
Adı Səhhətkən özü xəstə olan
Görərək xalqımızın zillətini,
Çalışıbdır oyada millətini.
Yaza bilmirsə, – deyib, at qələmi.
Görmək istərdi o, azad qələmi.
Arayıb seçdi həyat lövhələri,
Şeirinə köçdü həyat lövhələri.

Sınığa çarə "Sınıq saz"ı olub,
Hər sözü millət üçün lazım olub.
Səmərə verdi onun gərgin işi,
Doğdu Məşriqdə də "Məğrib günəşi".
Millətin ağ günü amalı olub,
Məsləki tərcümeyi-halı olub.
Öyünüb öz bağının barı ilə,
Səhhət atəşli ürəkdən qopan əşarı ilə
İldırımlar saçaraq fırtına "icad eləyib",
Bu fəlakətdə qalan millətə imdad eləyib.
Gələcək arzulara sərf eləyib boş gününü,
O xəyalında görüb yurdumuzun xoş gününü…

**14.08.1974**

## GÖZƏLLƏRƏ

Bir quş kimi qanad açar,
Gülüşüylə şəfəq saçar.
Mənə baxsa, rəngim qaçar,
Çırtma vursan, qanım çıxar.

Bu həyəcan yetməz sona,
Qabağımda bir cüt sona,
Bilmirəm baxım hansına,
Hansı mənə qənim çıxar?

Götürübdür məni fikir,
Möcüzədir, gülüm, bu ki!
Elə canlar görürəm ki,
Azca qalır canım çıxa.

Bir donu var, ləpə-ləpə,
Gözlərindən sevinc səpər.
O qız məni elə öpə,
Dodağımdan qanım çıxa.

Qısılanda sinəmə sən,
Neyləyərəm bəs onda mən,
Üzdən iraq, təsadüfən
Yandan bizim xanım çıxa!

**16.08.1974**

## NƏĞMƏ

Bir yaşıl yarpaq gördüm
Xəzəllərin içində.
Gözüm tək onu tutdu
Gözəllərin içində.

Ala gözlər can alır,
Qara qaşlar çatmadı.
Əllərimi uzatdım,
Əllərinə çatmadı.

Uçdu göyərçin kimi,
Düşdüm onun dalınca.
Aylar ilə qovuşdu
Ondan cavab alınca.

Onu görən gözlərim
Sübhə qədər yatmadı.
Ondan qeyri gözəllər
Ürəyimə yatmadı.

Gəlib çıxdıq sahilə,
Bizi tufan qovurdu.
Külək ağsaç dalğanı
Başımıza sovurdu.

Niyə bizi küləklər
Dalğalara qatmadı?
Dənizdə tufan yatdı,
Qəlbimizdə yatmadı…

**18.12.1974**

## TƏZƏ MƏNZİL ALDIM

Gündüzə bənzəyir burda gecə də,
Çoxalıb şəhərin yaraşığı da.
Təzə mənzil aldım təzə küçədə,
Artdı dünyamızın bir işığı da.

Könlümdən nə arzu, nə istək sönər,
Aramız dəyibdir yalqızlarınan.
İşığım bir təzə ulduza dönər,
Qarışar dünyanın ulduzlarına…

**1975, yanvar**

## İŞDƏN EVƏ GƏLƏNDƏ

Gözlərimin içinə
Baxdın, kefim duruldu.
Şəfəqləndi gözlərin,
Təbəssümün nur oldu.

Varlığıma yayıldı
O işıq, o nur, balam.
Ay saçları xurmayı,
Gözləri qonur balam…

**22.01.1977**

## YUXUMDA BİR ATA YAŞAR

Yatdığın torpaq da danışar, dinər,
Dönüb şəlaləyə çağladım yenə.
Üzümü söykəyib soyuq qəbrinə,
Gecə səhərəcən ağladım yenə.

Dedin ki, a bala, özünü üzmə,
Dost-düşmən var axı, batmayın qəmə.
Mehriban gözlərin baxdı üzümə,
Ayıldım, gördüyüm yuxuymuş demə…

Ömür köhlənini çapıb getmisən,
Bir qəmli nəğmə var könül tarımda.
Ömrümdən, günümdən
qopub getmisən,
İndi yaşayırsan yuxularımda…

**07.02.1975**

***

Qapının zəngini basdılar
Gecənin yarısı.
Şiddət elədi
ürəyimin ağrısı.
Bir iynə kimi sancıldı
qəlbimə bu səs.

Geyinib paltarımı,
Yüyürdüm tənginəfəs.
Bu vaxtsız qonaq kim ola?
Fikirlər məni çəkdi
sağa, sola.
Bir şey olmasa
gecənin bu vaxtı…
Elə bil başımda
ildırım çaxdı…
Olmasın bəd xəbər.
Qapını açdım birtəhər.
Utana-utana
gülümsədi qonşumuz,
Dedi: – Zəng eləyin
təcili yardıma! –
Hər şey düşdü yadıma.
Yığdım nömrələri
sevinə-sevinə.
Qonşunun arvadını
apardılar
doğum evinə…

**12.02.1975**

## ACI HƏQİQƏT

Neyləyim, belədir işin qaydası,
Otursan ruhunu tənbəllik basar.
Heç kəsə, heç nəyə dəyməz faydası
Mıxın kəlləsində çəkic olmasa…

**13.02.1975**

## SAAT

Əlimdən yerə düşdü,
Saatsaza apardım.
Əlimdə əlac olsa,
Axtarardım, tapardım
Saatmın dərdini.
Xəyala getdi bir az,
Təəssüflə başını
Yırğaladı saatsaz.
Sonra qaytardı geri,
Çarəsi yoxmuş kimi.
Elə bil xərçəng tapdı
Qoca saat həkimi
Mənim bu saatımda.
Toxtaqlıq verdi bir az,
Canın sağ olsun, oğul,
Elə yeri sınıb ki,
O hissəsi tapılmaz.
Saatımın ürəyi
Dayanıbdır deməli
Bir insan ürəyi tək.
Yerinə qoymaq olmur
Daha başqa bir ürək…

**15.02.1975**

## İSTİRAHƏT GÜNÜ

İstəmirəm istirahət gününü mən,
Bazar günü evimizdə
bazar olur,
Yorur bizi gəlib-gedən…

**16.02.1975**

## ATAMIN XATİRƏSİNƏ

Ölüm aldı əlindən bir əvəzsiz qardaşı,
Əridin bir şam kimi, axdı gözünün yaşı.
Dözmədin bu itkiyə, bu matəmə, atacan,
Sənə də qismət oldu axırda məzar daşı.

Ağlamaqdan savayı de, əlimdən nə gələr?
Kaş ki, bütün həsrətim göz yaşına çevrilə.
İstəməzdim sözlərim
həkk olunan bu mərmər
Bir ata məzarının başdaşına çevrilə…

**19.02.1975**

***

Adam əlindən
tərpənmək olmur avtobusda.
Gözlərim gözlərində
tora düşüb elə bil.
Bircə qarış məsafə var aramızda,
Barmağında yanan üzük –
tikanlı məftil…
Ürəyindəki arzunu, istəyi boğma,
Bəlkə axırına daş ata bildik
hicranlı günlərin.
Sən Arazın o tayındakı
insanlar kimi dogma,
Aramızdakı məsafə
Arazın özü kimi dərin…

**24.02.1975**

## QONŞUNUN BİR QIZI VAR

Qonşumun bir qızı var,
Dərdi qəlbimə düşdü.
Gözlərindən qəm yağır,
Ancaq adı Gülüşdü.

Anasının yolunu
Gözləyir neçə aydı.
O gedəndə qış idi,
Gəlməyib, indi yaydı.

Balaca ürəyində
Silinməz bir xatirə.
Anası getmişdi ki,
Ona qaqaş gətirə.

Nə uzun oldu bu yol,
Qəm çəkir qəmli gözü.
Qardaş bir yana qalsın,
Bəs niyə gəlmir özü?!

Bir ananın balası
Gülüş yetim qalıbdır.
Dodağında təbəssüm,
Gülüş yetim qalıbdır.

**28.02.1975**

***

Eşqindir qurtaran məni çətindən,
Sevən ürəyimi oda az qala.
Əllərim əlinin hərarətindən
Alışır az qala, yanır az qala.

**05.03.1975**

## SƏN BAHAR YAĞIŞI, MƏN ÇİÇƏK

Gözlərin gözümdə alışar ulduz tək,
Qəlbimdə məhəbbət dəryalar qədərdi.
Sən bahar yağışı, mən çiçək,
Bu istək hədərdi, bu arzu hədərdi.

Yanımmı gizlicə mən ömrüm uzunu?
Alınmaz qalaya can atır hey ürək.
Ya gərək öldürüm bu dəli arzunu,
Ya məni öldürər bu istək…

**16.05.1975**

## ARASINDA

Ceyran balasıdır, qayğısız, ürkək,
Dərsəm, əllərimdə solar bu çiçək.
Dəli bir sevdaya tutulub ürək,
Mənə nə deyərlər el arasında?

Gözləri şimşəkmi çaxır üstümə,
Həsrət yağışları yağır üstümə,
Odlu bir sel olub axır üstümə,
Bir ada olmuşam sel arasında.

Yanan ürəkləri çapandı gözlər,
Dəryada dürr, inci tapandı gözlər,
Düymələr açıldı, qapandı gözlər,
Su keçməz qol ilə bel arasından.

Çılğın duyğularım gəzər meydanı,
Pozar neçə səddi, neçə qaydanı,
Sözünü dinləyib dəli şeytanın
Həsrətli qolların öl arasında.

O öz istəyinə çatıbdır bu gün,
Halaldır qanı da axsa bülbülün,
Bu səhər şehidir, yoxsa bülbülün
Qanlı göz yaşıdır gül arasında?

**19.05.1975**

***

Yenə meydan oxudular
Qızılgülün butasına.
Düşdü yenə dəli könül
Həsrət gözün xatasına.

**17.06.1975**

## QIZILGÜLÜM

Hər ləçəyin bir qığılcım,
Kərəm kimi külə dönüm.
Səninlə keçən hər günüm,
Qızıl günüm,
Qızılgülüm…

Yar ürəyin yar alar,
Gəl ocağa çat məni.
Tikanınla yarala,
Ətrinlə sağalt məni.

O qayğısız günlərimə
Öz əlimlə daş ataram.
Mən öz bahar nəfəsimlə
Səni qışda yaşadaram.
Çovğun olsa, gəl sinəmə
Qısıl, gülüm,
Qızılgülüm…

Yar ürəyin yar alar,
Gəl ocağa çat məni.
Tikanınla yarala,
Ətrinlə sağalt məni.

Nəfəsimiz gülüstanda
Bir ətirli mehə dönsün.
Gəl görüşək, göz yaşlarım
Ləçəyində şehə dönsün.
Şəfəq olub varlığıma
Süzül, gülüm,
Qızılgülüm.

Yar ürəyin yar alar,
Gəl ocağa çat məni.
Tikanınla yarala,
Ətrinlə sağalt məni.

**17.06.1975**

## KÖNLÜMÜ

Yarın firqətində, fərağında gəz
Hicran günlərini sayan könlümü.
Bir dünya yığılsa susdura bilməz,
Bir qızın telinə uyan könlümü.

Məhəbbət yolları kəsəkdi, daşdı,
Gördüm gözlərini, kükrədim, daşdım.
Soyuq bir baxışla, a qara qaşlı,
Daşlara çırparsan dayan, könlümü.

Bağ saldım, özgəyə qismətmiş barı,
Uçdu dövrəsinə çəkdiyim barı.
Duyğusuz əlinə verməyin barı
Anlayan könlümü, duyan könlümü.

Sevdalı başımı duman, çən aldı,
Həsrətli qollarım asıla qaldı.
Doğmalar, əzizlər nə günə saldı
Doğmaya, əzizə həyan könlümü?!

**09.07.1975**
**Qubadlı**

## MUSA QUBADLININ XATİRƏSİNƏ

Göstərməmiş bir hünər,
Öldü bir cavan əsgər.
Nəymiş bu qara xəbər? –
Dost-tanış batdı yasa.

Bir səməndər quşu tək
Oda girəydin gərək…
El üçün vuran ürək
İnanmıram heç susa.

Hərdən görünür yerin,
Yazardın şirin-şirin…
Alovlu bir şairin
Ürəyi döndü buza.

Bağrı dönübdür qana,
Qalıbdır yana-yana.
Qayıda, ağsaç ana
Onu bağrına basa.

Qıymadılar yaşına,
Nələr gəldi başına?!
Dönüb Musa quşuna
Kəndə qayıtdı Musa…

**24.07.1975**
**Qubadlı**

## 30 İYUL

Yetdi sona söylədiyim bir nağıl,
Dünyaya göz açdı kiçik bir oğul.

Əl-qolunu hey ataraq ağladı,
Bir qürur hissi sel olub çağladı…

Zülmət içində alışan nurdumu?
Bir kişisi artdı mənim yurdumun…

**30.07.1975**
**Qubadlı**

## AY MƏNİM GÜNDÜZ BALAM

Necə bəxtiyarıq biz,
Çay idik, olduq dəniz.
Gəlişinlə gecəmiz
Olubdur gündüz, balam,
Ay mənim Gündüz balam!

Götür-qoy et dərindən,
Hər işi gör yerində,
Yurdumun göylərində
Qanad açıb süz, balam,
Ay mənim Gündüz balam!

Sev muğamı, cəngini,
Tarın xoş ahəngini,
Güllərin qəşəngini
Öz əlinlə üz, balam,
Ay mənim Gündüz balam!

Vətən eşqi sənin də
Çağlasın bədənində.
Düşmənlərin önündə
Heç vaxt çökmə diz, balam,
Ay mənim Gündüz balam!

Qorxma qardan, borandan,
Dağda ol, ya aranda.
Öyünüm ki, hər yanda
Olub əhdi düz balam,
Ay mənim Gündüz balam!

***

Arzu o arzu deyil,
Ürək o ürək deyil.
Noğul olub tökülür
Ulduzlar da elə bil
Sənə oğul deyəndə…

**31.07.1975**
**Qubadlı**

***

Qoy şeirsiz olmasın ömrüm-günüm bir an da,
Qeyzə gəlib salmasın haray-həşir gözəllər.
Gül üzləri düşünüb hərdən şeir yazanda
Gözlərimdə daha da gözəlləşir gözəllər…

**04.08.1975**

## İŞIQÇI QIZ

Sönmüşdü işığımız, gəldi bir montyor qız,
İşi salıb qaydaya baxdı mənə qürurla.
Əlləri otağımı, məhəbbəti qəlbimi
Nurla doldurdu, nurla…

**04.08.1975**

## ZARAFAT

Heyvərə bir qız idin,
Məhəl qomazdım sənə,
Kitab kimi düz idi
İndi qabaran sinən.
Ağlım çıxdı başımdan,
Gördüm səni bu axşam.
Ya sən gözəlləşmisən,
Ya mən dəli olmuşam…

**04.08.1975**

## "LALƏ" QIZLAR

Yurdumun düzlərində
Nə qədər gül açıbdır.
Dostlar, gözünüz aydın,
Lalələr dil açıbdır.

Üzlərə bax, təzə-tər,
Baxdım, bağrım söküldü.
Ləçək üstdəki şehlər
Nəğmə olub töküldü…

**04.08.1975**

## SARI SIRĞA

Taxdı qulağına Ay sarı sırğa,
Vuruldum hüsnünə, ay sarı sırğa!

Özümdə deyiləm, ay qız, dünəndən,
Mən dinməz olmuşam könlüm dinəndən.
Şəkər dodağından, meydan sinəndən
Ürəyim istəyir pay, sarı sırğa.

Həsrət qollarımı boynuna salam,
Qara bulud kimi boşalam, dolam,
Bircə gecəliyə mehmanın olam,
Mənə dəmləyəsən çay, sarı sırğa.

Kükrəyib sel oldu yağışlarımız,
Düzənə çevrildi yoxuşlarımız,
Körpüyə dönübsə baxışlarımız
Bizə neyləyəcək çay, sarı sırğa?

Zirvəyə çıxanda yel xəbər tutar,
Dərədə gizlənsək, sel xəbər tutar,
Oba xəbər tutar, el xəbər tutar,
Taxma qulağına “tay” sarı sırğa!

**05.08.1975**

## MƏNİMDİ

Boğub sinəmdəki qara-qorxunu,
Titrək əllərinə necə toxunum?
Baxışın, duruşun, o boy-buxunun,
Üstündə xal olan çənən mənimdi.

Elə bil toxundum bir sarı simə,
Köklənib, mizraba həsrətmiş demə,
Sirrimi faş edib yayma aləmə,
Köksümü göynədən sinən mənimdi…

Gözəldən nə ürək, nə də göz doyar,
Şairin sözündən küsmə, ey nigar.
Bütün dünyadakı gözəllər ki var,
Cismən özgənindi, mənən mənimdi…

**05.08.1975**

## QIZIM

Mənim tükənməz eşqimi
İsidir bir atəş kimi.
Yeriyəndə günəş kimi
Üstümə nur salar qızım.

Öpüm vətən güllərini
Üzən toppuş əllərini.
Ürəyimin tellərini
Baxışıyla çalar qızım.

Uzaq olsun qəmdən, dərddən,
Şirin olar dili qənddən.
Yaranıbsa məhəbbətdən,
Məhəbbətsiz solar qızım.

**06.08.1975**

## GÜLDÜ…

Evdə elə bil solub çiçəklər,
Dərd-qəm yuvası olub ürəklər.

Güldü, sevinib çiçəklər açdı,
Güldü, hamının dodağı qaçdı.

Ey qüssə-kədər, yaxamdan əl çək!
Güldü, gülüşü bir odlu şimşək…

Körpəm elə bil qanadlı quşdu,
Qaçdı, ürəyim sevincdən uçdu…

**11.08.1975**

***

Gözəllik aşiqinə
Gözəllər göz dağımı?
O alovlu baxışlar
Çıxardır cızdağımı…

**13.08.1975**

## UZUN DON

Uzun don geyinmisən,
Ayağınla sürünür.
Sənin uca qamətin
Necə qəşəng görünür…

Çıxarma bu donunu
Qorxub sözdən-həkətdən.
Gen paltar içindədi
Xeyir də, bərəkət də…

**15.08.1975**

## BİLMƏZDİM Kİ…

Necə oldu gözlərim
Bir gözələ sataşdı?
Elə bil günəş idi,
Baxdım, gözüm qamaşdı.
Yapışsaydım əlindən,
Ürək sevinc tapardı.
Baxışların selindən
Onu güclə qopardım.
Gülümsədi, qəlbimdə
Çiçək açdı məhəbbət.
Taleyimə, ömrümə
Ətir saçdı məhəbbət.
Bilməzdim ki, ürəklər
Bir səmimi baxışla
Qanadlanıb uçarmış.
Bilməzdim ki, səhrada
Əlvan güllər açarmış…

**15.08.1975**

***

Eşqim bilirəm ki, qəlbinə dolub,
Sənin ürəyində yaşayıram mən.
Qorxuram axırda göz yaşı olub,
Süzüləm müqəddəs kirpiklərindən.

**15.08.1975**

***

Gözlərim gözünə həsrət qalmışdı,
Eşqin dağlarını duman almışdı,
Birdən gözlərimə baxıb qımışdın,
Gözüm şəfəqləndi, qəlbim duruldu.

Ürək sevinəndə gözlər gülümsər,
Görüşdük, vaxtımız getmədi hədər,
Dayandıq üz-üzə axşama qədər,
Nə ürək yoruldu, nə göz yoruldu.

Getdin, söhbətimiz qaldı yarıda,
Mənim ürəyimi bu dərd ağrıdar.
Kədərdən yaranan göz yaşları da
Sevimli gözlərdə gəlib nur oldu.

**15.08.1975**

***

Mənim baxışlarım bir quşa dönər,
Uçub gözəllərin gözünə qonar.
Dünyada gözəllər olmasa əgər,
İlhamım üşüyər, ilhamım donar…

**15.08.1975**

## YOX, MƏN QOCALMIRAM

Şəfqətli gözlərdə həyat qaynayır,
Daha büllurdan da təmiz olmuşam.
Körpə balalarım qaçır, oynayır,
Sevincdən kükrəyən dəniz olmuşam.

Sinəmdə çağlayan sonsuz məhəbbət
Mənim dövlətimdi, mənim varımdı.
Coşqun, fırtınalı dənizəm, fəqət
Mənim dalğalarım balalarımdı…

Zaman üz-gözümə salır naxışlar,
Qaynar cavanlığım demə ki, itir.
Dənizin üzünə düşən qırışlar,
Əzizim, cavanlıq əlamətidir…

**15.08.1975**

## GETDİN

Mənimlə görüşəndə
Qəlbin sevinc tapardı.
Qısılaraq sinəmə
Gözlərini qapardın.

Məhəbbətdən yaranan
Müqəddəs nur da söndü.
Çıxıb getdin, ürəyim
El köçən yurda döndü.

Getdin, arzularımı
Talan etdin, apardın.
Gəldin, köhnə yaramın
Qaysağını qopardın…

**16.08.1975**

## SƏMƏNDƏR KİMİ

Qurban olum Tanrıya,
Məni odlara atdı.
Səni gözəl yaradıb,
Məni şair yaratdı…

Ümidimi üzmədim,
Taleyimdən küsmədim.
Hicran imiş qismətim –
Eh, bu da bir həyatdı?!

Qara buludlar kimi
Boşalıram, doluram.
Nə oddan qurtarıram,
Nə yanıb kül oluram…

**16.08.1975**

## QIZIMA

Boynumu qucaqlayan
Toppuş qolların hanı?
Yəqin şıltaqlığınla
İncidirsən ananı.

Baxışlarım yoldadı,
Könlüm yenə dolubdur.
Öpüşünün bal dadı
Dodağımda qalıbdır.

Darıxıram, ay qızım,
De, necə rahat yatar
Öz doğma övladından
Ayrı düşən bir ata?

**16.08.1975**

## QIZIMA

Qışda şaxtaya dönüb
Üzündən öpərəm mən.
Qəşəng çiçəklər açar
Hər öpüşün yerindən…

**17.08.1975**

## ÜRƏYİM AĞRIYIRSA

Qəlbimdəki yaralar
Elə bilmə köhnədir.
Onlar məni ağrıdır,
Onlar məni göynədir.

Həyatdan bezdiyimi
Söyləsəm, doğru olmaz.
Əzizim, ölülərin
Qəlbində ağrı olmaz.

Bəxtiyaram, kimsədən
Ummayıram kömək mən.
Ürəyim ağrıyırsa,
Yaşayıram demək mən..

**17.08.1975**

***

Deyirsən qovuşmarıq –
Yanağında göz yaşı:
Dəmir yol xətləri tək
Gediriksə yanaşı.

Neyləyək, qismətimiz
Belə yazılıb bizim.
Üstümüzdən keçəndə
Məhəbbət qatarları
Birləşərik, əzizim…

**17.08.1975**

***

Qayğısız çağlarımı
Baxışınla doğra, kəs.
Hər şeyə biganəyəm,
Kövrəldə bilmir heç kəs –
Ürəyim daşdır mənim.

Səhra ol, çovğun olum,
Od ol, alovun olum,
Ovçu ol, ovun olum,
Bərədə çaşdır məni.

Çəmən olum, ol külək,
Saçlarıma sığal çək.
Bahar yağışları tək
Coşdurub daşdır məni.

Sinəmdən ağrı qopa,
Qəlbim həzinlik tapa,
Görə bütün el-oba
Gözlərim yaşdır mənim…

**17.08.1975**

***

Əbədi sakin oldun
Mənim ürəyimdə sən.
Ölümümdən qorxmuram,
Qorxuram mən öləndə,
Gülüm, sən də öləsən…

**24.08.1975**

## İKİ QƏPİKLİK SÖHBƏT

Ciblərimi axtarıb
Tapdım iki qəpiklik.
Avtomat telefona
Saldım onu tələsik.
Yığdım tanış nömrəni,
Heyrət bürüdü məni.

Sözləri quru, rəsmi,
Görəsən bu o səsmi?
Dilxor olub dəstəyi
Yerə qoydum nəhayət.
Görən iki qəpiyə
Dəyərdimi bu söhbət?

**20.08.1975**

## VAĞZALDA DÜŞÜNCƏ

Düşünürəm, vağzalın
Qəribə görkəmi var.
Dolu gəlir qatarlar,
Dolu gedir qatarlar.

Burda hamı kövrəkdi,
Sən də kövrək ol barı!
Vağzal sanki ürəkdir,
Qatarlar qan damarı…

Vaqonların içində
Gör nə qədər insan var.
Bu polad damarlarda
Sanki qandır insanlar.

**28.08.1975**

***

Əllərimdə əllərinin istisi,
Gözlərimdə gözlərinin qarası.
Kor elədi məni hicran tüstüsü
Harda qaldın, ciyərimin parası?

Yollarına divanə tək baxmışam,
Ayaq üstdə üzülürəm, əzizim.
Misra-misra əriyərək hər axşam
Varaqlara süzülürəm, əzizim.

Şəhər yatıb, kəsilibdir səs-səmir,
Elə bilmə, mən də rahat yatmışam.
Pəncərədən baxışımı tor kimi
Sən gəzdiyin küçələrə atmışam…

**27.09.1975**

***

Göy çəməndə gül daşır,
Qalxıb örtüb gül daşı.
Sən də gəl, qucaq-qucaq
Evinizə gül daşı…

**07.10.1975**

## ATA ARZUSU

Biz quluq övladın
hər şıltaq əmrinə,
Açılan çiçəklər
vədəsiz solmasın.
Bir ata gözləri
bir övlad ömrünə
Son nöqtə olmasın…

## ÖMÜR YOLDAŞIMA

Günahım nədir ki,
Günahsız bir gözəl
Sevir məni.
Günahım var isə,
Balanın başına
Çevir məni…

**11.10.1975**

## LOLİTA HAQQINDA NƏĞMƏ

İçin-için yanıram,
Səni xoşbəxt sanıram,
Gözlərini anıram
Söykənib bir palıda,
Lolita.

Yağış süzülür dən-dən,
Unuda bilmirəm mən
Üzünə bəzək verən
O  xırdaca xalı da,
Lolita.

Seyr edirəm çəməni,
Sevirsənmi de, məni?
Gözləyəcəyəm səni
Döysə məni yağış da,
Döysə məni dolu da,
Lolita.

Xəzan yeli əsibdir,
Sona göldən küsübdür,
Yaş fərqimiz kəsibdir
Aradakı yolu da,
Lolita.

Keçdi vüsallı günlər,
Hicrana da sinə gər.
Sevməsydin sən əgər
Ayrılanda gözlərin
Dolardımı buluda –
Lolita?

**18.10.1975**

## ƏNTİQƏDİR

Kösövlər də alışır,
Elə ki, o danışır,
Ürək kükrəyir, daşır –
Səsi də əntiqədir,
Sözü də əntiqədir.

Gülüşündən nur yağır,
Gözündən qürur yağır,
Dönüb maral tək baxır –
Qaşı da əntiqədir,
Gözü də əntiqədir.

Boğub qara-qorxunu,
Ona necə toxunum?
Duruşu, boy-buxunu,
Adı də Əntiqədir,
Özü də əntiqədir…

**30.10.1975**

## TƏMƏNNASIZ MƏHƏBBƏT

Görüşdük
Oktyabrın sonuncu
dayanacağında.
Ürəyin od tutub yanırdı
yanağında.
Danışırdın, ancaq
Eşidə bilmirdim sözlərini.
Baxışlarımla açırdım
Ürəyinin düymələri
olan gözlərini…
Adımı gizlicə
əzizləyirmişsən ürəyində.
Məni özümdən də
gizləyirmişsən ürəyində…

**31.10.1975**

## İKİ MAŞIN

Yaşıl işıq yanır yolda,
Sür, qardaşım, yol açıqdı!
İkisi də eyni gündə yaranmışdı,
İkisi də eyni gündə yola çıxdı.
İnsan kimi ömr eləyir maşın da.
Eyni gündəxarab oldu ikisi də,
Biri yolun yarısında,
Biri mənzil başında.
İndi biz bu maşınlara,
Söylə, qardaş,
Nə haqq ilə
deyək həmyaş?!

**02.11.1975**

***

Mənim şəvə saçlarım
dönüb oldu qar kimi,
Dəyişmədim arzumu,
dəyişmədim yolumu.
O qara saçlarımı,
bükülməz qamətimi,
O nəmli gözlərimi,
o qüvvətli qolumu
Bilmədim ki, mən haçan,
Dəyişib ağıl ilə
Oldum müdrik bir qoca.

**04.11.1975**

## DEYİRSƏN Kİ…

**Həkim İzzət Sadıqova**

Zarafatın bir anda yuyur kədəri, qəmi,
Ona görə çoxları sənin ilə dost olub.
Həkim, ovda atdığın sərrast güllələr kimi
Xəstəliyə atdığın güllə də sərrast olub.

Həyata qayıdıbdır əlinlə neçə insan,
Sənin arzuların da ruh gətirib insana.
Deyirsən ki, həkimlə dost ol,
ancaq heç zaman
işin düşməsin ona…

**06.11.1975**

***

Tuş gəlsən bir gözələ
Gözünün içinə bax.
Mümkünmü gözəlliyə,
Gülüm, əsir olmamaq?

Gözümə işıq gəlir
Səni görcək elə bil.
Bilirəm ki, bu sevda
Baş tutan sevda deyil.

Yanıram için-için
Görəndə hərdən səni.
Sevmirəm özüm üçün
Sənin üçün sevirəm
mən səni…

**08.11.1975**

## SUBAYLIQ SOLTANLIQDIR

"Subaylıq sultanlıqdır" –
Deyirsən nahaq yerə.
Ata oldum, sevincim
Sığmadı, göyə, yerə.
O sərsəri günlərə
Bir də yaxın düşmərəm.
Qızımın qaça-qaça
Yanıma gəlməsini,
Dodaqlarından qopan
Bir ata kəlməsini
Subaylığın ən əziz
Gününə dəyişmərəm.

Sən öz sərbəstliyinlə
Mənə yandıq verməgəl.
O subay sultanlıqdan
Evli qul olmaq gözəl…

**11.11.1975**

## TƏLƏSİRƏM MƏN

Bir yerdə duranda darıxıram mən,
Həyat adamına dinclik qəhətdir.
Deyirsən: –Ay qardaş, nə tələsirsən,
Gecikən hər an da bir qənimətdir.

Eh, nələr olmayır axı bir anda,
Zaman elə bil ki, köçəri quşdur.
Sürət övladıyam, saatımın da
Özü yel qanadlı, adı "Uçuş"dur…

Arzular ürəkdə quş kimi səkir,
Sözlərin üstündə hey əsirəm mən.
Dünyadan getməyə tələsmirəm ki,
Görüb-götürməyə tələsirəm mən…

**22.11.1975**

## SƏNİN İKİ YAŞIN

Sən doğulan günü unutmaq olmaz,
O gün sevincimə qanad vermisən.
Ay qızım, iki qış, iki güllü yaz,
İki yay, iki də payız görmüsən…

İlk dəfə dil açıb danışanda sən
Bizim qəlbimizə sevinc dolubdur.
Axı nə gizləyək, səninlə keçən
İki qışımız da bahar olubdur.

Atan bir tərəfdə köks ötürübdür,
Elə bil soyuyub bu ev, bu eşik.
Anan kirpiyiylə od götürübdür, –
Sən xəstə olanda nələr çəkmişik?!

Sənə göz qoyuram mən oğrun-oğrun,
Demə ata qəlbi daşa dönübdür.
Sənin hər sızıltın, sənin hər ağrın
Ananın gözündə yaşa dönübdür.

Nə yaman tez gəldi, qızım, iki il?!
Arzumu görürəm qara gözündə.
Axı təkcə sənin ad günün deyil,
Bu gün ad günüdür eşqimizin də?!

Doğulduğun günü unutmaq olmaz,
O gün sevincimə qanad vermisən.
Ay qızım, iki qış, iki güllü yaz,
İki yay, iki də payız görmüsən…

**28.11. 1975**

## AVTOBUSDA

Oturmuşduq çiyin-çiyinə,
yan-yana.
Baxırdıq bir-birimizə
oğrun-oğrun, yana-yana…
Saçların yandırırdı üzümü,

Sirli bir aləmdə
hiss edirdim özümü…
Bizi doğma bilirdilər,
Tanış da deyildik hələ.
Cavanlar baxırdılar
mənə qibtə ilə.
Süzürdü bizi
bir qoca qarı da.
Nə deyim bu sürücüyə,
Nə deyim bu maşina:
Nə tez çatdıq mənzil başına?
Sən düşüb o yana getdin,
Mən düşüb bu yana…
Baxışlardan aydınca oxuyurdum:
Bunlar ki, tanış deyil?!
Küçə ilə fikirli-fikirli gedirdim,
Bir tərəfim yox idi elə bil…

**29.11.1975**

***

Su içində bitən adi bir qarğı
Sənətkar əlində tütəyə dönür.
Toyuğa, cücəyə şığıyan qırğı
Qartalı görəndə cücəyə dönür…

**01.12.1975**

## ZARAFAT

Dedin ki, oxumağa
Bir şeir var, dur gedək.
Sevincdən az qaldı ki,
Sinəmdən qopsun ürək.

Dedim bəs bir gözəl qız
Göstərəcək o, mənə.
Bir zəif şeir oxudu,
Ay dost, nə deyim sənə!

**01.12.1975**

## DAŞBULAQLI GÖZƏLƏ

Sularına bir əks düşdü,
Kükrə bulaq, daş, bulaq.
Gözəlliklər məskənidir
Sən doğulan Daşbulaq.

O insan heç insan deyil
Gözlərindən yaş axmır.
Nə yaxşı ki, Daşbulaqdan
Gözəl axır, daş axmır…

**03.12.1975**

## XALQIN TƏBRİKİ

**Xalq yazıçısı Süleyman Rəhimovun Sosialist Əməyi Qəhrəmanı adı alması münasibətilə**

Səngərin qoynunda dünyaya gəldin,
Özün də ucaldın bir səngər kimi.
Özgənin dərdini öz dərdin bildin,
Çarpışdın, vuruşdun bir əsgər kimi.

Sevinci sığmayır yerə yurdumun,
Onunku deyilmi bu şərəf, bu şan?
Mənim söz ordumun, sənət ordumun
Sən axı ilk əmək qəhrəmanısan!

Buludlar düzülüb bax, cərgə-cərgə,
Uç, uç, qoca qartal, yoruldum demə!
Səngər dağını da özünlə birgə
Qaldırıb tanıtdın bütün aləmə.

Xalqımın nuru var iti gözündə,
Elin hikmətləri qəlbinə dolub.
Sənin "Medalyon"un nəsrimizin də
Boynunda qiymətli medalyon olub.

Kəpəzin qoynuna uçub xəyalım,
Ürəyim səni də Kəpəz sanıbdır.
Bir sənət dağısan, "Qafqaz qartalı"
Sənin ürəyindən pərvazlanıbdır.

Qarşımda kitablar çıxıram yola
Ömrümün bu qaynar çağlarında mən.
Bacım Rüxsarəylə girib qol-qola
Gəzirəm "Ağbulaq dağlarında" mən.

Sənət gülşənindən gül üzə-üzə
Getdikcə gördüm ki, dəyişir halım.
Şair Ərəstunla gəldim üz-üzə,
Dindi şeirimizin ağsaç qartalı.

Hər sözü toxundu sarı bir simə,
Dedi: – Sənətkarı yaxşı tanı sən!
Mütləq, cavan oğlan, mənim yerimə
Gedib təbrik elə Süleymanı sən!

Layiqdir alqışa yaradan insan,
Gəldi qaçaq Nəbi, gəldi qoç Həcər.
Gəldi Qoşqar qızı, gəldi Məhtaban,
Gəldi Fərzəli də belində xəncər…

Yoxdur bu sevincin əvvəli, sonu,
Sənətkar ürəyi nurlu məşəldi.
Doğma balasını, doğma oğlunu
Bütün Azərbaycan təbrikə gəldi…

**05.12.1975**

## BIĞ

Dədə Qorqud, Koroğlu
Deyir: – Mənim babamdı.
Sifətinə baxırsan,
Elə bil ki, qabandı.
İstəyir ki, danışsın
Babaların diliylə.
Kimi bığla oxşadır
Özünü Koroğluya,
Kimi də əməliylə…

**10.12.1975**

## İKİ ÇAY KİMİ

Keçib neçə əsr, neçə qərinə,
Kür ürək sözünü çöllərə yazdı.
İki çay qovuşub biri-birinə,
Seç görüm hansı Kür, hansı Arazdı?

Oğlum bir günəşdir, qızım ay kimi,
Onlarsız ömrümüz çil-çıraq olmaz.
Biz ki qovuşmuşuq iki çay kimi,
Daha suyumuzu ayırmaq olmaz…

**10.12.1975**

## TƏYYARƏÇİ

Vətən göylərində süzmək nə xoşdu,
Bir də görürsən ki, göylər gurlayır.
Məndən aşağıda leysan yağışdı,
Məndən yuxarıda günəş parlayır…

Sanki rəqs eləyir şən-şən buludlar,
Mənə nəğmə deyir Vətən yelləri.
Döşəyim – səmanı örtən buludlar,
Yorğanım – günəşin ılıq telləri.

Demə ki, göylərdə var ayrı qanun,
Yerin səmalara axan sözüyəm.
Təyyarə qartaldı, mən isə onun
Vuran ürəyiyəm, görən gözüyəm.

Yoxdur yüksələndə yolumu kəsən,
Əngin üfüqlərə can atır ürək.
Yeri bütövlükdə görmək istəsən,
Bu sonsuz göylərə qalxasan gərək…

Səmada ürəyim olur bir dəniz,
Vəsf et yer oğlunun sədaqətini.
Qoynunda o qədər hiss etmirik biz
Vətən torpağının əzəmətini…

**14.12.1975**

***

Sən necə uzaqsan, necə yaxınsan,
Ürəyim qopacaq sanki yerindən.
Sanırdım əlinə əlim toxunsa,
Dünya çevriləcək öz mehvərindən.

Ürəyim çırpındı, əllərim əsdi,
Köksün az qaldı ki, deşə köynəyi.
Ömrün sonunacan mənimçün bəsdi,
Titrək barmaqların şirin göynəyi…

## BİR LƏÇƏK

Hələ qoxlanmamış təzə çiçəksən,
Nə qədər əzizdir tər çiçək mənə!
Yenəmi görüşə gəlməyəcəksən,
Rəqiblər yenəmi güləcək mənə?

Ayrılsaq, gözlərin dolmayacaqmı?
Açılan nə vaxtsa solmayacaqmı?
Qismət olacaqmı, olmayacaqmı
O gül dodaqlardan bir ləçək mənə?

**17.12.1975**

***

Sənsizliyin dəhşəti yadıma düşür hərdən,
Yenə gəldi ayrılıq, bilmirəm heç neyləyim!
Adam var ayrılan tək unuduram onu mən,
Adam var ayrılanda gizildəyir ürəyim…

Sədaqəti, ilqarı saf-çürük edib insan,
Ayrılıq günlərində bir də sınasın gərək.
Məhəbbət ölçüsüdür bu ağrı, bu həyəcan,
Nə qədər göynəyirsə, o qədər sevir ürək…

**19.12.1975**

## ÇİMƏRLİKDƏ

Hər gözəl bir od oldu,
Gizli alışdıq, yandıq
Duyğuların əlində.
Əvvəl çimdik dənizdə,
Bir azdan qurulandıq
Şəfəqlərin selində…

***

Gəlmişdi çimərliyə
Yansın bir zərif çiçək.
Günəş onu yandırmadı,
O məni yandıran tək…

***

Sahildədir, bir divanə
Gözləriylə yeyir onu.
Suya girir, şən ləpələr
O gözəlin olur donu.

**1975**

***

Axar çimərliyə gəlinlər, qızlar,
Sahili al-əlvan çiçəklər bəzər.
Gecə də deyil ki, deyəm ulduzlar
Soyunub hamısı girib dənizə…

O kimdir qıy vurdu bir qağayı tək?
O kimdir qumların üstündə qaçan?
Bir su sonasıdır sanki o çiçək,
Çimir gün çıxandan gün batanacan…

Dənizə məhəbbət tükənən deyil,
Nazlı gözəllərin sevən çağıdır.
Bunlar qız deyillər, vallah, elə bil
Hərəsi günəşin bir saçağıdır…

**1975**

## POÇTALYONA MƏKTUB

Ümidim şüşədir, qorxuram sına,
Səni gözləyirəm, çırpınır ürək.
Bir məktub atmışam poçt qutusuna,
Durub gözləyirəm Novruzəli tək…

Sizin idarəyə baxmışam hərdən,
Neyləyim, qəlbimə qulaq asmışam.
A poçtalyon xanım, bu məktubu mən
Əlim əsə-əsə sənə yazmışam.

Alışan bir könül çətin ki, susa,
Hər sözüm salacaq köz ürəyinə.
Mənim məktubumu, zəhmət olmasa,
Açıb oxuyarsan öz ürəyinə…

Deyəsən oxudun, üzün qızardı,
Dedin: – Bu məktubu kim yazıb axı?
Hələ yarımçıqdır, bəs hanı ardı?
–Ardını intizar gözümdən oxu…

**05.01.1976**

## BİR GÜNLÜK BAHAR

–Görürsənmi çöllər, düzlər batıb zərə,
Şaxta yoxdur, çovğün yoxdur bu gün niyə?
–Eşqimizin ad günüdür, ona görə
Qış özü də bahar olub bir günlüyə…

**11.01.1976**

## UŞAQLIQ XATİRƏLƏRİNDƏN

Kəndimizin qışı düşür yadıma
Ən şirin, ən əziz bir xatirə tək.
Hansı at çatardı "kəhər atıma"? –
Yel kimi gedərdi altımda xizək.

Şəfəqlər altında bərq vurardı qar
Gecələr ulduzlar parlayan kimi.
Dovşan ləpirinə düşüb o vaxtlar
Özüm də qaçardım bir dovşan kimi…

Özgə bir aləmi var idi qışın,
Ağ libas geyərdi dağlar, dərələr.
Quyruğundan tutub təpəl camışın
Azmı sürüşmüşdüm bulağa qədər?

Doğma kənd… Quş kimi çırpınır ürək,
Qohumlar, tanışlar bürüyür məni.
Ötən xatirələr təpəl camış tək
Qısraq bulağına sürüyür məni…

Səsini suların səsinə qatıb,
Burda özgə uşaq oynayır indi.
Bu nədir, bulağın bir gözü batıb,
Suyu təzə gözdən qaynayır indi…

Elə bil dağların gözü yol çəkir,
Gedən də, gələn də bu dağlarındı.
Bulağın quruyan gözü bizimki,
Qaynayan indiki uşaqlarındı…

Qışın sazağımı canıma hopmuş?
Yenə axtarıram öz gəncliyimi. –
Suvağı tökülmüş, çəpəri qopmuş
Pərişan görkəmli evimiz kimi.

Dinir uşaqlığım, ağlama, kiri,
Sənin kədərinə ortaq olaram…
Əlimdən alsalar xatirələri
Yarpağı tökülmüş budaq olaram…

**16.01.1976**

***

Ürəyimi məst edir saçlarının qoxusu,
Qaçaq düşüb yenə də gözlərimin yuxusu.
Gəzdir baxışlarını intizar gözlərimdə,
Sevincdən dilsiz ürək dilə gəlsin, oxusun…

**23.01.1976**

## SƏMƏD VURĞUNA

Sanki dil açacaq vüqarlı dağlar,
Xəzanım bahara dönəcək indi.
Mənə elə gəlir çaylar, bulaqlar
Daşlar da şeirlə dinəcək indi.

Elə bil ürək də quş olub bu gün,
Çırpınır, istəyir uça dağlara.
Vurğun nəğməsinə qoşulub bu gün
Çıxmaq istəyirəm uca dağlara…

Hər kəlmən, hər sözün dillər əzbəri,
Sözlərin oduna ürək isinsin.
Yanında kimsənin varmı hünəri
Şeirlə danışsın, şeirlə dinsin?

Alışan bir ürək çətin ki, sönə,
Sönmüşlər bu oddan hey od götürdü.
Bahar təravətli nəğmələr yenə
Bizim qəlbimizə bahar gətirdi.

Sevən ürəyimiz nəğməylə doldu,
Su içdik bulağın qaynar gözündən.
Sənin şeirlərin bələdçi oldu
Keçdik Mil düzündən,
Muğan düzündən.

Şimşəkli gözündən nur yağa-yağa
Söz qoşdun həyata, sevgiyə dair.
Qalxdı nəfəsindən dağlar ayağa,
Dindirdi könlümü rübabın, şair!

Oldun sevimlisi bütün aləmin,
Əkdiyin çiçəklər solmayacaqdır.
Sən and içmişdin ki, bir də qələmin
Gözəllərdən ilham almayacaqdır.

Məhəbbət can verər torpağa, daşa,
Pozdurdu andını o ala gözlər.
“Bir cüt ulduz kimi verib baş-başa
Yanıb şölə salcaq cəmala gözlər”…

Sənin sevən qəlbin duyuram ki, mən
Həmişə alışıb odlar içində.
Yadlar məclisinə getdim xəyalən,
Necə vüqarlıydın yadlar içində!

Gördüm söz köhlənin gəlib cövlana,
Gümüş tellərini dağıdır külək.
Düşmən kəc baxanda Azərbaycana
Mərmiyə çevrildi sinəndə ürək…

Bu ölməz sənətə alqış, Vurğunum,
Vətən torpağını sən tək gəzmirik.
Nə olar, dil açıb danış, Vurğunum,
Heç yana, heç yerə biz tələsmirik!

Saçların darıxıb buludlar üçün,
Heykələ çevrilib sən ucalmısan.
Əlli yaş nədi ki, sənətkar üçün,
Ay şair, nə yaman tez qocalmısan?

Alqış qəhrəmana, qəhrəmanlığa,
Nələr yaranmadı sənin əlinlə!
Qalxaydın torpaqdan bircə anlığa,
Üz-üzə gələydin öz heykəlinlə!

Yox, sən qocalmırsan, cavanlaşırsan,
Hələ cavanlığın gələcəkdədir.
Coşqun dəniz kimi aşıb-daşırsan,
Hər sözün, hər dalğan bir ürəkdədir.

Əgər soruşsalar sənin yerini,
Deyərəm eldədir Vurğunun canı.
Oxuya-oxuya əsərlərini
Gəzdim qarış-qarış Azərbaycanı…

**1976, fevral**

## SƏN AĞLAYIRSAN

Yanaqların dağ laləsimi? –
Lalə də belə gözəl deyil.
Sən ağlayırsan,
Gözlərin bir cüt
bulaqdır elə bil.
Göz yaşların
yanağına süzülür
gilə-gilə, dən-dən…
Elə bil bulaq suyu axır
Çiçəkli bir çəməndən…
Sən ağlayırsan,
Gözlərim gözlərindən
doya bilmir.
Sən ağlayırsan,
Üzündəki gözəlliyi
Göz yaşların da yuya bilmir…

**03.02.1976**

***

Mən qaratikan koluyam,
Sən bənövşə.
Qısqanclığım tikanlarımdır,
Qoruyur səni həmişə…

**04.02.1976**

## MƏNİM DAN ULDUZUM

Gecənin qoynundan
Bir ağ gəmi tək,
Doğma sahillərə
Üz, gözəl mələk!

Gözlərim oyaqdır,
Sübhə qədər.
Gözlərim mayakdır
Sübhə qədər.

Gəl, təşnə ürəklər
Coşub çağlasın.
Qəlbimiz sevincdən
Gülsün, ağlasın.

Gözlərim oyaqdır,
Sübhə qədər.
Gözlərim mayakdır
Sübhə qədər.

Niyə soruşmursan
Halım necədir?
Sənsiz gündüzlər də
Mənə gecədir.

Gəl ərit qəlbimdən
Qarı-buzu.
Gözlərin qəlbimin
Dan ulduzu…

## SƏNDƏ DƏ İNSAF OLSUN

Yenə də küçələrə
Ələndi qışın qarı.
Sənə olan eşqimi
Döndərib qar topuna
Tulladım sənə sarı.

Qoymur ki, bir söz deyim,
Ürəyimə bələdəm.
Qar əridi, sel oldu,
Mənim utancaqlığım
Əriməyib hələ də…

Bahar gəldi, sevinclə
Yenə qabardı sinə.
Mən öz məhəbbətimi
Bir dəstə gül eləyib
Sənə gətirdim, sənə!

Ürəyimdə qövr edən
Yaralar köhnə, əski.
Səndə də insaf olsun,
Hər sözü dil deməz ki!

**12.02.1976**

***

İnanmaram, heç zaman
Könül verməz o, yada.
Susan dəniz kimiyəm,
Eşqi məni oyada!

İşvələri can alır,
O, nazlı bir gəlindi.
Oğulsansa, nəfsinin
Öhdəsindən gəl indi!

**1976, fevral**

***

Musiqidir sözləri,
Segahı var, şuru var.
Zil qaradır gözləri,
Zülməti yox, nuru var.

Şux sinəsi az qalır
Parçalasın köynəyi.
Bəs niyə barmaqlarım
Sübhə qədər göynəyir?

Boy-buxunu can alır,
İncə beli pakizə.
Odlu dodaq təşnədir
Gül dodağa, pak üzə.

Gözlərini, qaşını
Böylə gözəl xəlq edən
Gözlərimin yaşını
Çoxmu sevir? Ah nədən

Qəlbim olub birtəhər
İnləyirəm gizlicə.
Odlanıram hər səhər,
Göynəyirəm hər gecə…

Dərdlərimin çarəsi
Həssas ola, dərd bilə!
Dərmanı görcək niyə
Şiddət edir dərd belə?!

**22.03.1976**

***

Ürək atəşlə yanır, kimdi baxan sırsıraya?
Düzülübdür yenə də yolda maşınlar sıraya.

Axı toydur, qovuşur bir-birinə bəylə gəlin,
Durmayın gendə, a dostlar, bu toya siz də gəlin!

Ürək açsın yenə zəngulənsi xanəndəmizin,
Sən özün ki, həzin oldun, dinəcək tar da həzin.

Qoşulub bir-birinə rəqs eləyir bir bax hamı,
Rəsmilikdən qutara bəlkə bu konyak yaxamı.

Öpüşür göydə qədəhlər yenə meyxoş oluruq,
Öpüşən badə olur, biz niyə sərxoş oluruq?

**1976, aprel**

***

Özgələr mənim kimi çətin sevər,
Gözümə gözün baxıb, nur olmuşam.
Eşqə ki düşüb könül, a bəxtəvər,
Sısqa bir bulaq idim, gur olmuşam.

O ala gözündədir səadətim,
Bir şirin sözündədir səadətim,
Hicranın özündədir səadətim, –
Günahım budur, gülüm, vurulmuşam…

Sızlayan ürəkmi, ya qırıq kaman?
Dad əlindən hicranın, aman, aman…
Həsrətin üzür məni, yar, heç zaman
Demirəm bu sevdadan yorulmuşam.

Gözlərin bulud kimi dolub yenə,
Məndə ki, bu yanğı var, çətin sönə.
Qovuşub sənə, çıxınca ağ günə
Mən yazıq kösöv kimi qaralmışam…

**07.05.1976**

***

Söylədim dərman elə, yar,
sinəmin yarəsinə,
Dedi ki, qəm yemə heç,
meydan olar yarə sinə.
Söylədim bəs nə zaman? –
Gözlə dedi nazlı mələk,
Gözləyim, gözləməyim? –
Bəs sevənin çarəsi nə?!

**13.05.1976**

***

–Xəbər ver gəlişimi,
Ləngitmə gəl işimi!
Bağban, insafın olsun,
Məni ötür gülgilə!

–Ağlayır için-için,
Gözündən şehi için.
Məgər mən istəmirəm
Ağlamaya, gül gülə?!

–Sevgi odu, eşq odu, –
Sönməz ola eşq odu,
Güldən betər olarsan,
Az lağ edib gül gülə…

Eh neyləyim bəs indi?
Öpdüm, dedi bəsindi!
Təşnəyə bircə qurtum
Nədir? – Dedi gül gülə…

**24.05.1976**

## SUMQAYITIN BORULARI

**Bir fəhlə dostuma**

Sözünü inamla deyər əllərin
Əgər yoğrulubsa poladdan, oddan.
Polad əriməzdi, əgər əllərin
Möhkəm olmasaydı, qardaş, poladdan.

Ekiz yaranıbdır ömrün baharla,
Zəhmətin güc verib obaya, elə.
Sənin düzəltdiyin o borularla
Həyat aparırıq səhraya, çölə.

Dostluq yaxın etdi uzaq yolları,
Dostun töhfəsiylə öyündü insan.
Mənim şəhərimin polad qolları
Axır ki, uzandı Hindistanacan.

Ürəkdə arzular dönər bir selə,
Aşar bərələri, açar bəndləri.
Yurdum Sumqayıtın qolları ilə
Qucar şəhərləri, qucar kəndləri.

**21.06.1976**

## KOSMONAVT V.M.JOLOBOVA

Dedilər: – Kosmosdan birinci dəfə
De, hansı şəhəri görmək dilərdin? –
Şirin xatirələr düzüldü səfə,
Elə bil ürəkdə azaldı dərdin.

Qaynar gəncliyinin ucaldı səsi,
Parklar, xiyabanlar güldü elə bil.
Qopdu dodağından “Bakı” kəlməsi,
Xəzər təlatümə gəldi elə bil.

Elmin qüdrətiylə ucalır insan,
Çox sağ ol, baş əydin bu doğma yurda.
Sən özün Bakıda doğulmamısan,
Ucalmaq istəyin doğulub burda.

Əl etdi göylərin səyyarələri,
Vətən yüksəlişə hazır ol dedi.
Sən qalxdın, Bakının fəvvarələri
Ardınca su səpib yaxşı yol dedi…

**07.07.1976. Qubadlı**

## ODLA OYNAMAYIN

Cavanlar "qoca"ya hey işvə satır,
Oğrun baxışları demirəm hələ.
Yanıb isitməyə gümanım çatır,
Qızlar, kül deyiləm, kömürəm hələ…

**21.07.1976**

***

Həsrətindən qovruluram,
Duymayıbdır hələ məni.
Məhəbbəti Məcnun kimi
Salıb dağa, çölə məni.

Onu gördüm səhər tezdən,
Heykəl kimi dayandım mən.
Dedi: – Niyə birtəhərsən?
Dedim: –Çəkmə zilə məni.

Məhzun-məhzun dönüb baxdı,
Oyandımı qara baxtım?
Gözlərimdə şimşək çaxdı,
Qərq elədi selə məni…

**26.07.1976**

## GEOLOQ

Dolanırsan səhər-axşam,
O dağ mənim, bu daş sənin.
Deyirəm uğurlu olsun
Axtarışın, qardaş, sənin!

Bu dağların ürəyini
Ələ almaq deyil asan.
Oyadırsan süxurları
Əsrlərin yuxusundan…

Torpaq sanki asimandır,
Ulduzları inci, gövhər.
Kamalınla kəşf edirsən
Sən onları axşam, səhər.

Təzə-təzə mədənləri
Xəritənə nəqş edirsən.
Neçə-neçə xəzinəni
İnsanlara bəxş edirsən.

**02.08.1976**

***

Ürək həsrət yaşadı
o vədəyə, o çağa,
Gecə tək yatanların
qor ələndi yerinə.
Yana-yana qovuşsa
nə vaxt ocaq ocağa,
Bil ki, həsrət ürəklər
qovuşdu bir-birinə…

**14.08.1976**

## GÖZƏLLİK BULAĞI

Günah sənin özündədir
Niyə məni qınayırsan?
Bir gözəllik bulağısan,
Qayır-qayır qaynayırsan.

O şəffaflıq, o büllurluq
Tanımırmı təşnəsini?
Gözü ala gözlərindir
Bu gözəllik çeşməsinin.

Hey içirəm, sönmür odum,
Arzulayır yenə ürək.
Qoyub yerə dizlərimi
İçəydim son qətrəyədək…

Dinc qoymayır ürəyimi
Bu ümidsiz istək, arzu.
Ömrüm-günüm, tükənərmi
İçmək ilə bulaqdan su?!

**27.09.1976**

## BİR AHUYA TUŞ OLDUM

Bir ahuya tuş oldum,
Dayandım əfsunlu tək,
Nə dindi, nə danışdı,
Boylandı ürkək-ürkək.

Sükutu ürəyimi
Saldı əcəb riqqətə.
Axı nə ehtiyacı
Gözəlin, gözəlliyin
Artıq sözə, söhbətə!

**10.09.1976**

***

Titrədib əndamını odlara yaxmış canımı,
Yaradan şux yaradıbdır bu Məlahət xanımı.

O, dünən qönçə idi, güldür, açılmış təzəcə,
Mən isə hey soluram, sürmüşəm öz dövranımı.

Çıxarıb xəncərimi sübhə qədər cəng elədim,
Qalxanı ram elədi cuşə gəlib qalxanımı.

Yandırıb qəlbimi atəşlərə süzgün baxışı,
Verməərəm bir ilimə onlu keçən bir anımı.

Oyanıb mən yuxudan gördüm əcəb uyğu imiş,
Büzüşüb yatmış idim mən qucaraq yorğanımı…

**10.09.1976**

***

Xalların sol yanağında düzülüb yan-yana, qız,
Yaxınıq biz o qədər ki, toxunur yan yana, qız.

Titrəyir gör necə quyruq kimi şümşad bədənin,
Qorxuram ki, alışıb öz oduna yan yana, qız.

Uçunub hey can atır sevgili yar ağuşuna,
Həsrətimdən əriyər, insaf elə, yan, yana, qız.

Sinən ahənrüba tək cəzb eləyir əllərimi,
Səni candan sevənə baxma belə yan-yan, a qız…

**24.09.1976**

## SƏN AĞLAYIRSAN

Kirpiyindən süzülən
Bənzəmir göz yaşına.
Bilirsən ki, indicə
Çıxacağam qarışına.

Oğrun-oğrun baxırsan
Yol çəkən gözlərimə.
Yanaqların çiçəkdir,
Şeh düşüb üzərinə…

**27.09.1976**

## OĞLUMA

Sənin qulluğunda hər an hazıram,
Eşqinlə gəzirəm aləmi, oğul.
Mən sənə kövrəlib şeir yazıram,
Əlimdən alırsan qələmi, oğul.

Şirin şey yox imiş heç övlad kimi,
Məndən inciyəcək anan bəlkə də.
Axı ona olan məhəbbətimi
Sənə məhəbbətim qoyub kölgədə!

Sevincim kükrəyir güləndə üzün,
Sən addım atırsan tutub əlimdən.
Təzə dil açırsan, hər qırıq sözün
Nəğməyə çevrilir mənim dilimdə.

Qəlbimin arzusu qəlbinə hopub,
Təzə bir qönçəsən güllər içində.
Ay oğul, sən mənim qəlbimdən qopub
Gəzən ürəyimsən ellər içində…

**30.09.1976**

## SƏNSİZ

Sənsiz ürək qovrulub,
Əriyir gilə-gilə.
Həsrətin qırov olub,
Düşüb çəmənə, çölə…

## GƏL

İnsaf elə, bizə gəl,
Oturaq diz-dizə gəl.
Yaram köz-köz olubdur,
Su çiləmə közə gəl.

Çiçək bitib, düzə gəl,
Saçlarını bəzə gəl.
Dodaqlarım çatlayıb,
Əllərində kuzə gəl.

Quş tək süzə-süzə gəl,
Çiçək üzə-üzə gəl.
Gözlərim yolundadır,
İnanma hər sözə, gəl.

Dolan, gəzə-gəzə gəl,
Qəlbin əsə-əsə gəl.
Daha dözə bilmirəm,
Ağrın alım, kəsə gəl…

**03.10.1976**

## MAKİNAÇI QIZ

Titrək barmaqları naxışlar salır,
Gizlicə baxıram o barmaqlara.
Elə bil oturub piano çalır,
Nəğmələr süzülür ağ varaqlara…

**03.10.1976**

## QIZ GÜNDƏLİK YAZAR

Xəyalən dolanar dərəni, dağı
Eşqi sudan duru, aydan arıdı.
Ona elə gəlir indi yazdığı
Dünyanın ən kövrək misralarıdır…

Çəkilib bir küncə yazar, hey yazar,
Fikirlər, xəyallar yetişməz sona.
Bir az narahatlıq, bir az intizar,
Bir az da göz yaşı qarışıb ona…

Nə qədər qısqanclıq, nə qədər ümid,
Bir yanda gün çıxıb, bir tərəfdə çən.
Hər ani baxışı, hər təbəssümü
Yozar neçə yerə, yazar yenidən…

Sevgisiz soyuyar, dönər buza o,
Oxu daşa dəysə, gülməz dünyada.
Düşünür, vüsala qovuşmasa o,
Yəqin ki, yaşaya bilməz dünyada.

Gizli alışır o, gizli yanır o,
İşığı kağızın üstünə axır.
Dünyanın ən böyük dərdi sanır o
Arzuya, istəyə qovuşmamağı…

Nə üçün qələmi alıbdır ələ?
Eşqi dilləndirir könül tarını.
Dərdindən öldüyü cavana belə
Qısqanar, oxumaz yazdıqlarını.

Xəyalən dolanar dərəni, dağı
Eşqi sudan duru, aydan arıdı.
Ona elə gəlir indi yazdığı
Dünyanın ən kövrək misralarıdır…

**06.10.1976**

## BALAMIN GÜLÜŞLƏRİ

Körpə balam, gülüşlərin çaydır elə bil,
Varlığıma dalğa-dalğa sevinc gətirir.
Mənim ata ürəyimdə, bu gizli deyil,
Gülüşünün hər dalğası bir gül bitirir…

**16.10.1976**

## UTANCAQ MƏHƏBBƏT

Həsrət üzür məni, yenə yalqızam,
Uzaqdan başına fırlanıram mən.
Elə bil günəşsən, mənsə ulduzam,
Səndən işıq alıb nurlanıram mən.

Dinir ürəyimin kövrəlmiş simi,
Vüsal istəsə də könlüm hər zaman –
Sən göyün üzündə görünən kimi
Mən gözdən itirəm utandığımdan…

**14.11.1976**

***

Vərdiş etməmisən dil-dil ötməyə,
Elə bil dilinə vurulub kilid.
Nə var saman altdan su yeritməyə,
Oğulsan samanın üstündən yerit…

**26.11.1976**

## HƏYAT

**Oğlum Gündüzə**

Səpə-səpə gəlmişəm ömrümü;
Bir az kəndimizdəki yamaclara,
Bir az budaqları yerə dəyən ağaclara.
Bir az çeşmə başına,
Bir az kəndimizin baharına,
Bir az qışına.
Səpə-səpə gəlmişəm ömrümü;
Bir az bürküyə,
Bir az borana.
Bir az yaylağa,
Bir az arana.
Bir az parta arxasına
Bir az dostlarımın arasına.
Bir az kitabxanaya,
Bir az kababxanaya.
Səpə-səpə gəlmişəm ömrümü;
Bir az tələbə yataqxanasına,
Bir az auditoriyalara.
Bir az qatara,
Bir az təyyarəyə,
Bir az maşına.
Bir az gündüzlərin
Bir az gecələrin ağuşuna.

Səpə-səpə gəlmişəm ömrümü;
Bir az o tinə,
Bir az bu tinə.
Bir az sevdiyim qızın evlərinin
həndəvərinə,
Bir az oxuduğu məktəbin orbitinə.
Bir az çörək növbəsinə,
Bir az toya,
Bir az yasa.
Bir az kino-teatra,
Bir az iclasa.
Səpə-səpə gəlmişəm ömrümü;
Bir az məktəbə,
Bir az şagirdlərin ürəyinə,
Bir az gözlərinə.
Bir az yoxladığım dəftərlərin üzərinə.
Bir az miz arxasına,
Bir az redaksiya qapılarına.
Özümə heç nə qalmayacaq,
Səpəcəyəm ömrümün qalanını –
Kasıbın olanını…
Sonra şirəsi sorulmuş cəcik kimi
Torpağa atacaqlar cəsədimi.
Ömrüm-günüm, ciyərparam,
Görə bilmədiyimi sən görərsən,
Dada bilmədiyimi sən dadarsan,
Deyə bilmədiyimi sən deyərsən…
Bəsimdir yerimdə
Bir çiçək boy atsa,
Bir yarpaq göyərsə…

**22.12.1976**

## NİYƏ KƏNDDƏN YAZIRAM

**Qardaşım Oqtaya**

Bəyənmədi şeirimin
mövzusunu qardaşım.
Dedi ki, çıxmasa da
belə işlərdən başım,
Bir az seçə bilirəm
mən də yaxşını pisdən.
Hamı kosmosdan yazır,
sən isə kəndimizdən.
Şeirinin qəhrəmanı
Fərzalıdı, Əhəddi,
Elə bil əsrimizdə
sənə mövzu qəhətdi?!
Əyri kənd cığırında
bəsdir düşdün bəndə sən,
İrəliyə uçmaqdan,
xəyalın qanadında
Qayıdırsan kəndə sən…
…O əyri cığırlara
tökülüb ömrüm-günüm,
Kahaların üstündə
süzmək istəyirəm mən.
Muncuq dənələri tək
o kəndə səpələnən
Günləri bircə-bircə
yığıb dağdan, dərədən
Şeirimin misrasına
düzmək istəyirəm mən.
İstəyirəm yenə də
çıxam Mistan yalına,

Odun yığam obaşdan.
Keçmək istəyir könlüm
Pəyhandan, Qarağacdan…
İçmək istəyirəm mən
yenə Quş bulağından.
Səpmək istəyirəm mən
o müqəddəs torpağa
Ömrümün bu çağından.
Öpmək istəyirəm mən
Qısrağın dodağından.
Görmək istəyirəm mən
Çardaxlını Əyindən,
Dərmək istəyirəm mən
dağların çiçəyindən...
Dolanmaq istəyirəm
bu düzlərin başına,
Bulanmaq istəyirəm
o yerlərin müqəddəs
Torpağına, daşına.
Cevizə tolamazda
atmaq istəyirəm mən,
Qapımızdakı tutun
kölgəsində uzanıb,
Yatmaq istəyirəm mən.
Soxulmaq istəyirəm
yenə kolxoz bağına
Qorxmayıb qoruqçunun
tük ürpədən səsindən.
Yıxılmaq istəyirəm
lap elə sənin kimi
Gilasın təpəsindən…
Atam acıqlananda
canımın qorxusundan

Yal aşmaq istəyirəm.
Çilingağac üstündə
uşaqlıq dostlarımla
Dalaşmaq istəyirəm.
Nə qəribə istəkdi,
nə qəribə arzudu,
Ürəyim o çağlara
elə bil tamarzıdı…
Kəndimizə gedirəm
qapayaraq gözümü,
Əvəz edə bilmirəm
heç özüm də özümü…
İndiki tək deyildim,
ayrı idim keçən il,
Geri qaytarmaq olmur
ömrümüzdən keçəni…
O çağları mən yığıb-
yığışdıra bilmirəm,
Qayğısız günlərimi
beş-on vərəq kağıza
Sığışdıra bilmirəm.
Ömrün ötən çağları
yadıma düşür hərdən.
Təkcə kənddən yazmıram,
yazıram ona bağlı
Şirin xatirələrdən…

**28.12.1976**

## YENI İL QABAĞI

Ardıc gəlib mağazaya,
ardıc gəlib bazara,
İstəyirəm ardıc alıb
yolka qurum Gülzara.

Hansından alsam sevinər,
qızım açar qol-qanad.
Təbiisi üç manatdır,
sünisi səkkiz manat…

**31.12.1976**

## QİYMƏTLƏR ARTIR

Dünən on beş misra üçün
on bir manat,
Bu gün on beş misra üçün
on beş manat…
Hə, deyirsən sevincimdən
Bir quş kimi açım qanad?
Dünən meyvə verməyən bağ
Meyvəlidir, bəhərlidir.
Bu gün mənim yaratdığım
Dünənkindən zəifsə də,
Dünənkindən dəyərlidir.
Artır insan övladının
Hünəri də, qeyrəti də,
Zəhmətimin qiyməti də –
Vay alanın halına!

**04.01.1977**

## İLK MƏHƏBBƏT

Əlacı yoxdur,
dərdimə çarə axtarmayın
yenidən.
Mənim uğursuz məhəbbətim
mənim xərçəngimdi,

Kəsib atmaq istəsən,
Onu da öldürəcəksən,
Məni də…

**11.01.1977**

***

Hayanda gərəklisən,
Orda qal, orda otur.
Çayır çöldə çəməndir,
Bostanda alaq otu…

**11.01.1977**

***

Gül qabında qurumayıb gülab hələ,
Utanmadan, qızarmadan gəlib dilə
Danışanda o, namusdan, o, qeyrətdən,
Donacaqsan öz yerində sən heyrətdən…

**14.01.1977**

***

Bu dağların çiçəyini
Bu dağlardan qaçırmayın.
Dərələri doldurmaqçün
Zirvələri uçurmayın…

**16.01.1977**

## KİTABIN İÇİNDƏKİLƏR

### "Qəm karvanı"ndan

### Səni bircə duyan varsa

Sən məmi qınama....3
Bəxtimin ülkəri deyərdim sənə....3
Bir qadının sözlərindən....4
Ay uzaq dağlardan gələn çiçəyim....4
Sevgi qanadında....5
Dilimdə bitən çiçək....6
Ürəyin sehrli qapıları var....7
Bir həzin xatirə....8
Gözaltı etdiyim qızlar....8
Səni bircə duyan varsa....9
Türk gözəli....9
Sevgi olacaq....10
Füzuli kimi....10
Bizim pəncərəmiz üzbəüz düşüb....11
Sıldırım çiçəyi....12
Nə vaxtdandır sevgi şeri yaza bilmirəm....12
Mən səni sevirdim....13
Görüş....14
Kor deyil nədir....15
Əlinə avtoqraf yazdığım gözəl....15
Əmanət....16
Hər bahar gələndə....16
Sevgi payım....17
Lalə....18
Xal....19
"Çiçəklər içində ürəyim itib"....19
"Təşnəyəm, gəl paralanmış"....19
Yaraşır....20
Cəza....21
Əgər məhəbbət olmasa....21

Gələsən.....22
O zaman mən sənə könül verəndə.....23
Söz verməmişdim.....24
Sənin ürəyinin başına dönüm.....25
Neyləyə bilər.....25
Qorxuram gözümün yaşı quruya.....26
Nə yaxşı üstümdə ağlayanım var.....27
Mənim göz yaşlarım qurumaz daha.....27
Gümüşü gecə.....28
İki gözəl.....29
"Bir nadan qəlbimi qan eləmişdi".....29
Bir gözələ.....30
Sevgi qanadında.....30
Dənizə baxan gözəl.....31
İstəyirəm.....32
Şairi sevən gözəl.....33
Məni duyardınmı.....34
Səni duymasaydım.....35
Xallı qız.....35
Nə xeyri.....36
Çəkəcək.....36
Nə yaxşı ki, Siz çıxdınız qarışma.....37
Şairi öldürən gözəl.....38
Naz.....38
Məhəbbət yaşayacaq.....38
Bir ovuc duz.....39
Həsrət ilə gözləyirəm yolunuzu.....40
"Baxışlar atəşli, üzlər təzə-tər".....40
"Əlimdə titrəyən əlinə qurban".....40
"Qıymaram adına düşsün bir ıəkə".....40
"Sevda yollarında, gülüm, mətin ol".....41
"Sevdalı ürəyim daş olsa bir gün".....41
"Elə bil başımdan çıxıbdır huşum".....41
Neyləyim.....41
Ay üst mərtəbədən boylanan gözəl.....42

Ay gözümə baxan gözəl.....42
"Qaşın əyri xəncərimdi".....43
"Talada güllə açıldı".....43
O qız paltar sərirdi.....44
Oldu.....45
Üstə.....45
Mərmər qapım döyülür.....46
Gözəlliyin birinci şərti.....47
"Payız kəsibdir qapımı".....47
Çiçəyə döndü.....48
Sevgi kədəri.....48
Ölüm mələyi.....49
Hərdən səni görürəmsə.....49
Çətin ki gələrik üz-üzə bir də.....50
Təbəssüm işığında.....51
Əgər sən görsəydin özün özünü.....51
Çiçək körpüsü.....52
Ay mənim təzəcə otuxan quzum.....52
Sevməyirsə.....53
"Kim sevmirsə, kövrək deyil".....53
Mənə elə gəldi ki.....53
Ürəyimdə yatan sevgi.....54
"Niyə zülm edirsən özün özünə".....55
Bir də ayıldıq ki.....55
Bir gözələ.....56
"Çiçəklər dəriləndə solsa da".....56
"Zirvədən o yana".....57
Təbiətin qoynunda.....57
Böyürtkən kolu olum.....58
Quşum qondu bir gözələ yamanca.....59
Qollarımın arasında.....59
Gözlərinin həsrətində.....60
"Mən sevda dənizində".....60
Biz gəldik üz-üzə.....61
Nəğmə müəllimi.....61

Tale qonşu saldı yenidən bizi.......................................................62
Bahar gələr..........................................................................................62
Kitabxanaçı.........................................................................................63
Ay bu düzlərin turacı..........................................................................63
Sənin eşqinlə.......................................................................................64
Hayana baxırmış mənim gözlərim.....................................................65
Bu sevdanın yolu................................................................................66
Küləkli havada....................................................................................67
Bir anın sevinci...................................................................................67
"Üzümə elə baxma"............................................................................68
Mənim taleyimə gözlərin düşüb........................................................68
Sən baxsan...........................................................................................69
Bir havaya qol götürdük ikimiz.........................................................69
Ay cüt gəzən bəxtəvər........................................................................70

**Ömürdən düşən yarpaqlar**

Salam, iyirmi birinci əsr....................................................................71
Əlli yaşım...........................................................................................73
Yaşamalı dünyadı...............................................................................74
Ey vətən...............................................................................................75
Ulduzlar...............................................................................................76
Qusar lövhələri....................................................................................76
Qayabulaq...........................................................................................77
Gözləri yollarda qalan yarpaqlar........................................................78
Qarlı nağıl və ya Qusarda ilk qar.......................................................79
"Xoşbəxtəm ki, bu meşəyə"...............................................................80
Danışan ocaq.......................................................................................81
"Demə ki, bu ocaq sönüb"..................................................................81
Meşəyə açılan qapı..............................................................................82
Yağış yağır Qusara.............................................................................83
Son bahar.............................................................................................84
Qorxudan bar verən ağac....................................................................85
Ötən günlər..........................................................................................86
Yağış....................................................................................................87
20 Yanvar............................................................................................87

“Siyasət yarışında”........................................................................87
Qara yaylıq..........................................................................................88
Qırmızı işıqlar.....................................................................................89
“Boş vaxtımda şeir yazıram” deyənlərə..................................89
“Şair Sabir” gəmisi...........................................................................90
Atama məktub.......................................................................................90
“Yekəxana” ləqəbim...........................................................................92
Dəli Vaqif...............................................................................................92
Özümə məktub.....................................................................................93
Sözümüzün, kəlməmizin çoxdu çaları......................................94
Sənətin yolu..........................................................................................95
Dağların şairə cavab sözü............................................................96
Sənət dağı..............................................................................................97
Bu sözün altında................................................................................98
Akademiya.............................................................................................99
Bir şama bənzəyir şair ömrü də...............................................100
Rekviyem.............................................................................................101
Qələbə bayrağı...................................................................................101
Vəhşi quşlar.........................................................................................102
Bir dəfə..................................................................................................102
Palıd qozası.........................................................................................103
“Düşmən havalanıb”.......................................................................103
“Yaşaya bilərmi”................................................................................104
Oldu........................................................................................................104
“Sona bülbüllər”...............................................................................105
Nəğmə dənizi.......................................................................................106
Sənin göz yaşların.............................................................................107
Baxır döyən əlin kəramətinə.........................................................108
Akademiyanın qarşısındakı bağ...................................................109
Top kimi.................................................................................................110
Yazı masam.........................................................................................110
Yazı masama uzanan gül...............................................................111
“İnsan ürəyi”......................................................................................111
Qəbir.......................................................................................................111
“Ölüm – əbədiyyətdi”.......................................................................112

Ötəri sevgi....................................................................112
Nəsillərin yarpaq tökümü....................................................112
Sən...............................................................................113
Sükutun dili...................................................................113
Astarada keçən gecəm........................................................114
“Qaş-qabağı yer süpürür”....................................................115
Bənzəyiş........................................................................115
Cərrah...........................................................................115
Meşədə...........................................................................116
Durna.............................................................................117
Vida nəğməsi..................................................................117
